QASIM QIRXQIZLI

# ƏSRİN FACİƏSİ- XOCALI

1999
739

T3(2A)
Q-57

QASIM QIRXQIZLI

# ƏSRİN FACİƏSİ — XOCALI

67860

Bakı
Şərq-Qərb
1999

67462

A... б ... Республ
ИОТ...
им ... Ф ...хундова

АРХИВ

Azərbaycan Milli Kitabxanası

+ Ш6(2=Аз)-49

Q 23

*Hidayət ORUCOVUN*
ümumi redaktəsi ilə

Q 23 **Qasım Qırxqızlı: Əsrin faciəsi–Xocalı**. Bakı, Şərq-Qərb, 1999, 124 səh.

Oxuculara təqdim olunan "Əsrin faciəsi - Xocalı" kitabında Qarabağın, Xocalının tarixi keçmişi, bu cünü, 1992-ci il 26 fevral Xocalı soyqırımı, onun törəmə səbəbləri haqqında müəllif araşdırmaları və müsibətin şahidləri ilə müsahibələr verilmişdir.

Q $\frac{4702060104}{M-659-99}$ E'lansız, 1999

ISBN 5 - 565 - 00270 - 0

© Şərq-Qərb, 1999

***... 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir...***

***... Dünyada hər şeyin, dərdin də, əzabın da bir sonu var. O cümlədən, məcburən qatıldığımız müharibənin də. Xalqımızı əmin etmək istəyirəm ki, müqəddəs vətənimizin real müstəqilliyi və torpaqlarımızın düşmən tapdağından azad olacağı gün uzaqda deyildir. Hamımızın sıx birliyimizlə biz bu ağır tale sınağından qələbəylə çıxacağıq və hər kəs öz doğma od-ocağına qayıdacaqdır.***

***HEYDƏR ƏLİYEV***

Azərbaycan Milli Kitabxanası

## XOCALI ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNƏ

# QARABAĞDA QƏRİB YURDUM

*"Bizdən sənin pak ruhuna fatehələr, rəhmətlər,*
*Unudulmaz xatirə ki, qəlb dolusu hörmətlər."*



*Qarabağ əsrarəngiz gözəlliyi, füsunkar təbiəti, müalicəvi suları, zəngin təbii ehtiyatları ilə seçilib-sayılan bir cənnətməkandır. Qarabağ kimi bir bakirə gözəlin taleyini 1923-cü ildən tarixən bizimlə düşmən olan ermənilərin ümidinə buraxmışıq. Bu ümid isə bizi həmişə ümidsizliyə doğru sürükləyib və uçuruma yuvarlandırıb. Yuvarlaqlaşa-yuvarlaqlaşa kiçiltmək istəyiblər bizi. Kiçildə-kiçildə Yer üzündən silməyə çalışıblar. Xoşbəxtlikdən buna tam nail ola bilməyiblər. Lakin tariximizə, ədəbiyyatımıza, mə'nəviyyatımıza sarsıdıcı zərbələr vurublar. Çapıb, talayıblar sərvətlərimizi, bərəkətli torpaqlarımızı qıyma-qıyma qıymalayıblar.*

*Həmişə də "sarı iblis" quyruğunu qısa-qısa öz orbitində fırladıb bizi. "Sarı iblis"in caynağından qurtara bilməmişik. Və bu dəfə də qurtara bilmədik. Vəzifə və var sahibi olmaq bir çoxumuzun qanına işləyib. Bu bir bəladır ki, qurd kimi içimizi gəmirib yeyir. Xalq mə'nəviyyatını, millət dəyərini qiymətləndirməmişik. Keçmişimizi dəyərləndirib onunla bəhrələnməmişik. Faciələrimiz də elə oradan başlayıb, bu günə kimi də davam edir.*

*Qarabağ dünyanın böyük oyununun kiçik bir hissəsi idi. Qarabağ əsrlər boyu düşmənlərimizə göz dağı olub. Onu tar-mar*



Azərbaycan Milli Kitabxanası

etməkdən tarixi düşmənlərimiz olan ermənilər həzz alıblar. Biz isə hər şeyi unutmuşuq. Düşmənə "dost, qardaş", deyib ocağımızın başına keçirtmişik. Qarabağ müharibəsi başlı-başına buraxılmışdı. Qarabağın kəndləri Ermənistan, Rusiya kimi başqa dövlətlərlə müharibədə təkbaşına əliyalın qoruyurdu torpağını. Satqın qüvvələr Qarabağa yeridildikdən sonra kəndlərimiz bir-bir yandırılıb külə dönürdü. Xocalı şəhəri strateji əhəmiyyətə malik bir ərazidir. Xocalı qədim mədəniyyəti, tarixi abidələri ilə seçilən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən bir diyardır. Bu diyarın qiymətini ermənilər bizdən qat-qat yüksək səviyyədə dəyərləndirməyi bacarırdılar. Ona görə də Xocalının mərd, döyüşkən sakinlərinə ölüm hökmü kəsmişdilər. Və bu hökmü də namərdcəsinə icra etdilər.

Qarabağın, Xocalının döyüşkən, qorxmaz oğulları məhv edildi. Xocalı faciəsi ilə bizi mübariz, döyüşkən ruhumuzdan ayırmaq istədilər. Xocalıdan, bütün türk dünyasından qisas aldılar. Əfsuslar olsun ki, hələ də ayrı-ayrı partiyalar, birliklər, təşkilatlar yaradıb vəzifəyə gəlmək hissinə qapılanlarımız var. Kaş bu hisslər Qarabağ, Xocalı uğrunda mübarizə ruhunda köklənəydi. Yaxşıya yaxşı, pisə pis deməyi bacarmalıyıq.

Bu günə kimi Qarabağ müharibəsini, onun qəhrəmanlıq salnaməsini, tarixini əks etdirən dəyərli, bitkin bir əsər yazılıb meydana çıxmamışdır. Yazılan əsərlərdə ağıdan, şivəndən başqa bir şey yoxdur. Mübariz əhval-ruhiyyə üstündə köklənməliyik. Tarixi abidələri gələcək nəslə miras qoymalıyıq.

Tarixi mə'xəzlərdən faydalanıb, Xocalı haqqında materialların bir qismini topladım ki, itib-batmasın Xocalının adı. Faciəni törədən amilləri araşdırdım ki, əsl səbəblər üzə çıxsın. Qarabağda qalan qərib yurdlarımız, müqəddəs Xocalımız, aranımız, dağımız, qibləgahımız talan-qarət edildi. Əsrlər boyu sığındığımız yurd yerlərimiz zorla əlimizdən alındı. Müqəddəs ruhlarımız əsir düşdülər. Əsir ruhlarımızın ah-naləsi dağa-daşa ün salıb haraylayır bizləri. Biz günahkarıq onların qarşısında. Tökəcəyimiz şəhid qanlarımızla yumalıyıq günahlarımızı. Harayı, imdadı özümüzdən ummalı, sapı özümüzdən olan baltalardan qorunmalıyıq.

İşğal olunmuş, şəhid torpaqlarımızın tarixini yaratmalıyıq bu gün. Milli-mə'nəvi dəyərlərimizin keşiyində dayanıb, yad nəfəslərdən qorumalıyıq onları.



*Xocalı daş yaddaşımız, ulu keçmişimiz, dünənimiz, bu günümüzdür. Xocalı ağrı-acımız, tariximizin ibrət dərsidir bizə. Xocalı qırğını milli faciəmiz yox, milli yaddaşımız və tarixi dəyərimizdir.*

*Xocalının tarixi materiallarını bir yerə cəmləşdirməyə, faciənin səbəb və mahiyyətini açmağa çalışmışam mən bu kitabda. Yağı tapdağı altında qalan Qarabağımızın keçmişindən yaddaş üçün xatırlatmalar vermişəm ki, bəlkə yaddaşlardan silinməyə keçmişimiz.*

*İstifadə etdiyim ədəbiyyatların müəlliflərinə, mənə yardımçı olanların hamısına səmimi minnətdarlığımı bildirirəm. Xocalının döyüşkən ruhlu, qəhrəman oğullarının göstərdiyi şücaətləri əks etdirən ikinci kitab üzərində işləyirəm. Ymidvaram ki, ömür vəfa edəcək, onu da başa çatdıracağam.*

*Xocalı haqqında cild-cild əsərlər işləməliyik, onun tarixini açmalıyıq. Mə'nəvi dəyərlərimizi Xocalının daş kitabələrində yaşatmalıyıq.*

*Sağlıqla qal, oxucum. Sağlıqla qal, Xocalım, aranım, dağım, doğma Qarabağım mənim. Sizləri Allaha amanatlayıb, bir də görüşənə qədər ayrılıram...*

***Qasım Qırxqızlı***



Azərbaycan Milli Kitabxanası

## XOCALI ÜMİD ÇIRAĞIMIZ İDİ

Xocalı sovetliyi (sovetliyin tərkibində Xocalı, Dərələyəz, Qala-dərəsi kəndləri olmuşdur) 1978-ci ilə qədər Xankəndi (Stepanakert) rayonunun tərkibində, həmin ildən 1990-cı ilə qədər isə Əsgəran rayonunun tərkibində olmuşdur. 1991-ci ildə respublika hökumətinin qərarı ilə Xocalı rayon və şəhər statusu almışdır.

1991-ci ildən Kərkicahan, Kosalar (Kosalar sovetliyi Canhəsən, Qaragav, Cavadlar, Yaloba, Başkənd kəndlərini əhatə edirdi), Cəmilli, Meşəli, Daşbulaq kəndləri də Xocalının tabeliyinə verilmişdi.

Xocalı rayon və şəhər statusu aldıqdan sonra inkişaf edib böyüyür, orada yeni, iri miqyaslı yaşayış massivləri salınırdı. Ermənistandan, Xankəndindən didərgin salınanların və Özbəkistandan köçüb gələn məhsəti türklərinin bir hissəsi də Xocalıda məskunlaşmışdılar. Respublika ictimaiyyətinin diqqəti Xocalıya yönəlmiş, ona ümid çırağı kimi baxırdılar. Əfsuslar olsun ki, bu ümid çırağı söndürüldü, bu günümüzə qara hərflərlə yazılan bir tarixə çevrildi.

Xocalı şəhərinin sakinləri bu yurda elə bağlanmışdılar ki, onların bu yurddan didərgin düşəcəkləri ağıllarına belə gəlmirdi. Lakin min bir zəhmətlə tikilən, abadlaşan, qorunan Xocalı bir gecənin (26 fevral 1992) içərisində yandırılıb külə döndü. Dinc əhalisi 366-cı rus alayının və erməni hərbi birləşmələrinin əli ilə misli görünməmiş bəlalara və qırğına düçar oldu. Bu qırğın zamanı bir çox ailələr bütünlüklə məhv edildi. Bu isə nə Xocalının qorunmasına cavabdeh olan daşürəkli rəhbərlərimizi, nə də dünya ictimaiyyətini narahat etdi. Çünki təbliğat maşınımız da əleyhimizə idi, Moskvanın və Ermənistanın dəyirmanına su tökürdü. Ona görə də nə səsimizi eşidən, nə də harayımıza çatan vardı.

Tariximizin daş yaddaşı olan Xocalı təkcə Azərbaycan xalqının yox, bütün türk-müsəlman dünyasının Kərbəlası, Məkkəsi, Mədinəsi, qibləgahı, namusu, qeyrəti idi. Xocalı şəhid şəhəridir. Qarabağsız Xocalısız keçirdiyimiz bir anla da barışmamalıyıq. Başı



aşağı, utana-utana gəzməməliyik bu müqəddəs Azərbaycan torpağının üstündə. Qəflət yuxusundan ayılmalıyıq, düşməni odalova tutmalıyıq, yaşamaq hüquqlarımızı bərpa edib, gələcək nəsillərə ərmağan etməliyik!

Hardasan, Xocalım, harda? Səni qarışıq yuxularımda görürəm. Ayılıb topa-tüfəngə sarılmaq istəyirəm. Yağılardan qisas almaq ruhu məndən əl çəkmir ki, çəkmir! Dözümüm, dəyanətim tükənib daha. Bu dözümüm tükdən asılı bir vəziyyətdədir. Əllərimi uzadıb iki çayın qovuşuğu kimi səni qucmaq istəyirəm. Əllərim sənə çatmır ki, çatmır. Quca biləydim səni kaş! Şirin bayatılı, nəğməli laylaylarının sehrinə uyuyaydım kaş! Sənsiz, adsız-sansız, şöhrətsiz-şansız heç kiməm, Xocalım!

Xocalı böyüyürdü. Sən demə Xocalı böyüklüyünün içində böyük Xocalı dərdi də cücərib boy atırdı. Xocalının dönməz, mərd, cəsur övladları qana qanla cavab verdilər. Qorudular göz bəbəyi kimi bu müqəddəs yurd yerlərini. Son anda təkləndilər, xəyanətin, naqisliyin qurbanı oldular. Bu çox ağır gəldi xocalılara. Onlar yurd-yuvalarını itirdilər. Vətəndə vətənsizlik bəlasına düçar oldular...

Ağdam-Xankəndi dəmir yolu çəkiləndə erməni traktorçusunun Xocalı sahəsindən xeyli qızıl külçəsi tapması haqqında söz-söhbət gəzirdi, sonradan mə'lum oldu ki, bu söz-söhbət doğru imiş. Bu qızıllar dövrümüzə qədər salamat qalan Kurqan təpələrinin cənub istiqamətindən tapılmışdı. Bu torpağın altı da, üstü də qızıl idi. Ermənilər tapılan hər bir tarixi tapıntını aparıb öz muzeylərini zənginləşdirirdilər.

Xocalının bir neçə qədim Kurqan qəbiristanlıqları hərbi yol çəkmək adı altında dağıdılıb yox edilmişdi. Qəbir daşlarını isə daşıyıb tikinti materialı kimi istifadə etmiş, yerində fermalar tikmişdilər. Qədim Xocalı kəndi müxtəlif vaxtlarda (1905, 1906, 1917 və 1918-ci illərdə) yandırılıb, talan-qarət edilmişdi. Ağdərədən keçən Gəncə-Qala (Şuşa) yolu da hərbi yol çəkmək adı altında bağlamışdılar. Belə qənaətə gəlmək olur ki, sovet hökumətinin dövründən ermənilər bu yol ilə hərbi sursat daşıyaraq növbəti müharibəyə hazırlaşırmışlar.

1990-cı ilin payızında Xocalının əkin sahələri od tutub yanırdı. Həmin ilin iyul ayında Xocalının 17 hektar taxıl sahəsini ermənilər yandırdılar. Yanğınlar Xocalıdan başlayaraq Malıbəyli, Quşçular, Həsənabad, Şuşa-Ağdam şose yolunun hər tərəfində olan əkin yerlərini bürümüşdü. Bunu ona görə edirdilər ki, əhali köçüb getsin.



Azərbaycan Milli Kitabxanası

Xocalı Əsgəran rayonunun Naxçıvanik, Ağbulaq, Noraguh, Badara, Daşbulaq, Ballıca və Mehdikənd kəndlərinin əhatəsində, Qarqar, Hilis və Xocalı çaylarının qovuşağında yerləşir. Strateji əhəmiyyətə malik olan, lakin müdafiə üçün çətin bir ərazidə idi Xocalı. Bütün şah yüksəklikləri ermənilərin əlində idi. Bu isə Xocalının müdafiəsini qat-qat çətinləşdirirdi.

Aran Qarabağdan dağlara gedən köç yolları da iki istiqamətdə Xocalıdan keçirdi. Bu yolun biri Şuşadan keçərək Sarıbaba, Kirs, Laçın istiqamətində, o birisi isə Daşbulaq, Badara və Meşəlidən keçərək Qırxqız (Azərbaycan xəritələrinin heç birində Qırxqızın adı çəkilmir, Qarabağ yaylası kimi verilir. Qırxqızın adı ancaq mahnılarda, el sənətkarlarının dillərində işlənib), Uzundərə, Kotanqaya, Çınqıllı və s. yaylaq yerlərinə doğru uzanırdı. Yaz və payız aylarında şose yollarında qoyun sürülərinin, mal naxırlarının əlindən yol tapıb keçmək üçün saatlarla vaxt lazım olurdu.

Xocalının Qırxqız dağ silsiləsində yaylaq yerləri, Xocavənd rayonunun ərazisində isə geniş əkin və qışlaq sahələri olmuşdur. Əsgərana rayon statusu verildikdən sonra Xocalının torpaq sahələrinin çox hissəsi alınmış, erməni kolxozları arasında bölüşdürülmüşdü. Xocalı əvvəlcə kolxoz olmuş, sonra isə sovxoz (Kərkicahanın təsərrüfatı da ona birləşdirilmişdi) Xocalı və Kərkicahan (Xankəndinin 26-cı məhəlləsi adlanırdı) bütövlükdə azərbaycanlılar yaşayan ərazi olmasına baxmayaraq, məs'ul vəzifələrdə həmişə ermənilər işləmişdilər. Beləliklə azərbaycanlılar ermənilərin tə'siri altına salınır və onlardan asılı vəziyyətdə olurdular. Erməni rəhbərləri isə həmişə azərbaycanlılara qarşı məkrli və ikiüzlü siyasət yeridirdilər. Bu isə Yuxarı Qarabağın sakinlərinin yaddaşından heç bir zaman silinməyəcəkdir. Çünki ermənilərin onlara vurduqları maddi, mə'nəvi zərbələr heç vaxt unudulan deyil.

Xocalı Laçın rayonunun Şamkənd, Piçənis, Şəlvədərəsi ellərinin arxası, dayağı idi. Xocalı Yevlax-Naxçıvan yolunun arasındakı körpünü xatırladırdı. Bu ellərin möhkəm dostluq və qohumluq əlaqələri var idi. Vaxtilə Xocalıdan keçən dəmir yolu da onun iqtisadi həyatında əsas rol oynayırdı. Xocalı eyni zamanda Xankəndi ermənilən ilə Əsgəran, Hadrut, Xocavənd və Ağdərə erməniləri arasında keçilməz sərt bir qalanı xatırladırdı.

Sulu, münbit torpağa malik olan Xocalı ildə iki, bə'zən isə üç dəfə məhsul verirdi. Xocalıların uzun illər boyu ağır zəhmət hesabına halal əməklə qurduqları, yaratdıqları bir gecənin içində yanıb külə döndü.



Tarixi yerləri ilə məşhur olan Xocalı, tarixi şəxsiyyətləri ilə də seçilən ulu yurd yerlərimizdən biridir. Bu ulu yurd yerlərimizdə ermənilər ciddi-cəhdlə çalışsalar da qədim oğuz-türk toponimlərimizi dəyişdirə bilməyiblər.

Xocalı rayonu və Xankəndi ərazilərində yerləşən, qədim, tarixi hadisələrlə zəngin olan adlarımızı yad etmək, onları unutmamaq lazımdır.

Xocalı ərazisində: Qışlaqlar, Böyük Dəmyə, Kiçik Dəmyə, Sərçəli, Kərbəlayı Abış qayası, Cəfər təpəsi, Çınqıl təpəsi, Dikdaş, Haçatəpə, Xoruz təpə, Üzərrik təpə, Bozun düzü, Bozdağ, Kətik, Qarağac bulağı, Əhməd bulağı, Ataş bulağı, Nəriman bulağı, Müseyib bulağı, Rəhim bulağı və s.

Xankəndi şəhəri ərazisində: Ağa körpüsü, Xan qızının bulağı (Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qızı Xurşud Banu Natavanın adınadır), Bəhlul, Xanbağı (Xanbağında sovetlər dövrünə qədər yaşamış Məhəmmədağanın tikdirdiyi üçmərtəbəli binalar bu günümüzə kimi qalmış, həmin binalarda həmişə azərbaycanlılar yaşamışdılar), Yağlıtəpə Yezid xırmanı (həmin ərazidə torpaqdan 10—15 sm yuxarı qızılgül kolları bitərdi. Ağsaqqallar deyərdilər ki, həmin yerdə günahsız azərbaycanlıların qanı tökülüb. O güllər həmin qandan qidalanır bu gün də günahsız şəhidlərin ruhunu yaşadırlar özlərində), Şuşa yolu və s.

Kərkicahan qəsəbəsi ərazisində: Güllü təpə, Öküzuçan, Həbibin bulağı, Bəylərin bulağı, Hacıyurdu, Zərli yeri, Qızılqaya, Qozludərə, Kələmlik, Hacıbulağı, Məscid yeri, Qanlı dərə, Duzlaq, Çiləbört və s. kimi tarixi yerlər vardır.

Cəmilli kəndi ərazisində: Kürən, Şəkər bulağı, Xoruzlu təpə, Dəyirman dərəsi, Darılı, Darçay, Cüt qoz və s. kimi yerlər vardır.

Toponimlərimizdən görünür ki, hər bir ad hər hansı bir tarixi hadisə ilə əlaqədardır. Eyni zamanda Qarabağda—Arsaqda adlarımızın hamısı Azərbaycan dilimizlə səsləşir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda, əsasən də Qarabağda V—VIII yüzilliklərdən qabaq ləhcələr, dialektlər, qəbiləbirləşmələrinin dilləri geniş yayılmışdı. Burada eyni zamanda ümumxalq dili mövcud idi və bu dil əsas ünsiyyət vasitəsi kimi böyük imkanlara malik idi. Azərbaycanımızın tarixində yer, dağ, çay, qala və s. adlar başqa dillərdə də əks olunmuşdur.

Alban tarixçisi Musa Qağanqatlının "Alban ölkəsinin tarixi" əsərinin əski ermənicəyə tərcüməsində Azərbaycan sözlərinin özünə yer tapması aydınlaşdırılır. O zaman Azərbaycan dili geniş



Azərbaycan Milli Kitabxanası

yayılmış və ona görə də Azərbaycan dilində olan sözlər başqa dildə, o sıradan qraparda (əski erməni dili) işlənmişdir.

Vaxtilə Azərbaycanda hökmranlıq etmiş hunlar, xəzərilər, səlcuqilər moğollar (monqollar), türkmanlar sonradan məğlubiyyətə uğramış, onlardan qalanları qəbilələr şəklində birləşmişdilər. Beləliklə onlar yerli türklərlə qarışıb birləşmiş və yeni bir türk xalqı, yə'ni azəri türkləri meydana gəlmişdir. Türk-Azəri dili sadəliyi ilə seçilmiş, Qafqazda, Rusiyada, İran və Asiyada işlənən bir beynəlmiləl dil halını almışdır.

## YUXARI QARABAĞ VƏ XOCALI 1988-ci il 12 FEVRAL, 1992-ci il 26 FEVRAL OLAYLARINDA

**"Bütün Şərqdə işğalçı siyasətin aparıcıları, xarici kapitalın agentləri xain və satqın erməni agentləridir".**

*Sovet diplomatı Q.V.Çiçerin,*
*1922-ci il, 8 dekabr, Lozanna konfransı.*

1987-ci ilin axırları idi. Ermənilər gizli-gizli xosunlaşır, Qarabağ məsələsini açıqlamaq üçün ciddi-cəhdlə hazırlıq görürdülər. Moskva, Ermənistan emissarları Qarabağa axışır, çoxsaylı görüşlər keçirir, erməni əhalisini gələcək mitinq və siyasi tədbirlər keçirməyə hazırlayırdılar. İdarə və müəssisələrdə ciddi-cəhdlə imzalar toplanılır, erməni əhalisi arasında hərtərəfli əlaqələr bərpa edilir, daha doğrusu müharibəyə hazırlıq işi görülürdü. Hadisələr ağır-ağır ölçülür-biçilir, Moskva və Yerevanla əlaqələr daha da gücləndirilirdi. Əsas məsələ bu proseslərin azərbaycanlılardan gizli saxlanılması idi. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbər işçilərinin hamısı bütün proseslərdə iştirak edir, özlərinin "ustalıqlarını" nümayiş etdirirdilər. Vaxtilə DQMV-dən sürgün edilmiş erməni ziyalıları da artıq Qarabağda köhnə peşələrini məharətlə ifa edirdilər. Bu məsələlərin hamısı Azərbaycanın yüksək dairələrinə gün kimi aydın idi. Bə'zən də onlar bu proseslərdə biləhrəkdən və yaxud kortəbii şəkildə iştirak edirdilər.

12 fevral 1988-ci ildə Ermənistandan gəlmiş bir qrup tələbə "Qarabağ" mehmanxanasının ətrafında toplaşaraq mitinqə oxşar bir aksiya keçirdilər. Bu kəşfiyyat xarakterli bir tədbir idi. Bir neçə gündən sonra mitinqlər başlandı. "Lenin meydanı"nda başlanan



mitinqin dalğası bütün vilayətin ərazisini bürüdü. Mitinq meydanında çadırlar quruldu, kababxanalar pulsuz fəaliyyətə başladılar.

SSRİ-də "Yenidənqurma və aşkarlıq, demokratiya" birdən-birə iri addımlar ataraq böyük sıçrayışlar etmək xülyasına düşdü. Bu ideyaları sınaqdan keçirmək üçün obyektlər axtarılmağa başlandı. Obyektin Azərbaycanda sınaqdan keçirilməsi Moskvada çoxdan hazırlanmışdı. Bu da "Qarabağ kartı" idi. Bu kart Rusiyanın əlində böyük bir siyasi vasitə kimi saxlanılırdı. Əvvəlcə Qarabağ münaqişəsini qızışdırmaq, sonra isə Türkiyəni bu məsələyə qatıb tamamilə məhv etmək də planlaşdırılmışdı. Bu sahədə Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosu və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin rolu danılmazdır.

Yuxarı Qarabağ ermənilərinə Azərbaycandan, SSRİ-dən və xarici ölkələrdən köməklik gəlirdi. Artıq Azərbaycandan göndərilən ərzaq məhsullarını qəbul etmir, ancaq benzini havada qapırdılar. Əsgəran neft bazasına kifayət qədər benzin toplamışdılar. Azərbaycan hökumətinin nümayəndələri ərzaq məhsullarının etiketini dəyişdirib ya Rusiyanınkını, ya da Ermənistanınkını yapışdırıb Xankəndinə daşıyırdılar. Guya bu yolla erməniləri sakitləşdirəcəklər.

Bakıdan Xankəndinə, ermənilər üçün 600 ton benzin göndərilmişdi. Xocalılar bu işi vaxtında bildilər və benzini Xocalıdan buraxmadılar. Bu respublika rəhbərlərini və onun yerlərdəki nümayəndələrini bərk qəzəbləndirmişdi. Ona görə də rus əsgərlərini Xocalıya yeritdilər, lakin Xocalının əzmini qıra bilmədilər. Benzini Ağdama qaytarıb, sonra gizli yollarla yenə də ermənilərə çatdırdılar.

Moskva "dovşana qaç, tazıya tut" əmrlərini verirdi. Əvvəlcə mitinqə qorxa-qorxa çıxan ermənilər, sonradan Qorbaçovu, Moskvanı söyür, lə'nətləyirdilər.

Azərbaycanın hökumət nümayəndələrinin DQMV-yə axını heç bir müsbət nəticə vermirdi. Əksinə bizim tərəfimizdən ermənilərə edilən hər bir güzəşt onlara güc və qüvvət verirdi. Hər bir iş planlaşdırılmış ssenari üzrə gedirdi.

Azərbaycanlıların, Xankəndi ipək kombinatından və başqa iş yerlərindən qovulması qısa müddətdə başa çatdırıldı. Ən ağır işləri azərbaycanlılar görürdülər. Bu işçilərin sayı təkcə ipək kombinatında 600 nəfərə yaxın idi. Azərbaycan KP MK-nın 1-ci katibi Kamran Bağırov Xankəndinə gəlmişdi ki, vilayəti özü idarə etsin. Qətiyyətsiz hərəkətlərinin ucbatından bir neçə saat Vilayət partiya



Azərbaycan Milli Kitabxanası

komitəsinin katibi H.Poqosyanın kabinetində girov saxlanıldı. Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşları Kamran Bağırovu azad etdikdən sonra erməni mitinqçilərini mühasirəyə aldılar. Kreml rus qoşunu ilə DQMV-ni ələ almaq üçün ən yaxşı vasitə əldə etmişdi. Ermənilərin xahişi ilə qoşun Qarabağa gəldi. Ermənipərəst ordu ikiüzlülük siyasətini yeritməyə başladı. Eyni zamanda Xüsusi İdarəetmə Komitəsinin yaradılması üçün də münasib şərait yaranmışdı. Azərbaycanın hakimiyyət orqanlarının səlahiyyətləri alınıb birbaşa həmin komitəyə verildi. Vilayətdəki idarə və müəssisələr Azərbaycanı tanımır, Ermənistanla iqtisadi-siyasi əlaqələr yaradırdılar. Artıq möhür və ştamplar da dəyişdirilmişdi.

1988-ci ilin avqustunda Azərbaycan KP MK-nın I katibi Ə.Vəzirovun qəbulunda Qarabağın əldən getməsini faktlarla sübut etdikdə oturduğu yerdən dik qalxaraq dedi:

— Ola bilməz! Fikirləriniz əsassızdır. Deputatların Moskva görüşündən sonra M.Qorbaçov məni yanına çağırıb dedi: — Ой Рахман, армяне опозорили себя.

Qorbaçovun onu aldatdığını israr etsək də o, Qorbaçovun bizim tərəfimizdə olduğunu sübut etməyə çalışdı. Arkadiy İvanoviç Volski (bu adam həmişə azərbaycanlılar tərəfindən lə'nətlənməli, nifrətlə yad edilməlidir) ermənilərlə əl-ələ verərək müstəqil şəkildə işləməyə başladı. Birbaşa Volskinin əli ilə Xankəndindən bütün azərbaycanlıların ev-eşiyi talan edildi, özləri isə doğma ocaqlarından didərgin salındılar. Həmin ailələrdən bir çoxu Xocalıda məskunlaşdı.

Artıq A.Volski istər rəsmi, istərsə də qeyri-rəsmi şəkildə Yuxarı Qarabağı müstəqil etmiş və Ermənistana birləşdirmişdi. Ona görə də mənfur Z.Balayan tərəfindən "Karabaxski" ləqəbini qazanmışdı. Volskinin Qarabağdan getməsi Azərbaycan hökumətinin bel sütununu qırmışdı. Çox götür-qoydan sonra DQMV-də Təşkilat Komitəsi yaradıldı və həmin komitəyə sədr Viktor Petroviç Polyaniçko tə'yin olundu. O, Azərbaycan KP MK-nın 2-ci katibi idi. Volskiyə nisbətən o, daha tədbirli, müsəlman psixologiyasına tam bələd olan bir adam idi. Onun dövründə iri miqyaslı tikinti işləri aparılmağa başlandı. Ermənilər silahlanır, biz isə yeni obyektlər tikirdik. Həmin tikintiləri bir neçə saatın içində ermənilər darmadağın etdilər. Demək olar ki, respublikamızda strateji əhəmiyyətli nə var idisə hamısı Yuxarı Qarabağa daşınırdı. Azərbaycan iqtisadiyyatının bu kökə düşməsində, o dövrdə yürüdülən səhv siyasətin də rolu az olmamışdır. 1991-ci il iyul ayının sonunda



Təşkilat Komitəsinin Xocalıda keçirdiyi yığıncaqda həll olunan məsələləri xatırlatmağı vacib sayırıq.

"Yığıncağı giriş sözü ilə DQMV üzrə Respublika Təşkilat Komitəsinin sədri V.P.Polyaniçko açdı.

Gündəlikdə aşağıdakı üç məsələ müzakirə edilmişdir:

1. Dağlıq Qarabağda aparılan tikinti işlərinin vəziyyəti.
2. DQMV-də məhsul yığımının gedişi
3. Respublika Prezidentinin Dağlıq Qarabağ və Goranboy rayonunun sakinlərinə məktubu, prezident seçkisinin keçirilməsi və s.

— Xocalı şəhərində fabrikin — tikiş sexinin tikintisi gecikdirilir. Yığıncaqda Martuni (Xocavənd), Hadrut, Şuşa və Xocalı ərazilərində yol tikintisindən, qaz kəmərinin çəkilişindən və başqa bir sıra sosial məsələlərdən də ətraflı danışılmışdır...

Göründüyü kimi, ermənilər silahlanır, müharibə aparır, biz isə tikinti problemlərini həll edirdik.

"Xocalının səsi" qəzetinin tə'sis edilməsi (9 iyul 1991-ci ildə 1-ci sayı nəşr olundu) xocalılar üçün gözəl bir töhfə oldu. Həmin vaxtdan bu günə kimi "Qarabağ" qəzeti ilə yanaşı addımlayır, Qarabağın dərdlərindən yana-yana yazır. 1992-ci il 2 noyabr 16-cı sayında qarabağlı jurnalist Kərim Kərimlinin "Verəkmi bu torpağı yadlara?" şe'ri nəşr olunmuşdu:

**"Ulu millət, ulu Vətən, ulu dil,**
**De, verəkmi, bu torpağı yadlara?!**
**Ulu oymaq, ulu oba, ulu el.**
**De, verəkmi bu torpağı yadlara?!**

Həmin dövrlərdə "Qarabağ" və "Xocalının səsi" qəzetləri bu ulu torpağın yadlara verilməməsini hayqırıb nər'ə çəksələr də nə səslərini eşidən oldu, nə də qarabağlıların, xocalıların harayına çatan... Ona görə də dəhşətli Xocalı qırğını baş verdi.

"Xocalının səsi" qəzeti 1991-ci il sentyabr ayının 28-də yazırdı: "İndi hünər, qeyrət vaxtıdır, xocalılar! Ayıq-sayıq olun, bu gün göstərdiyiniz cəsarət, qəhrəmanlıq Qarabağımızın şanlı tarixinə qızıl hərflərlə yazılacaq".

"Raket yağışı davam edir" yazısından: "Sentyabrın 24-də gecə saat 3-də Xocalı şəhəri Əsgəran rayonunun ermənilər yaşayan Mehdikənd, Noraguh, Həsənabad (Həsənabad azərbaycanlılar yaşayan kənd idi. Onlar da məcburən Xocalıya köçürülmüşdülər.) kəndlərindən raket atəşinə tutulmuşdur. Sentyabrın ilk 10 günü



Azərbaycan Milli Kitabxanası

ərzində Xocalı şəhəri həmin məntəqələrdən 3 dəfə güclü, intensiv şəkildə raket atəşinə tutuldu. Bir saat yarım davam edən atəş nəticəsində şəhərə 50-dən artıq raket düşmüşdü. Nəticədə şəhərdə xeyli dağıntılar əmələ gəlmişdi.

Redaksiyadan: artıq son iki ay ərzində Xocalı şəhəri dördüncü dəfədir ki, ermənilərin "raket yağışı"na mə'ruz qalır: avqustun 23-ü və 28-də, sentyabrın 10-u və nəhayət 24-də. Maraqlısı budur ki, hər dəfə şəhər eyni nöqtələrdən atəşə tutulur. Görəsən, respublikamızın hüquq-mühafizə orqanları, səlahiyyətli şəxsləri gənc şəhər Xocalının bu cür vəhşicəsinə, vaxtaşırı dağıdılmasının qarşısını almaq üçün konkret tədbirlər görəcəkdirmi???

Allahyar Xocalı isə "Ağla, türk gözəli, ağla" elegiyasında yazırdı:

— Ermənilərin bu bədnamlıqlarını duyub "beynəlmiləlçi" rəhbərlərimizə xəbər verəndə ağzımızdan vururdular. Ermənistandan 3 gün müddətinə qan qardaşlarımızı didərgin edəndə də rəhbərlərimiz vəzifə xatirinə bizi erməni genosidinə mə'ruz qoyub güdaza verdilər.

Yayda kondisionerli, qışda isti kabinetlərdə kreslosuna yayxanıb, Qarabağda və sərhəd rayonlarımızda atılan güllələrə, tutulan azəri girovlarına diksinməyənlərin yerinə kim ağlamalıdır, kim? Daş müharibəsindən raket müharibəsinədək 4 illik bir yol keçmiş, erməni millətçilərinin əməllərinə qarşı bizə təmkin, səbr adlı "silah" verənlərmi ağlayacaq sənin bu gününə, anam? Ağla, ağlamalı gün çoxdan gəlsə də ağlamamışdın. Çünki rəhbərin yağlı və'dlərinə aldandın.

Ağla, Türk gözəli, ağla! Tale sənə yar olsun. (İxtisarla, 28.8.1991).



# TARİXİMİZİN DAŞ SALNAMƏLƏRİ — XOCALI: DAŞ YADDAŞIMIZ

*"Fürsət düşən kimi Qarabağda hakimiyyəti ermənilərə verəcək və bunlar vasitəsilə Asiyada xristian dövləti yaradacağımız barədə erməni məliklərinə göstəriş vermişəm".*

**19 may, 1783-cü ildə knyaz Q.A.Potyomkinin II Yekaterinaya məktubundan**

Xocalı şəhəri Xankəndi şəhərindən 10 km şimal şərqdə, Qarabağ (Qırxqız — 2827 m) dağ silsiləsindədir. Əhalisi üzümçülük, əkinçilik, heyvandarlıq və arıçılıqla məşğul olurdu. 2 orta məktəb, 2 natamam orta məktəb, mədəniyyət evi, kitabxana, klub, tibb məntəqəsi var idi. Xocalı rayonunun əhalisi 11550 (1998-ci ilin statistik mə'lumatı) nəfərdi.

Me'marlıq abidələrindən türbə (XIV əsr), dairəvi türbə (1356-1357-ci illər), ətrafında son tunc və ilk dəmir dövrünə aid Nekropol, Kurqan çölü və s. var. Miladdan əvvəl XIII—VII əsrlərə aid Xocalı—Gədəbəy ilk mədəniyyət abidələri Xocalı kəndinin yaxınlığındadır.

Xocalı qəbiristanlıqları Xocalı kəndi ərazisində son tunc və ilk dəmir dövrünə aid (miladdan əvvəl XIII—VII əsrlər) arxeoloji abidə XIX əsrin sonunda aşkar edilmişdir: daş qutu və Kurqanlardan ibarətdir. Tədqiqatlar nəticəsində aşkar olunmuşdur ki, Xocalı qəbiristanlığındakı beş növ Kurqanlar (qəbirlər) azərbaycanlılara məxsusdur.

1-ci növ qəbirlər: Düzbucaqlı tiplidir və 1,5 m dərinliyə, 2,5 m uzunluğa malik olan belə qəbirlər iri daşlarla tikilirmiş. Dəfn edilənin baş tərəfində xəncər, qılınc, kürz kimi silahlar qoyulurdu.

2-ci növ qəbirlər (m.ə. 50—40-cı illər): daş qəbirlərin sıradan çıxması ilə əlaqədar dəfn edilənləri böyük və kiçik küplərdə çay sahillərində olan yamaclarda yerin səthindən 2,5 m-dən 3 metrə qədər dərinlikdə basdırırdılar. Belə qəbirlər qazıntılar zamanı Qarqar, Xocalı, Hilis çaylarının sağ və sol sahillərindən tapılmışdır.

3-cü növ qəbirlər (eramızın 137—191-ci illər): Bu qəbirlər yamacların yuxarısından 1 m dərinliyində qazılmış küplərin maili formada basdırılması ilə səciyyələnir. Belə qəbirlər əsasən Xocalı-Kurqan qəbiristanlığında üzə çıxırdı və s.



Азе. б ул. Республ
ИОТ.
им М Ф Ахундова

Azərbaycan Milli Kitabxanası

Müxtəlif tipli saxsı qablar, silahlar: qılınc, xəncər, nizə, ox ucluğu, balta, təbərzin, qızıl, tunc, balıqqulağı, ətiq, şüşə, pasta və sairədən hazırlanan bəzək əşyaları, tunc əmək alətləri və at əsləhləri aşkar edilmişdir.



Xocalı. Kümbəz. XIV əsr.

Qədim Qarabağın sakinlərinin qəbirüstü daşları bütün Azərbaycan üçün mühüm olan tipləri özündə saxlamışdır. Xocalıda səkkizguşəli kümbəzin yanında yonulmuş, böyük, sal daşlar var idi. Bu daşlar bayquş, yəhər və nəhrə formalıdırlar. Ancaq onların üzərində heç bir yazı yox idi. Bu da onu göstərir ki, hələ o zamanlar yazı meydana çıxmamışdı. Nehrə şəkilli daşlar qadının, yəhər şəkilli daşlar kişinin, bayquş şəkilli daşlar isə şər qüvvələrin nümunəsi kimi verilmişdir. Bə'zi daşların üzərində isə ərəb qrafikası ilə yazılara təsadüf olunurdu.

Dini məzmun daşıyan obyektlərimizdən biri də "Övliya"dır. "Övliya" — "ocaq", "müqəddəs yer", "pir" deməkdir. Azərbaycanda məşhur mövlanaların, şeyxlərin, loğmanların qəbirləri "Övliya" adlanır. Belə "övliya"lardan Türkmənistanda da vardır. Bununla əlaqədar olaraq Övliyaboyu oba, Övliyayap coğrafi adları əmələ gəlmişdir. 8 guşəli kümbəzin içində olan qəbir övliyalardan birinin qəbri olmasına əsas verir.

Türkmənistanda "Xoca" sözü müqəddəs hesab olunduğundan onun əsasında 35 toponim yaranmışdır. Xoca sözünə "arx", "qaynar", "qaya", "dağ", "su" "tapmaz" və s. sözləri qoşulmaqla yeni toponimlər yaranmışdır. Azərbaycanda "Xoca" şəxs adı olmaqla yanaşı, ondan bir neçə toponim də yaranmışdır (Xocalı və s.). Ağcabədi rayonunda Xocavənd, Xaçmaz rayonunda Xucalı kimi adlar da bu qəbildəndir.



Xocalıda basdırılmış, sonradan üzə çıxmış tarixi əşyaların tayıbərabəri yoxdur. Əntiq, qiymətli daş-qaş, muncuq, mixi xətt, mixi yazılar çar Adadnirarinin (Adadnirari Assur hökmdarı olub, miladdan əvvəl (807—788) adı ilə sıx bağlıdır. Bu daş yaddaşlar göstərir ki, Xocalı qədim şəhər olmaqla cənub ölkələri ilə sıx əlaqədə olmuşdur. Qədim Xocalı qəbiristanlığının 11№-li Kurqanından tapılmış əntiq muncuğun üstündə Assuriya çarı Adadnirariyə aid mixi yazı, o cümlədən emal olunmuş saxsı qablar, pasta və şüşədən muncuqlar, qızıldan bəzək əşyaları, silindrik möhür və s. yerli əhalinin Yaxın Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələrini göstərir. Avropa, Asiya və Amerikada da Xocalı abidələrinin əks tə'siri özünü göstərmişdir. Şərq və Qərb ölkələrinin tarixi bu mədəniyyətin dəst-xəttini özündə yaşatmışdır.

"Miladdan əvvəl 2-ci minilliyin sonunda və 1-ci minilliyin əvvəlində regionun daha inkişaf etmiş, qabaqcıl vilayətlərinin və ona qonşu olan ərazilərin inkişaf səviyyəsini səciyyələndirən başlıca materiallar Naxçıvanda, Dağlıq Qarabağda (əsasən Xocalıda — *Q.Q.*), Mingəçevirdə, Talışda, Xurvində, Marlikdə, Həsənlidə və s. ərazilərdə tapılmışdır.

Şübhəsizdir ki, Şimali Azərbaycan vilayətlərində əsas əhali Şimali-Şərqi Qafqaz ailəsi dillərində danışan tayfalardan və tayfa birləşmələrindən ibarət idi. Burada məskunlaşmış etnik birlikləri (qohum olan) əks etdirən iri tayfalar özlərini Xocalı-Gədəbəy, Talış-Muğan, Qayakənd-Xoroçoy mədəniyyətlərinin daşıyıcıları kimi büruzə verirdi. Qeyd etmək lazımdır ki, bu dövrün Cənubi Qafqazın mərkəzi və şərq hissəsindəki arxeoloji mədəniyyətləri bir-birinə yaxın idi və Cənubi Qafqazın qərbindəki sinxron mədəniyyətdən kəskin surətdə fərqlənirdi. Bu fakt Şimal-Şərqi Qafqaz dillərinin daşıyıcılarının bir hissəsi əsasında protoalban tayfa ittifaqının təşəkkülündən xəbər verir". ("Azərbaycan tarixi, ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər". 1993-cü il, s.43—44).

"Dəmir dövrünə aid üçüncü növ Kurqanlar daşdan tökülmüşdür. Bu növ Kurqanların ən yaxşı nümunələrindən biri (11№-li Kurqan) E.Relser tərəfindən Xocalı qəbiristanlığında tədqiq edilmişdir. Kurqanaltı daş qutu qəbirdə bir nəfər adam skeleti olmuşdur. Qəbrin üstü iri daş lövhə ilə örtülmüşdür. Buradan çoxlu gil qablar, tunc quş fiquru, daş asması, bıçaq, iki ədəd üzük, qızıl muncuğun hissəsi, üzəri bəzəkli qızıl lövhə və əqiqdən muncuqlar tapılmışdır.

Əqiqdən hazırlanmış muncuğun üzərində Assur çarı Adadnirarinin adı yazılmışdır. Daş qutularda dəfn etmə adəti Azərbaycanda



Azərbaycan Milli Kitabxanası

uzun müddət davam etmişdir. Buna görə də tədqiqatçılar həmin abidələri ilk dəmir dövrünə aid edirlər." (Rəşid Göyüşov: "Azərbaycan arxeologiyası" Bakı, 1986).

Xocalı-Gədəbəy mədəniyyəti Azərbaycan respublikasında Kiçik Qafqazın dağətəyi rayonlarında, Kür-Araz çayları arasında, Şərqi Gürcüstan və Ermənistanda son tunc və ilk dəmir dövrlərinə (m.ə. VIII—VII-ci əsrlər) aid arxeoloji mədəniyyət, Xocalı-Gədəbəy rayonunda ilk dəfə tədqiq olunmuş abidələrin adı ilə adlandırılmışdır. Xocalı-Gədəbəy mədəniyyəti abidələri, yaşayış yerləri, e'malatxanalar, qəbirlərdən və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazilərdə misəritmə kürələri (Mingəçevir), mis tunc mə'mulatları hazırlayan e'malatxana (Topal Həsənli) qalıqları, çaxmaq daşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir.

Xocalı mədəniyyətinin son dövründə dəmir alət və silahlar, nizə, bıçaq, xəncər və s. meydana gəlmişdir. Əhali əkinçilik, maldarlıq, bağçılıq, ovçuluq, sənətkarlıq və dulusçuluqla məşğul olub, oturaq həyat keçirmişlər. Qazıntılar zamanı tapılmış bə'zi əşyalar bu ərazidə zərgərliyin də geniş inkişafına dəlalət edir. Xocalı-Gədəbəy mədəniyyəti onun əhalisinin Zaqafqaziyanın müasir xalqlarının uzaq əcdadları olmasını güman etməyə əsas verir.

Tədqiqatçılar Azərbaycanın Naxçıvan, Gəncə-Qazax, Mil-Qarabağ (Xocalı — *Q.Q.*) və s. kimi ərazilərində tapılmış boyalı qabların orta tunc dövründən başlayaraq, ilk dəmir dövrünədək dörd inkişaf mərhələsini keçdiyini qeyd edirlər.

Birinci mərhələ: miladdan əvvəl XX—XVI əsrləri əhatə edir. Çox səliqə ilə naxışlanmış monoxrom boyalı qablar bu dövr üçün səciyyəvidir.

İkinci mərhələ (m.ə. XVII—XV-ci əsrlər): insan, heyvan, quş rəsmləri incə bəzədilmiş polixrom naxışlı kuzə və cam formalı qablarla səciyyəvidir.

Üçüncü inkişaf mərhələsi (m.ə. XIV—XI əsrlər): səliqəsiz naxışlanmış polixrom və monoxrom boyalı qablar — küpə, ellipsvarı camlar, çaynikvarı qablar, boşqablar, vazlar və s. səciyyəvidir.

Dördüncü mərhələ (m.ə. X—VIII əsrlər): həndəsi motivdə, yalnız qırmızı rənglə naxışlanmış boyalı qablar səciyyəvidir.

Xocalı-Kurqan qəbirlərində daş qutu qəbirlərdə ölülər bükülü halda uzadılmış, bə'zən oturdulmuş (və ya yandırıb külünü) vəziyyətdə dəfn edildiyi aşkar olunmuşdur.



Bu qəbirlərdə qazan, bardaq, saxsı qablar, cilov, kəmər dəsti, ov və mifoloji səhnə bəzəkləri, sümükdən bəzək əşyaları, dulus çarxında gildən piyalə, bardaq, sərnic, nəhrə, süzgəc və s. aşkar edilmişdir.

"Qafqaz Albaniyasının yaşayış yerlərinin və qəbir abidələrinin öyrənilməsi ölkənin təsərrüfat həyatı, dini ideologiyası haqqında bə'zi ümumi nəticəyə gəlməyə imkan verir. M.ə. 1-ci minilliyin 2-ci yarısında ölkədə əkinçilik yüksək inkişaf mərhələsinə çatmışdı. Qazıntılar zamanı aşkar edilmiş arpa, buğda, darı qalıqları, ağac vəllər, daş təknələr, novçalar, dəmir gavahın kimi dövri abidələr qədim Albaniya əhalisinin əkinçiliklə bərabər maldarlıqla da məşğul olmasına dəlalət edir. Xocalıda üzə çıxan kərpicdən tikilmiş su quyularının qalıqları da həmin ərazidə yaşayan əhalinin suvarma ilə məşğul olmasını bildirir.

Xocalıda daş qutu və küp qəbirlər də aşkara çıxarılmışdır. Bu qəbirlər əntiq dövrü və ilk orta əsr katakombaları dövrünü əhatə edir. Bu katakombalar quruluşca eynidir. Bunlar bir, bə'zən isə iki kameralardan ibarət olub, əksəriyyətində cüt skeletlər aşkar olunmuşdur. Ölü qəbirə qoyulduqdan sonra (bu qəbirlərin hündürlüyü 0,9—1,7 m, eni 1,5—3 m, dərinliyi yer səthindən 3,5—3,6 m olublar) qəbirin ağzı daşla və ya kərpiclə hörülmüşdür. Belə küp qəbirlərə ən çox Azərbaycanda təsadüf olunur.

Azərbaycanda xristianlığa qədər dini təsəvvürlər sistemində insanların ilahiləşdirdikləri təbii obyektlərdən biri daşdır. Daşın insan həyatında oynadığı əsas rola görə ona e'tiqad yaranmışdır".

"İbtidai cəmiyyətdə insanların hər şeyə canlı kimi baxıb, onlarda ruhun olmasına dair yaratdıqları dini görüşlər sistemi a n i m i z m (animizm — latın sözüdür, "animika" ruh, can deməkdir) adlanır.

Daşa, ağaca və başqa əşyaların müqəddəsliyinə inam bu gün də Azərbaycanda qalmaqdadır. Suya, oda inam da animizmin başqa bir təzahürüdür. Məsələn, "od haqqı", "isti zindan haqqı", "su haqqı", "ocaq haqqı" kimi andiçmələr qədim azərbaycanlıların inanclarından bu günümüzə kimi gəlmiş və atəşpərəstliklə əlaqədardır. Xocalıda "Cahan ocağı", deyilən müqəddəs ocağın qədim inanclarımızın kökünə bağlı olduğunu da qeyd etməliyik.

Xocalı abidələrinin bir qismini siklop (siklop yunancadan KUKLORS — təpəgöz deməkdir. Qədim Yunan əsatirlərində alnın ortasında gözü olan nəhəng varlıqlara deyilir. İri, böyük mə'nasında işlənir) tikililəri təşkil edir. Həmin siklop tikililərin qalıqları əsasən



Azərbaycan Milli Kitabxanası

Xocalı şəhərinin çayqırağı və yüksək sahələrdə qazıntılar zamanı üzə çıxmışdır. Bə'zən arakəsmələrdən ibarət olan uzunluğu 17—18 metr, eni 8—10 metr və bu cür tikililər bir neçə hissəyə bölünmüşdür. Bu tikililərin içərisində ərzaq saxlamaq üçün quyu qazılır, yaxud da təsərrüfat küpləri basdırılırdı. Divarları yonulmuş sal daşlardan olan belə tikililərin hündürlüyü 3—3,5 metrə çatırdı.

Siklop tikililərini tədqiq etmiş alimlərə mə'lum olmuşdur ki, bu abidələr əsasən m.ə. II minillikdə və I minilliyin əvvəllərində olmuşdur.

Son tunc dövrü üçün Xocalı-Gədəbəy, Naxçıvan, Talış-Muğan arxeoloji mədəniyyətləri səciyyəvidir. Yastı tiyəli naxışlarla bəzədilmiş xəncərlər Qızılvəng, Talış, Xocalı-Gədəbəy, Mingəçevir və başqa yerlərdən tapılan xəncərlərə çox oxşardır. Qırmızı rəngli saxsı qablar Naxçıvan, Xocalı-Gədəbəy mədəniyyətinin qabları ilə eynidir.

Xocalıda 5№-li Kurqandan aşkar edilmiş gil qabın qulpu üzərində buğda dənələri təsvir edilmişdir. Tədqiqatlardan mə'lum olur ki, 3—4 min il bundan əvvəl qədim Qarabağın sakinləri — indiki azərbaycanlılar əkinçiliklə məşğul olmuşlar.

Qədim Xocalı abidələrinin tədqiqi zamanı mə'lum olur ki, ağırlığı 10 tona qədər olan uzun daşlar daha çox üstünlük təşkil edirlər. Xocalıda torpaqdan tökülmüş oval şəkilli, hündürlüyü 2 metrə qədər, diametri 12 metrdən çox olan Kurqanlar diqqəti daha çox cəlb edirdi. Bu Kurqanların bir neçəsi qum və daş qarışığından ibarət idi.

Xocalıdan tapılan qırxım qayçıları, ucu şiş itilənmiş bıçaqlar və s. metaldan hazırlanmış əşyalar onu göstərir ki, Xocalı Qafqaz Albaniyasında ən qədim yaşayış məskəni olmuşdur və hələ qədimdən dünyanın mədəniyyət mərkəzlərindən biri olmuşdur. Xocalıdan adi qazıntılar zamanı tapılan saxsı qabların sayı-hesabı yox idi.

Tədqiqatçılar Xocalı-Gədəbəy mədəniyyətinin üç inkişaf mərhələsinin keçdiyini müəyyən etmişlər. İlk mərhələ m.ə. XIII—XI, ikinci mərhələ XI—IX, son mərhələ IX—VII əsrlərə aid edilir.

Xocalı abidələri Azərbaycan alimləri tərəfindən 1920-ci ildən tədqiq edilməyə başlanmışdır. Ə.Ələkbərov bu abidələr kompleksini Azərbaycan abidələri haqqında təsəvvür əldə etmək üçün açar adlandırmışdır. Eyni zamanda bu abidələr alman arxeoloqu E.Resler, rus şərqşünası M.Xanıkov, ingilis F.Beyer, fransız A.Berje və başqaları tərəfindən tədqiq edilmiş, Xocalıdan əldə et-



dikləri tarixi əşyaları öz ölkələrinə apararaq ayrı-ayrı muzeylərin eksponatlarını zənginləşdirmişdilər.

Əfsuslar olsun ki, Xocalının mədəni, tarixi tapıntıları dünya muzeylərini — (Paris, Almaniya, London, Sankt-Peterburq) bəzədiyi halda, bizim muzeylərdə bu əntiq tapıntılara rast gəlmirik. Sovet dövründə bu tapıntılar Ermənistana daşınıb aparılmışdır.

Bu bizim laqeydliyimizin, tariximizə biganəliyimizin acı nəticələridir. Tarixi mə'xəzlərə ciddi-cəhdlə girişsək də tarixşünaslığımızda Xocalı-Qarabağ mədəniyyət abidələri haqqında çox az mənbəyə rast gəldik.

Belə bir maraqlı sual meydana çıxır. Nə üçün biz tariximizə, ulu keçmişimizə belə laqeyd münasibət bəsləmişik? Nə üçün biz də sovetlər birliyinin tərkibində başqa xalqlar kimi mə'nəvi dəyərlərimizi qoruyub saxlaya bilməmişik? Bunun ən böyük səbəblərindən biri də "beynəlmiləlçilik" azarına tutulmağımız olmuşdur. Bir də cəfəng "Elmi ateizm" və "Elmi kommunizm" xülyalarına uyuyub, tarixi yaddaşımıza laqeydliyimizdən irəli gəlmişdir. Bununla da mə'nəvi dəyərlərimizə ağır, sarsıdıcı zərbələr vurulmuşdur. İndi isə o zərbələrin ağrılarını çəkməyə məcbur olmuşuq.

**Р.Геюшев**: *Археология Азербайджана.*

Резюме

Территория Азербайджана богата разнообразными и разновременными археологическими памятниками. Изучение археологических памятников началось ешё во второй половине XIX века. В то время многие любители-археологи проводили раскопки, главным образом, могильников Муган-Талышской, Гянджа-Карабахской (Ходжалинской. — *Г.Г.*) и Нахичеванской зон. Многие уникальные археологические находки были переданы Германии, Франции (в основном Армении, — *Г.Г.*) и др. странам мира. Необходимо отметить, что до революции археологи — любители не ставили перед собой задачу планомерного изучения истории азербайджанского общества. В основном, это были кладоискатели.

Большой сдвиг в хозяйстве и общественном строе наблюдается в эпоху поздней бронзы и раннего железа.



Azərbaycan Milli Kitabxanası

Исследования памятников этого периода также начались в прошлом столетии. Для обогащения музейных экспонатов и частных коллекций многие русские и зарубежные исследователи, среди которых были В.Белк, Ф.Байери, Ж. де Морган, Э.Реслер, Г.Розендорф, А.Ивановский и др., проводили раскопки многочисленных погребальных памятников, имеющих богатый вещественный инвентарь. Но ни один из них не придавал нужного значения исследованию поселений. Это стало возможным в годы Советской власти в Азербайджане. Среди них особый интерес представляют многосерийные памятники Мингечаура, памятники Ходжалы-Кедабекской культуры, наскальные изображения в Гобустане и Апшероне, а также так называемые циклопические сооружения Малого Кавказа и многие другие.

Опираясь на исследования разнотипных могильных сооружений и обряды захоронений в них, а также анализируя инвентарь этих могил, археологи выделили две археологические культуры для данной эпохи. Первой и наиболее распространенной из них является Ходжалы—Кедабекская археологическая культура, характерная для всего Центрального и Восточного Закавказья. Памятники этой культуры датируются XIV—VII в.в. до н.э. Характерными памятниками этой культуры являются также курганы с земельной и каменной насыпью, каменными ящиками, кромлехи, долмены и циклопические сооружения.

Встречаются разнотипные украшения из камня, бронзы, кости и т. д. На одной из бусин, найденных в Ходжалы, начертано имя ассирийского царя Ададнерари.



## YADDAŞLARDA AXTARIŞ

*"Xocalım da şəhid, elim də şəhid,*
*Xəyalım da şəhid, dilim də şəhid.*
*Qırxqızım da şəhid, gülüm də şəhid,*
*Tarixim qoy şəhid olmasın, Allah".*

"...Bir qədər gedib uzun bir hasara çatdıq. Hasar bir dağın başından Qarqar deyilən bir çaya tərəf enib, çaydan keçir və o biri dağın üstünə diklənmişdir. Gendən baxanda sanki bayquş qanadlarını çayın kənarlarına sərib çaydan su içməkdədir. Məşədi Səttar dedi ki, bu hasara Əsgəran deyərlər. Gərək eşitmiş olasınız...

Bu yaxınlarda Xocalı adlanan bir kənd var. Bu günlərdə orada Hacı Zeynal adlı bir varlı kişi vəfat edib. Məşədi yəqin onun tə'ziyyəsindən gəlir. Görəsən varislərindən nə qədər çıxıbdır?

Xocalı çayını və çaparxanasını keçib bir səhraya çıxdıq. Yolun altında və üstündə nizamla düzülmüş tökmə təpələr (bu təpələrin çox hissəsi ermənilər tərəfindən sovetlərin dövründə məhv edilmişdir. *Q.Q.*) var.

Məşədi Səttar nağıl etdi ki, bu təpələr də qədim hasardandır. Burada qədim zamanlarda Sultan Səlimlə Şah İsmayılın arasında böyük müharibə olubdur..." (Ə.B.Haqverdiyev: "Xortdanın cəhənnəm məktubları" kitabından).

*(Qeyd:* Əbdürrəhim Bəy Haqverdiyevin yuxarıda adı çəkilən əsərində Xocalıdan olan varlı, adlı-sanlı Zeynal kişi Respublika Daxili İşlər Naziri, general-leytenant Ramil İdris oğlu Usubovun babasıdır.)

Qiyasəddin Qeybullayevin "Qarabağ (etnik və siyasi tarixinə dair)" kitabında "Kəngər torpağı" və kəngərlilər haqqında verilən bə'zi məqamları oxuculara çatdırmaq yerinə düşərdi.

"Qədim mənbələrdən aydın olur ki, peçeneklərin (türk tayfası) bir hissəsi Kəngər adlanmışdır. Bu da müəyyən edilmişdir ki, miladdan əvvəl türkdilli kəngərlər Azərbaycan ərazisində məskən salmışdılar. Zaqafqaziyada kəngərlərin iki regionda yaşaması mə'lumdur. Onlar həm Albaniyanın qərbində — onun Gürcüstan və Ermənistanla sərhəd zonasında, həm də Naxçıvanda məskunlaşmışlar.

Albaniyanın qərbindəki kəngərlər haqqında V əsr erməni tarixçiləri yazırlar ki, 484-cü ildə erməni qoşunu Kəngər dağlarından (Ermənistanın indiki Qukasyan ərazisindəki "Kəngər dağları" ad-



Azərbaycan Milli Kitabxanası

lanan dağlardan) aşağı düşərək Gürcü qoşunu ilə birləşmək üçün Gürcüstanla Ermənistanın sərhəddində yerləşən "Kəngər torpağı"na gəldilər və sonra farslara qarşı hərbi əməliyyata başladılar.

Azərbaycanın bə'zi Qarabağa aid toponimləri bu kəngərlərin tərkibində olmuş Qarabağ tayfasının məskunlaşması nəticəsində yaranmışdır. (Kəngərli adlı kəndin həm Naxçıvanda, həm də Qarabağ ərazisində olması buna aid ən tutarlı faktdır. — *Q.Q.).*

XVIII əsrin ortalarında Qarabağ xanı Pənah Əli döyüşçü tayfa kimi ad çıxarmış kəngərlərin bir hissəsini Naxçıvandan Qarabağa köçürmüşdü. Naxçıvandakı kəngərlərin içərisində bir tayfa XIX əsrin ortalarında Qarabağlar adlanmışdır.

Yuxarıda göstərdiyimiz mənbədən aydın olur ki, peçenek-kəngərlərin Qarabağ adlı tayfanın həm Albaniyanın qərbində və həm də Naxçıvanda kəngərlərin içərisində yaşaması şübhəsizdir. Artsaxda peçeneklərlə bağlı qədim və müasir toponimlər də orada Qarabağ tayfasının qədimdən məskunlaşmasına dəlalət edir və 1284-cü ildən mə'lum olan (Raşid ad — Din. Perepiska. — M/ 1971, s. 243—244) Qarabağ toponiminin məhz həmin tayfanın adı ilə əlaqədar yarandığını göstərir.

Əslən Xocalıdan olan Abdulla dövrünün ziyalı və savadlı adamlarından biri olub. Abdulla Sankt-Peterburqda təhsil almış, Avropa və Şərq dillərini mükəmməl bilmişdir. Azərbaycanda kolxozlaşma hərəkatı başlayanda Abdulla və Usub kişiyə kolxoza girmək təklif olunur. Usub kişi deyir ki, bu quruluş alçaqlar quruluşudur. Biz belə bir quruluş tanımırıq, ona üzv olmarıq.

1934-cü ildə Usub və Abdullanı Sibirə sürgün edib məhv edirlər.

Həm də bu nəticəyə gəlmək olar ki, "Qarabağ" adı əvvəlcə bu ərazinin müəyyən bir hissəsinin, ehtimal ki, Qarabağ düzünün adı olmuş, sonra bu ad onun dağlıq hissəsinə də şamil edilmişdir.



## MADDİ-MƏ'NƏVİ İNKİŞAFIMIZ

*"Əgər lazımsa cəhalətlə güləşmək,*
*Bir çarə var: o da yeniləşmək".*
**Hüseyn Cavid**

Arxeoloji qazıntıların ardıcıl şəkildə aparılması onu sübut etmişdir ki, Azərbaycan xalqı zəngin maddi və mə'nəvi mədəniyyətə malikdir. Azərbaycan ərazisində Daş dövrünün bütün mərhələlərinə aid, o cümlədən Paleolit, Mezolit, Neolit və Yeneolit dövrünə aid ardıcıl surətdə yaşayış olmuşdur. Demək olar ki, m.ə. III minillikdə Azərbaycan əhalisi başdan-başa dağ, dağətəyi və düzənliklərdə yaşamış və oraları sıx yaşayış yerlərinə çevirmişdilər.

Maddi-mədəniyyət qalıqlarının təhlili ayrı-ayrı arxeoloji dövrlərdə Azərbaycan xalqının dini dünyagörüşünü, onun incəsənətini təsəvvür etməyə imkan verir. Azərbaycan dini ideologiya baxımından üç dövr keçmişdir.

Birinci: ibtidai dini təsəvvürlər sisteminin olması.

İkinci: dövlət yarandıqdan sonra dini baxımdan iki istiqamətin atəşpərəstlik və astral təsəvvürlərin olması.

Üçüncü: m.ə. IV əsrin əvvəllərində xristianlığın dövlət dini e'lan olunması. VIII—IX əsrlərdən əhalinin islamlaşmaya daha çox meyl göstərməsi.

Aparılan təhlillər bunu göstərir ki, məhz Azərbaycan xalqı bu ərazidə meydana gəlmiş, bütün tarixi dövrlərdə öz ölkəsində yaşamış, antropoloji xüsusiyyətləri, adət və ən'ənələri və dini e'tiqadı ilə burada formalaşmışdır. (Buna Azıx mağarası əyani sübutdur. — *Q.Q.*). (R.Göyüşov: "Azərbaycan arxeologiyası".)

[Əjdər Fərzəli: "Dədə Qorqud yurdu" (ixtisarla).]

Araşdırmamız göstərir ki, "xaç" sözü və xaçın özü, şəkli və məzmunu elə ilk dəfə Azərbaycan dilində yaranmışdır.

XIX əsrin I-ci yarısında Azərbaycana gəlmiş İ.Şopen 1840-cı ildə Peterburqda nəşr etdirdiyi "Qafqaz" kitabında yazır ki, "Bu ölkənin (yə'ni Şimali Azərbaycanın) düşmənləri həmişə çox olub. Bir də eramızın 310-cu, 378-ci illərində 40 gün davam edən zəlzələlər bu ölkənin şəhər və kəndlərini bütünlüklə xaraba qoyub. Belələrindən biri bəlkə də Xocalı olub (səh. 36).

Qarabağ ərazisində Artsax-Artsak vilayəti adlanması da bəllidir. Görkəmli Azərbaycan alimi Fəridə Məmmədova həmin ərazinin, yə'ni Qarabağın m.ə. I əsrdə erməni çarı Tiqran tərəfindən zəbt edildiyi, Roma sərkərdəsi Pompeylə döyüşdə I-ci Tiqranın



Azərbaycan Milli Kitabxanası

məğlubiyyəti ilə də həmin Qarabağ torpaqlarının yenə də Alban dövlətinin, yə'ni o zamankı Şimali Azərbaycanın özünə qaytarıldığı bildirilir. (Demək Qarabağ adının XII əsrdən çəkilməsi fikri tamamilə yanlışdır. Qarabağ adı yalnız bir istilah kimi o dövrdən adı çəkilə bilər. — Q.Q.).

"Artsax" sözünün "art" komponenti ad məzmunundadır. Artsax Qarabağ ərazisində çox-çox sonralar meydana gəlmiş adlarındandır (səh.38). Qarabağ nə qəbilə, nə də şəxs adı ilə bağlı deyildir. O, ibtidai azərbaycanlıların ilk inamlarından doğulmuşdur (səh. 38).

Qarabağda kilsələrin çoxu azərbaycanlıların əli ilə ucaldılmışdır...

Qiyasəddin Qeybullayev: "Qarabağ (etnik və siyasi tarixinə dair". (səh. 126—127).

Deyilənlərə yekun vursaq, Artsax-Qarabağ zonasında eramızın I-ci minilliyinin sonunadək belə bir etnik mənzərənin şahidi oluruq. Buranın köklü əhalisi türkdilli saklar, albanlar, aranlar, qarqarlar, hunlar, qoroslar, peçeneklər, qıpçaqlar, xəzərlərdir. Eranın ilk əsrlərindən Xəzərin cənub-qərbindən buraya utilər, parsilər, anarpaklar və enianların müəyyən hissələri də gəlib məskunlaşmışlar. Onlardan utilər Qafqazdilli, parsi və anariak İrandilli, enianlar Yunandilli tayfalar idi. Azərbaycan xalqının formalaşması prosesində sonralar bu tayfalar qaynayıb-qarışaraq azərbaycanlılara qovuşmuş və etnik adlarını itirmişlər. Deyilənlərdən habelə aydın olur ki, Artsaxın-Qarabağın yerli əhalisi, bə'zi tədqiqatçıların dedikləri kimi, Qafqazdilli tayfalar, ya da ermənilər olmamışdır. Burada həmişə əhalinin əksəriyyətini indiki azərbaycanlıların ulu əcdadları təşkil etmişdir. Qədim mənbələrdə, ilk növbədə "Alban tarixi"ndə bu və ya digər münasibətlə yad olunmuş Alban toponimlərinin dil mənsubiyyətləri də bu fikri təsdiq edir.

Bununla belə tədqiqat Abant, mets-kolman, Mets-Aran, Kotayk, Pazkank, Kava, Arkuqet, Aluyen, Daranak, Dut, Karueç, Qaq, Qoş, Urdi, Çlax və b. toponimlərin Türk dilləri vasitəsilə izah olunduğunu göstərmişdir.

Bu Türk mənşəli toponimlər, şübhəsiz ki, Artsax-Dağlıq Qarabağda yaşamış yerli albanların və başqa türkdilli tayfaların dillərindəndir.



## Y.V.ÇƏMƏNZƏMİNLİNİN "QAN İÇİNDƏ" ROMANINDAN XATIRLATMA

"...Onun dediyinə görə Aran böyük bir ölkə imiş. Məqərrisəltənəti də Gəncə imiş.

Vaqif xanın qəzəbini yumşaltmaq üçün tamamilə məsələyə dəxli olmayan bir söhbət başladı.

— Xan, — dedi, — bu gün əlimə qəribə bir kitab düşüb. Bu ölkənin qədim əhvalat və qəziyyələri yazılmışdı. Bilirsən ki, təbaxiri müştaqiyəm.

Xan maraqlanan kimi oldu.

Hirsi o saat yatdı. Vaqif xanda olan dəyişikliyi sezərək sözünün arasını kəsmədən nağıl etməyə başladı.

— Hələ iddəci - xatəm ələndiyadan min il qabaq bizim bu Qarabağda zərdüştçülər yaşarmış. Turan elləri Dərbənddən, səddi-İsgəndərdən keçib buraları yəzma edərmişlər. "Şahnamə"də rəvayət olunan İran-Turan davası bizim Kürlə-Araz arasında vaqe olmuşdur. Bizim bu ölkənin başında çox qəribə qəziyyələr gəlib keçmişdir.

Ağası bəy asudə nəfəs alaraq özünü düzəldib quru, lakin möhkəm döşünü irəli verərək söhbətə qarışdı:

— Rəhmətlik — Pənah xan Fətəli xanın üstünə gedəndə mə'lumi-ainirdir ki, mən yaralanıb bir neçə vaxt Ərdəbildə yatdım. Bəylərbəyi məni bir dərviş zəviyyəsinə tapşırmışdı. Orada bir qoca şeyx var idi. Gecə-gündüz ibadətlə məşğul idi. Özü də həkim idi. Yaramı da yaxşı eləyən o oldu. İbadətdən sonra yanıma gəlib, döşəyimin yanında oturardı. O da bu qəziyyələri mənə demişdi. Onun dediyinə görə, Aran böyük bir ölkə imiş. Məqər-təntənəsi də Gəncə imiş. Amma allah bu gözəl ölkəyə ilanı (ilan, kürzə, əf'i, — deyəndə ermənilər nəzərdə tutulur. — *Q.Q.*) qənim yaratmış imiş. Gürzələr, əf'ilər bu yerdə qaynaşırmış.

İbrahim xan tamamilə sakit olub maraqla soruşdu:

— Bəs bu ermənilər harda imiş?

Vaqif sakitcəsinə dedi:

— Ermənilər buralara çox sonralar gəlmişlər, bunlar Çingiz və Teymurləngin zülmündən qaçıb, bu dağlara sığınmışlar. Görmürsənmi, erməni yaşayan yerlərə "sığnaq" deyirlər..."



Azərbaycan Milli Kitabxanası

## KÖÇÜRÜLMƏ

1828-ci il Türkmənçay müqaviləsinə görə İrandan, Türkiyədən İrəvan xanlığının ərazisinə, Qarabağa və Azərbaycanın başqa əyalətlərinə erməni əhalisinin kütləvi köçürülməsi və yerləşdirilməsi başlandı. Bunun nəticəsində yerlərdə demoqrafiya nisbətən güclü dəyişikliyə uğramışdı. Misal üçün İrəvan xanlığının yerində yaranan "Erməni vilayəti"ndə azərbaycanlıların (qaynağa görə, "müsəlman türklərin") xüsusi çəkisi 1828-ci ildə 73,8 faiz idisə, 1834-1835-ci illərdə 46,2 faizə enmişdi (Gürcüstan SSR MDTA. f., - siyahı №, iş 359, vərəq 20).

1832-ci il kameral sayımına görə Qarabağ əyalətinə 32,4 min (64,8 faiz) azərbaycanlı və 17,4 min (34,8 faiz) erməni qeydə alınmışdı (göründüyü kimi erməni əhalisi 1823-cü ildəki 8,4 faizə nisbətən qısa vaxtda 4 dəfədən çox artmışdı). Sonrakı sayımlar üzrə Şuşa qəzasında 80-ci illərin sonlarında azərbaycanlıların xüsusi çəkisi isə 41,5 faizə enmiş, ermənilərin xüsusi çəkisi isə 58,2 faizə qalxmışdı.

"Köçürmə işinin Zaqafqaziyada demoqrafik vəziyyətə tə'siri N.N.Şavrovun belə bir qeydində çox maraqlıdır: "Biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin deyil, bizə yad olan xalqların... yerləşdirilməsindən başladıq... müharibədən sonrakı iki il ərzində. 1828-ci ildən 1830-cu ilə kimi biz Zaqafqaziyaya İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onların erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında... yerləşdirmişik.

... Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi". Bu köçürmələr nəticəsində 20-ci yüzilliyin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon erməninin bir milyonundan çoxu "diyarın köklü sahibləri olmayıb bizim tərəfimizdən məskunlaşdırılmışdı." (bax: Шавров Н.Н. "Новая угроза русскому делу в Закавказье" S. II б. 1911, с.59–61).



## QARABAĞ XANLIĞI VƏ ONUN TƏŞƏKKÜL TAPMASI

*"Əsgəran qalası gəbə naxışlı,*
*Dağların döşündə ilmələnibdi.*
*Qarabağ qədimdən qalma arxalıq,*
*Yaxası Şuşada düymələnibdi".*

**Allahyar Xocalı**

Xan qayını Cümşüdü yanına çağırtdırdı. Cümşüd qorxu içində gəldi. Xan Ağası beylə oturub düşüncəyə dalmışdı. Cümşüd salam verdi. Xan onun salamını almadı. Bir az ayaq üstə qaldıqdan sonra xan onu qəzəblə süzüb, — otur! —dedi və həyəcanla danışmağa başladı.

— Balam, sən erməni, mən müsəlman, heç məndən əziyyət görmüsən?

Cümşüd itaətli bir halda: — Allah eləməsin, xan, — dedi, — həmişə hörmət görmüşük!

— Bacın da neçə ildir ki mənim əyalımdır, məndən güldən ağır bir şey eşidib?

— Allah eləməsin!

*(Y.V.Çəmənzəminli: "Qan içində").*

Qarabağın tarixində müxtəlif dövlət quruluşları olmasına baxmayaraq, söhbətimizə Qarabağ xanlığının təşəkkül tapmasından, onun Azərbaycan tarixində böyük rol oynamasından başlayırıq.

XVIII əsrin əvvəllərində Azərbaycanı ələ keçirmək uğrunda çar Rusiyası, Sultan Türkiyəsi və İran şahlığı arasında siyasi mübarizə kəskinləşmişdi.

Zaqafqaziya hüquqi cəhətdən İran şahlığına tabe olmasına baxmayaraq, I Pyotrun dövründə Xəzərsahili Azərbaycan ərazisi Rusiya tərəfindən zəbt olunmuşdu. İngiltərə və Fransa imperialistlərinin təhriki ilə XVIII əsrin 20—30-cu illərində Zaqafqaziyanın geniş ərazisi Osmanlı imperiyası tərəfindən işğal edilmişdi. Zaqafqaziya uğrunda hərbi-siyasi mübarizənin güclənməsi İran dövlətini zəiflətmişdi.

XVIII əsrin 30-cu illərində Nadir şah Əfşarın hərbi yürüşləri nəticəsində Zaqafqaziya xalqları Nadir şahın mütləq hakimiyyətinə keçdi.

Nadir şah iki əsrdən artıq mövcud olmuş Qarabağ bəylərbəyliyinə də divan tutdu. Nadir şahın vəfatından sonra Azərbaycan



Azərbaycan Milli Kitabxanası

kiçik feodal dövlətlərinə-xanlıqlara bölündü: Qarabağ, Şəki, Şirvan, Gəncə, Bakı, Ərdəbil, Xoy, Qaradağ, Dərbənd, Naxçıvan, Təbriz, Urmiya, Marağa, Maku...

Qarabağ xanlığının banisi Pənah Əli xan (1703—1763) Cavanşir nəslindən idi. Nadir şahın qoşununda xidmət edərkən igidliyə görə fərqlənmiş, Türkiyə ilə müharibədə onun xüsusi rəğbətini qazanmışdı. Qardaşı Fəzləli bəy də onun kimi igid idi. Bu səbəbdən hər iki qardaş şah sarayına aparılmışdı. Qarabağda Cavanşir, Otuziki, Kəbirli tayfalarının Xorasan yaxınlığına sürülməsi hər iki qardaşı narazı salmışdı. Bunu duyan Nadir şah əvvəlcə eşikağası işləyən Fəzləli bəyi öldürdü, onun yerinə qardaşı Pənah Əlini tə'yin etdi. Pənah Əli 1745-ci ildə İrandan Zaqafqaziyaya qaçdı... və partizan müharibəsinə başladı.

Pənah Əli xan hakimiyyətinin ilk illərində yeni şəhər və kəndlərin salınmasına xüsusi əhəmiyyət verirdi. 1750-ci ildə Azərbaycanın şöhrəti olan Şuşa şəhərinin salınması onun adı ilə bağlıdır.

Mirzə Camalın "Qarabağ tarixi" əsərində Qarabağ və ona daxil olan məliklər (Dizaq, Vərəndə, Xaçın, Çiləbörd, Talış) Gəncə bəylərbəyliyinə tabe olmuşlar.

*Qeyd:* 1. Dizaq məliyi Məlik Yegan adlanır. O, Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdı.

2. Vərəndə məliyi Məlik Şahnəzərlilər nəslindən olmuşdur. Əsili Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçaraq, gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşdur.

3. Xaçın məliyi Həsən Cəlalyanın övladlarındandır.

4. Çörəbörd (Çiləbörd) məliyi — Məlik Allahquludur. Əsili Mağavizdən gəlmədir.

5. Talış məliyi — Məlik Usubdur. Əsili Şirvandan gəlmədir. Eyni zamanda Bayat qalasını da o, 2 yanvar 1748-ci ildə tikdirməyə başlayıb, həmin ilin 22 noyabrında başa çatdırmışdır.

Pənah Əli xanın Bayat qalasında şəkili Hacı Çələbi xanı məğlub etməsi, Qaradağ xanlığını öz tə'siri altına alması, Zaqafqaziyada ədalətli xan kimi tanınmasına və başqa xeyirxahlıqlarına görə qonşu xanlıqlardan Püsyan, Qaraçarlı, Çinli, Dəmirçi onun yanına gəlir, xoş münasibətlər bəsləyirdilər. Əhmədbəy Cavanşir yazır ki, Pənah Əli xanın hakimiyyəti "...dövründə və bundan bir qədər sonra Gürcüstandan və digər qonşu xanlıqlardan Püsyan, Qaraçarlı, Çinli, Dəmirçi Həsənli, Qızıl Hacılı, Səfi Kürd, Boy Əhmədli, Saatlı, Kəngərli tayfaları və bir çox başqaları Qarabağa, Pənah xanın yanına köçüb gəldilər".



XVIII əsrin ortalarında İranda hakimiyyət uğrunda mübarizədə daha təhlükəli bir qüvvə meydana çıxdı. Bu Qacarlar sülaləsinin hakimiyyətinə yol açmış Məhəmməd Həsən xan Qacar idi. (Ağa Məhəmməd şah Qacarın atası).

Məhəmməd Həsən xan Qacar İran və Azərbaycan qoşunu ilə Şuşa qalasını almaq üçün Arazdan keçib qalanın dörd ağaclığında çadır qurdurdu.

Pənah Əli xanın təzyiqinə davam gətirməyən Məhəmməd Həsən xan Arazı keçib İrana qayıtmağa məcbur oldu.

Məhəmməd Həsən xandan sonra Nadir şahın sərkərdələrindən biri olan urmiyalı Fətəli xan Əfşar Azərbaycan, Urmiya və başqa vilayətlərin əhalisindən çoxlu qoşun toplayıb qalanı almaq, Qarabağı ələ keçirmək və Pənah Əli xanı aradan götürmək məqsədilə Şuşa qalasının bir ağaclığında düşərgə qurdu.

Fətəli xanla Pənah xanın müharibəsi 7—8 ay çəkdi. Lakin Fətəli xan qələbə qazana bilmədi. Məsələni mürəkkəbləşdirən bə'zi erməni məliklərinin həmin xarici işğala qarşı satqın mövqeyi idi. Bunlar (Pənah xana ədavət bəsləyən Çiləbörd və Talış mahalının məlikləri) Fətəli xanın yanına getdilər.

Göründüyü kimi Fətəli xana qarşı ölüm-dirim mübarizəsində Vərəndə və Xaçın erməniləri Pənah xana kömək etmiş, Çiləbörd və Talış məlikləri isə düşmən tərəfdə vuruşmuşdular. Xocalı kəndi ətrafında baş verən müharibədə erməni məliklərinin xain çıxması faktını Mirzə Yusif Qarabağı də təsdiq edir. "O zaman Çiləbörd və Talış məlikləri — Məlik Hətəm, Məlik Usub da Fətəli xanın yanına gəlib onun qoşunu ilə birləşdilər. Fətəli xan gördü ki, bu müharibədən bir nəticə çıxmayacaq və məqsədinə nail olmayacaq..."

Mirzə Adıgözəl bəy yazır ki, Fətəli xanın Pənah xana bəslədiyi gizli ədavətin suyu hiylə ilə yoğrulmuşdu. O, mərhum xana qarşı hərb etmək məqsədilə 7 dəfə fitnə-fəsad işlətmişdi. Lakin hər dəfə məqsədinə çatmadan külli tələfatla geri qayıtmışdı. Axırıncı dəfə saysız hesabsız qoşunla gəlib Ballıca çayı ilə Xacə Əlili (hazırkı Xocalı çayı — *N.A.*) arasındakı geniş bir səhrada düşdü..."

Pənah xanın Fətəli xanın əleyhinə mübarizə məqsədilə Kərim xan Zənd ilə ittifaq yaratmasını Əhmədbəy Cavanşir belə təsvir edir: "O zaman İranda Fətəli xandan başqa bir də Kərim xan Zənd məşhur idi.

Pənah xan onun yanına qasidlər göndərdi. Onlar özlərinin birgə hərəkətləri barədə razılığa gəlib, hər iki tərəfdən Fətəli xanın üzərinə hücuma keçdilər və onu məğlub edib, özünü əsir aldılar, İbrahim xanı isə sağ-salamat geri qaytardılar.

Ümumi düşmən üzərində əldə edilmiş birgə qələbədən sonra qaliblərdən biri üstün olmalı idi. Şübhəsiz bu birincilik, demək olar ki, bütün İranı özünə tabe etmiş Kərim xan Zəndin əlinə keçdi. Kərim xan təcrübəli bir məsləhətçi adı ilə həm onun özünü, həm də oğlunu Şiraza, öz yanına apardı. Az sonra İbrahim Xəlil ağaya xanlıq fərmanı və hədiyyələr verərək Qarabağa yola saldı. Pənah xan bir müddətdən sonra 1763-cü ildə Şirazda vəfat etdi.

Pənah Əli xanın vəsiyyətinə görə o Ağdama gətirildi və ata-baba mülkündə dəfn olundu. Sonralar Qarabağ xanları və onların övladları, arvadları və yaxın əqrəbaları həmin xanlıq qəbiristanlığında dəfn edildilər.

## İbrahim Xəlil xan (1759—1806)

İbrahim Xəlil xan Qarabağda daxili və xarici siyasət sahəsində mühüm işlər görmüşdü. İbrahim Xəlil xan erməni məliklərinin xəyanətinə son qoydu. O, Qarabağ xanlığının daxilində və onun xaricində sabitlik yaradıb, əhalinin dinc əməklə məşğul olmasına şərait yarada bilmişdi.

Xanlığın hakim sinfini feodallar təşkil edirdilər. Ən yüksək mövqeyi xanlar, onlardan sonra isə sultanlar, bəylər, ağalar və məliklər tuturdular. Ali ruhanilər də feodallar sırasında idilər.

Şuşa Yaxın Şərqin məşhur şəhərlərindən biri olmuşdur. Müxtəlif dövrlərdə şəhərin üç adı olmuşdur. Pənah Əli xanın şərəfinə P ə n a h a b a d, öz gözəlliyinə, sıldırım və şiş qayalarla əhatə olunmasına görə Şişə, xalq arasında isə bu günə qədər də Qala adlanır.

İbrahim Xəlil xanın bina etdirdiyi imarətlərdən şəhərin mərkəzində olan məscidi (1766-cı ildə), (sonradan İbrahim xanın qızı Gövhər ağa əsaslı tə'mir etdirmişdi) Əsgəran qalası (1787-ci ildə), İbrahim xanın özünün imarəti, (Şüşü şəhərində Gəncə xanzadələrindən olan Mehdiqulu xanın anası üçün tikdirmişdi), Dərə xəzinəsinin imarət və otaqları, Xanbağı imarətləri, Ağdam bazarının hasarı və oranın ali günbəzləridir. Bu günbəzlər mərhum Pənah



xanın və onun dünyasını dəyişmiş övladlarının qəbirləri üzərində tikilmişdir.

İbrahim Xəlil xanın qonşu xanlarla münasibətləri pozulanda və hərbi yürüş etdikdə öz müttəfiqlərindən istifadə edirdi. Təxminən 1789-cu ildə ləzgi, car, avar və Qarabağın könüllülərini və Qaracadağın qoşununu toplayıb Xoy hakimi Cəfərqulu xanın üstünə yeridi. Şiddətli döyüş nəticəsində İbrahim xan qalib gəldi.

Azərbaycan xanlıqlarının inzibati-ərazi bölgüsü də maraqlı idi. Qarabağ xanlığında 22 mahal var idi.

— Qarabağ xanlığının mövcudiyyəti dövründə Qarabağda kəndlərin sayı və əhali sıxlığı təxminən iki dəfə artmışdı. İran, Türkiyə, Rusiya, Gürcüstan və Ermənistan əhalisinin Qarabağa "səfər etmələrinə" səbəb ilk növbədə onun təbii sərvətləri, ab-havası, barlı-bərəkətli torpaqları, çayları, bulaqları, meşələridir.

— Xanlıq ərazisindən üç məşhur yol keçirdi. Bu yollardan biri Gəncə ilə Şuşa, ikincisi Şuşa ilə Şəki, üçüncüsü isə Şuşadan başlayıb Arazı keçməklə İrana qədər uzanırdı. Bu yolla eyni zamanda Hindistana qədər getmək mümkün idi.

— Şuşada barıt istehsal edən xüsusi müəssisə işləyirdi. Şəhərin 1826-cı il mühasirəsi zamanı döyüşçülərə hər gün 27 girvənkədən çox barıt verilirdi.

— 1794-cü ildə Ağa Məhəmməd şah Qacar qoşunun və silahın sayını on qat artırmağa məcbur oldu. 1795-ci ilin yayında Arazı keçib Qarabağ istiqamətində (bütün ərazidə hərəkət edən İran qoşunlarının sayı 85 min nəfərdən artıq idi. Bu yürüş Qarabağ üçün deyil, bütün Zaqafqaziya üçün təhlükə törədirdi) hərəkət etdi.

— 33 gün Şuşanı mühasirədə saxlayıb onu təslim etməyə cəhd göstərdi, lakin məqsədinə nail ola bilmədi.

— Ağa Məhəmməd şah gördü ki, burada durduqca "qalibiyyət ilahəsi" yoxluq pərdəsi dalından çıxmır. Döyüşçülər də Qarabağ qoşunlarının mərdanə hücumlarından və cəsarətli çarpışmalarından qorxuya düşürdülər. Ona görə də İran qoşunu geri çəkilməyə başladı.

— İran ordusu Şirvan, Şəki, Quba xanlıqlarını və Gürcüstanı talan etdi. 1795-ci il yürüşündə 100 min başdan artıq mal-qaranı Azərbaycandan sürüb İrana aparmışdılar.

— Ağa Məhəmməd Qacar İrana qayıdıb üsyançıları öz itaəti altına aldı və 1796-cı ildə özünü İran şahı e'lan etdi.



Azərbaycan Milli Kitabxanası

— Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında yenidən Arazı keçdi. Onun əsas qüvvələri Qarabağ xanlığına — Şuşa qalasına doğru hərəkət edirdi.

Şuşanı müdafiə etmək üçün lazımi, kifayət qədər qüvvəsi olmadığından İbrahim Xəlil xan Şuşadan çıxıb müdafiə oluna-oluna Car-Balakənə doğru hərəkət etdi.

— İbrahim xan qaladan çıxdıqdan sonra Ağa Məhəmməd şah heç bir ciddi maneəyə rast gəlmədən Şuşa qalasına girib bir həftə orada qaldı. Şah onu qane etməyən bir iş üstündə iki xidmətçisinə: Səfərəli bəyə və Abbas bəyə hirslənərək dedi: "Səhər açılan kimi hər ikinizə ağır cəza verəcəyəm". Hər iki bəy cəzalanacaqlarından qorxaraq səhər açılana kimi şahı öldürməyi qərara alırlar. Sübh çağı şah hələ yuxuda ikən otağına girib xəncərlə onu öldürürlər...

— Az sonra şəhərdə şahın ölüm xəbəri yayılır və təlaşa düşmüş İran qoşunu pərakəndə halda Şuşanı tərk edir...

— Bu zaman İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy şahın imarətinə daxil olur və şaha məxsus olan ziynət əşyalarını qarət edir...

— Məhəmməd bəy mərhum İbrahim xan qayıdana qədər Qarabağ xanlığını idarə edir.

Böyük Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqifin və oğlu Əlibəyin haqsız e'dam olunması Məhəmməd bəyin bəd niyyətinin nəticəsi idi...

1797-ci ildə İbrahim Xəlil xan Car-Balakəndən Şuşaya qayıdır...



## Qarabağ xanı İbrahim Xəlil xanın son aqibəti

— İbrahim Xəlil xan Rusiyaya ilə dostluq, itaətkarlıq siyasəti yeridirdi. Bu siyasət müxtəlif məktub və sənədlərdə, eləcə də 1805-ci ilin mayında Kürəkçayda bağlanmış sazişdə öz ifadəsini tapmışdır. Rus dövləti İbrahim Xəlil xanın sədaqətini nəzərə alaraq onun əleyhinə nə XVIII əsrdə, nə də XIX əsrin əvvəllərində güc işlətməmişdir. Buna baxmayaraq çarizmin milli müstəmləkə siyasətini icra edən dar düşüncəli mayor Lisaneviç Kürəkçay sazişindən heç bir ildə keçməmiş, İbrahim Xəlil xanın Rusiyaya sədaqətinə şübhə etməyə başladı, eləcə də erməni məliklərinin, xüsusilə Məlik Cümşüdün fitvaları əsasında xanı ailəsi və yaxın adamları ilə birlikdə 11 iyun 1806-cı ildə Şuşa qalası yaxınlığında öldürtdü. Böyük dövlət xadimi, misilsiz sərkərdə, Rusiyanın sədaqətli dostu İbrahim Xəlil xanın öz "dostlarının" əli ilə öldürülməsi Qarabağ əhalisini narazı saldı və onlar kütləvi e'tirazlarını çara bildirdilərsə də bir nəticə vermədi. Əksinə Lisaneviçin hərbi rütbəsi artırıldı. O, əvvəlcə polkovnik, sonra isə general rütbəsi aldı. İbrahim Xəlil xanın qətlindən sonra oğlu general-mayor Mehdiqulu xan Qarabağ xanı tə'yin edildi. Mehdiqulu xan Qarabağ xanlığının ləğvinə qədər (1822) xanlıq vəzifəsini icra etdi.

Mehdiqulu xanın hakimiyyəti dövründə Qarabağ xanlığına böyük fəlakətlər gəldi və o, dəfələrlə ruslarla müharibələr etdisə də xanlığı bu əsarətdən qurtarmağa müvəffəq ola bilmədi və vilayət bütünlüklə Rusiyanın tabeçiliyi altına alındı.



Azərbaycan Milli Kitabxanası

## TARİXDƏN YARPAQLAR

### Mehdiqulu xanın xilaskarı

Bütün xanzadə və bəyzadələr kimi uşaqlıqdan ovçuluğa böyük marağı olan Mehdiqulu ağa tay-tuşlarını, yaxın adamlarını başına cəmləyib tez-tez Qarabağın dağlarına, meşələrinə, ovlaqlarına çıxar, günlərinin əksəriyyətini təbiətin qoynunda keçirərdi. Lakin bu elə bir dövr idi ki, qaçaq-quldur dəstələri hər yeri başına götürmüşdü. İbrahim Xəlil xan da oğluna dönə-dönə tapşırmışdı ki, ehtiyatı heç vaxt əldən verməsin, çünki onların düşmənləri çoxdur. Xan xüsusilə, sarıcalı Hüseyn bəydən ehtiyat edirdi. Hüseyn bəy neçə il əvvəl xanlıqdan incik düşərək baş götürüb, əvvəlcə İbrahimxəlil xanın düşmənlərindən olan Şəki xanına, sonra isə Şirvan hakiminə pənah aparmışdı. Hüseyn bəy fürsət axtarırdı ki, bu heyfi Qarabağ xanında, onun oğlanlarında və yaxınlarında qoymasın. Üstəlik də o, heyfini çıxmaq məqsədi ilə şamaxılı Mustafa xanın namərdcəsinə qətlə yetirdiyi Məhəmməd bəy Cavanşirin arvadı Qızxanımla da evlənmişdi. Hüseyn bəy öz quldur dəstəsi ilə tez-tez Qarabağın sərhədlərini keçir, soyğunçuluq və çapqınçılıqla məşğul olurdu.

Bir dəfə Mehdiqulu ağanın yaxın dostu və silahdaşı Uğurlu bəyin köməkliyi ilə, İbrahimxəlil xanın oğlu belə bir təhlükədən sovuşmuşdu. Mehdiqulu ağa dostları Uğurlu bəy və Rüstəm bəylə ov eləyə-eləyə Gülablı meşələrinə qədər gəlib çıxmışdı. Onlar artıq evə qayıtmağa hazırlaşırdılar. Sən demə, həmin vaxt Hüseyn bəy meşədə imiş və bəyləri izləyirmiş. O, öz quldur dəstəsi ilə qəflətən ovçuların başının üstünü alır. Elə Mehdiqulu ağanı nişan alıb, atmaq istəyirdi ki, Uğurlu bəy ondan cəld tərpənərək birinci atəşdəcə Hüseyn bəyi vurub atdan yerə saldı. Hər iki dəstə arasında atışma başladı. Mehdiqulu ağanın adamları Hüseyn bəyin qaçaq dəstəsini pərən-pərən salırlar.

Onlar Şuşaya qayıtdılar. Mehdiqulu ağa isə Uğurlu bəyi saraya, atasının yanına gətirir. Əhvalatı təfsilatı ilə ona danışır. İbrahim Xəlil xan oğlunun xilaskarını bağrına basıb dönə-dönə təşəkkürünü bildirir və ona ənam verir.

O gündən də Mehdiqulu ağa ilə Uğurlu bəyin dostluğu əsl qardaşlığa çevrilir.



İbrahim Xəlil xan hərbi əməliyyatlar keçirərkən Uğurlu bəy həmişə xanın övladları ilə bir sırada dayanırdı. Uğurlu bəy Qarabağda və ondan kənarlarda gedən döyüşlərdə bir sərkərdə-döyüşçü kimi xüsusi igidliklər göstərirdi. Ziyadoğlular nəslinin bu qəhrəman oğlu birinci və ikinci rus-iran müharibələrinin əvvəldən axıra kimi iştirakçısı olmuş, öz adını Qarabağın cəngavərlik salnaməsinə igid bir döyüşçü kimi yazmışdır.

1806-cı ildə Abbas Mirzənin sərkərdəliyi ilə İran qoşunları Qarabağa hücum etdi. Əbülfət xan Cavanşirin başçılığı ilə beş min nəfərlik qoşun Tuğ kəndini mühasirəyə alaraq həmin vaxt orada olan İbrahim Xəlil xanı və oğlu Məhəmmədhəsən ağanı əsir götürmək istəyirdi. Bu vaxt Uğurlu bəy Mehdiqulu ağa və Rüstəm bəy silahdaşları ilə birlikdə özlərini ora yetirdilər və düşmən qoşunlarını darmadağın edərək İbrahim xanı və oğlunu xilas etdilər. Uğurlu bəy Xonaşen döyüşlərində və Şuşanın Abbas Mirzə qoşunlarından müdafiəsində də fəal iştirak etmişdir. Ümumiyyətlə, bu cəsur döyüşçü-sərkərdə Qarabağda baş verən ictimai-siyasi hadisələrin həmişə mərkəzində dururdu.

Mehdiqulu ağa ilə dostluğu, xan ailəsi ilə yaxınlığı Uğurlu bəyin Qarabağın bu nəcabətli nəsli ilə qohumluq əlaqələri yaratmasına səbəb olmuşdur. Sonralar o, öz qızı Bədircahan bəyimi Mehdiqulu ağaya ərə vermişdi. Onların izdivacından isə Xurşudbanu Natəvan kimi bir şairə, qeyrətli və vətənpərvər bir qadın, xeyirxah bir ziyalı dünyaya gəlmişdi.

Uğurlu bəy Uğurlubəyov kürəkəni Mehdiqulu xanın hakimiyyəti dövründə onun naibi olmuş, 1822-ci ilə qədər, yə'ni Qarabağ xanlığı ləğv olunandan sonra kapitan rütbəsində rus idarələrində kiçik mə'mur vəzifəsində çalışmışdır.

On doqquzuncu yüzillikdə Qarabağda atçılığın inkişaf etdirilməsində Uğurlu bəy Uğurlubəyovun da xidmətləri az olmamışdı. Onun atçılıq zavodunda bəslənilib-yetişdirilən cins atların sorağı hər yerə yayılmışdı.

Uğurlu bəy doğma Qarabağın mədəni, iqtisadi, hərbi cəhətdən inkişafında mühüm rol oynamışdır. Onun Şuşada tikdirdiyi imarət Qarabağ me'marlıq məktəbinin ən gözəl nümunələrindən hesab olunur, şəhərin Aşağıbazarındakı karvansara isə uzun illər neçə-neçə müsafirə öz qoynunda yer vermişdi.

Uğurlu bəy Uğurlubəyov igidlikdə özünə çəkən və bütün Qarabağa başucalığı gətirən iki cəngavər oğul tərbiyə edib böyütmüşdü. Biri rus ordusunun polkovniki, böyük rus şairi Aleksandr



Azərbaycan Milli Kitabxanası

Sergeyeviç Puşkinin dostu Fərəculla bəy, o biri isə Qasım bəy Zakirin və dramaturq Mirzə Fətəli Axundovun həmməsləki və yaxını olan Rəhim bəy idi.

*Vasif Quliyev*
*"Qarabağ" qəzeti, 5 iyun 1998-ci il.*

## Xocalının tarixi şəxsiyyətləri

1. Pənah Əli xanın bacısı oğlu minbaşı Lütvəli bəyin də Xocalıdan olmasını iddia edənlər var idi. Apardığımız axtarışlar nəticəsində Lütfəli bəyin Sarıcalıdan olduğunu müəyyənləşdirdik.

2. Mirzə Məhəmmədxan bəy Cavanşir mahalının Xocalı kəndindəndir. Məhəmmədxan bəy atası minbaşı Səlif bəyin ölümündən sonra Cavanşir tayfasının başçısı, sonra da Şuşanın qalabəyisi (komendantı) olmuşdu.

3. Mirzə Camal Cavanşir (1773—1853) fars dilində yazılmış "Tarixi-Qarabağ" adlı əsərin müəllifidir.

Mirzə Camalın həyat və fəaliyyəti tarixə aid ədəbiyyatlarda ətraflı işıqlandırılmışdır. XIX əsrin ortalarında məşhur qafqazşünas Adolf Berje "Tarixi-Qarabağ" əsərini rus dilinə tərcümə edərkən Mirzə Fətəli Axundova müraciət edərək, Mirzə Camalın tərcümeyi-halı haqqında mə'lumat verməsini xahiş etmişdi. Mirzə Camalı şəxsən tanıyan M.F.Axundov onun oğlu ilə məktublaşıb (Mirzə Camalın oğlu Rzaqulu bəy Mirzə Camal oğlu nəzərdə tutulur. — *Q.Q.*), atası haqqında mə'lumat toplayaraq, nəşr olunmaq üçün A.Berjeyə verir (bax: "Qafqaz" qəzeti, 1855, N61).

Bu mə'lumatdan aydın olur ki, Mirzə Camal Cavanşir nahiyyəsinin Xocalı kəndində, xan xidmətçilərindən olan Məmmədxan bəyin ailəsində anadan olmuşdur. M.Camal müəyyən ibtidai təhsil aldıqdan sonra İbrahim xanın arvadı Bikəxanımın işlər müdiri vəzifəsinə tə'yin olunur və həmin vəzifədə ikən təhsil almaq üçün Dağıstanın Xunzax kəndinə göndərilir. O, burada 6 il qalaraq ərəb dilini öyrənir. Ağa Məhəmməd şahın öldürülməsindən sonra Mirzə Camal Dağıstandan qayıdır və Bikəxanımın zəmanəti üzrə xanın e'timadını qazanır. İbrahim xan onun atasının xidmətlərini nəzərə alaraq, Mirzə Camalı Qarabağ xanlığının vəzir-katibi tə'yin edir. Mirzə Camal bu vəzifədə İbrahim xanın ölümünə qədər



(1806) qalır və sonralar J.L.Nebolsinə bilavasitə tabe olan Məhəmməd Həsənağanın yanında qulluq edir.

1822-ci ildə Qarabağ xanı Mehdiqulu xan İrana qaçdıqdan sonra M.Camal A.P.Yermolovun göstərişi ilə dəftərxana katibi tə'yin olunaraq P.İ.Moqilevskinin, Madatovun, Reutun və başqalarının yanında 1840-cı ilə qədər qulluq etdikdən sonra iste'faya çıxmış və 1853-cü ildə vəfat etmişdir.

4. Rzaqulu bəy Mirzə Camal oğlu Vəzirovun həyatı da tam tədqiq edilməmişdir. Mənbələrdən mə'lumdur ki, o XIX əsrin əvvəllərində Tiflis şəhərində praporşik vəzifəsində işləmişdir. Adolf Berje Mirzə Camalın yuxarıda adı çəkilən əsərini ruscaya tərcümə edib 1855-ci ildə "Kavkaz" qəzetində çap etdirərkən Rzaqulu bəydən atasının tərcümeyi-halını almışdır. A.Berje yazır ki, onu Rzaqulu bəylə Mirzə Fətəli Axundov tanış etmişdir.

Rzaqulu bəyin özünün yazdığı kimi o, atası Mirzə Camalın "Qarabağın tarixi"nin izahatını vermiş və əsərə bə'zi əlavələr etmişdir. Rzaqulu bəy ədəbiyyat tarixi üçün elmi cəhətdən maraq doğuran daha iki əsər yazmışdır.

1. "Müqəddimati-keyfiyyəti bə'zi əhvalat və sərgüzəşti Axund Molla Əlipənah Vaqif təxəllüs".

2. "Müqəddimati-sərgüzəşti Qasımbəy Zakir təxəllüs mərhumun bə'zi əhvalatları".

Bunlardan başqa "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri "əsəri də vardır.

Qeyd: Mirzə Cavanşir, onun oğlu Rzaqulu bəy Vəzirov, Həsənqulu Rzaqulu oğlu, Qulu Həsənqulu oğlu, Usub Qulu oğlu da əslən Xocalıdan olub Məmmədxan bəyin bu günümüzə kimi davam edən və yaşayan nəslindəndirlər.*

* Qarabağ xanlığına aid materiallar və Xocalının tarixi şəxsiyyətləri "Qarabağnamələr"in 1-ci və 2-ci kitabı əsasında işlənmişdir.



Azərbaycan Milli Kitabxanası

## *Ruslaşdırma siyasəti*

(Bu bölmə Cahangir Zeynaloğlunun "Müxtəsər Azərbaycan tarixi", Bakı, 1992-ci il kitabından götürülmüşdür).

**"Zülmün topu var, gülləsi var, qalası varsa,**
**Haqqın da bükülməz qolu, dönməz üzü var".**

Çar Rusiyası Azərbaycanı hakimiyyət altına aldığından, süqutuna qədər türklərin milliyyətini söndürmək üçün nə lazım isə etməkdən geri durmamışdır. Azərbaycan türklərini "tatar" deyə adlandırmışdır. Ye'ni nə Türkiyəyə, nə də İrana münasibəti olmayan üçüncü bir millət yaratmağa çalışmışdır. Zavallı azərbaycanlılar da təhsildən məhrum və tarixindən bixəbər olaraq rus istibdadı altında son zamanlara qədər özünü tatar zənn etmişdir. Ruslar türkcə tədrisatı qadağan edib, türk məktəbləri açdırmadılar, türkcə danışmağın belə yasaq edilməsinə var qüvvətlə çalışdılar. Xalqı daima rusca danışmağa məcbur etdilər.

— Azərbaycanda xristianlara əksəriyyəti tə'min eyləmək və hüdud boylarında İran və Osmanlı vətəndaşları ilə Azərbaycanın təmasını yasaq etmək üçün buralara erməni, alman və daxili Rusiyadan xaxol, malaqan deyilən rus kəndlilərini məskunlaşdırdığı kimi, mühaciratı asanlaşdırmaq üçün bir də mühaciratın müdiriyyəti tə'sis eyləmişdi...

## *Silahdan təcrid*

İslam əhalisindən əsgər almadılar və əsgəri fənlərdən məhrum etdilər. Buna müqabil əsgər vergisi adıyla əhalidən bol-bol pullar aldılar. Əksinə qonşularımızı əsgər apararaq, onlardan bölüklər və qüvvələr təşkil etdilər və cümhuriyyətimizin ilk təşkilində onların olduqca müntəzəm ordu və zabitləri mövcud olduğu halda, biz bu təşkilatdan tamamilə məhrum qaldıq. Rusiyanın zülm və təzyiqi bizi bu qədər geridə buraxdı. 1334-də (1314) azərbaycanlıları arxa cəbhədə saxlayıb, əllərinə qazma, kürək, vermək istədilərsə də, azərbaycanlılar "Biz silah işlədirik, kürək işlətmirik", — dedilər və israr etdilər. Bunun üzərində ruslar da bu də'vətdən vaz keçdilər. Bu surətdə Azərbaycanda silahdan təcrid edilib, milli qiyafəsi sayılan xəncər belə daşımaq yasaq edilmişdi.



## *Maarifciliyə maneçilik*

Son zamanlara qədər Azərbaycanda nə maarif əsəri, nə də mətbuat var idi. Türkcə qəzet nəşrinə icazə verilməzdi. Qoca Azərbaycanın son zamana qədər bir qəzetəsi yox idi.

— Rus ibtidai və orta məktəblərinə türklərin qəbulu zor iş idi və yalnız zəngin olanlar pul gücünə be'zən qəbul olunurdu. 1330/1911/ -da bütün Qafqaz məktəblərində olan islam və Türk cocuqlarının miqdarı aşağıdakı miqdarda idi.

| | müsəlmanlar | gürcülər | ermənilər |
|---|---|---|---|
| İbtidai məktəbdə | 1672 | 3562 | 3162 |
| Orta məktəbdə | 796 | 2650 | 2316 |

Bu rəqəmlər maarifdə insanlara verilən haqq cəhətində bir fikrə aydınlıq verə bilir, zənn edirəm...

## *Ticarətin təhriri*

Ticarətin və sərvətin türklərin əlinə keçməməsi üçün ruslar bunda da şiddətli tədbirlər tətbiq etmişlərdi. Muğanda Türklərin pambıq ticarəti üçün fabrik tə'sisi qadağan olunub, bu haqq yalnız rus və xristianlara verilmişdi.

— Neft ticarətində böyük mə'dənlər və şirkətlərdə də türklərin haqq işi təhdid olunmuşdu. Beləcə Türklər elm və ürfandan məhrum buraxılaraq, iqtisadi cəhətdən də məhkum edilmişlərdi.

## *Ziyalıların tə'qibi*

Millətin qabaqcılları olan və min dürlü müşkülat içərisində yetişə bilən ziyalılar və qələm sahibləri daim tə'qiblərə mə'ruz qalır, şiddətli bir kontrol altında saxlanılırdı.

Əlavədən: Ziyalılarımızın böyük bir qismi də son zamanlarda məhv olundu. O cümlədən Azərbaycanın Xarici işlər naziri Fətəlixan, Milli Məclisin rəisi doktor Həsən bəy Tiflisdə, Daxili İşlər na-



Azərbaycan Milli Kitabxanası

ziri Behbud xan Cavanşir də İstanbulda düşmənlər tərəfindən şəhid edildilər...

### *Ermәni-müsəlman toqquşması*

1325/1905/-də Rusiya hökumətinin Yaponiya tərəfindən məğlub edilməsi üzündən məmləkətdə daxili inzibat xələldar olmağa başladı. Hər yerdə əhali ilə əmələlər birləşərək, əsgərlər ilə qanlı toqquşmalar törədirdilər. Qafqazda da ermənilər qiyam edərək, öz kilsə və vəqflərinin idarələrini ələ aldılar. Hətta ötəndən bəri Osmanlı dövləti əleyhinə hərəkət etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılaraq müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi.

— Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə mə'muru göndərərək türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviqlə əsrlərcə yaxşı keçinən iki milləti birini digərinə qırdırdı.

1904-cü ildə Bakıda, Gəncədə, o birisi il iyulda İrəvanda, Qazaxda, Qarabağda və sair yerlərdə qanlı toqquşmalar başladı.

— Amma daşnaklar əlli ildən bəri tədarük etdikləri silah və pul ilə bu toqquşmalarda çox işlər gördülər.

Buna baxmayaraq, türklər nəhayətdə qalib gəlib, erməniləri hər yerdə məğlub elədilər. Bu qırğın təbii ki, tərəflər üçün lüzumsuz idi. Yalnız ruslar bundan çox istifadə edərək, millətlərin birini digəri əleyhinə təhrik etməklə zəifliyə düçar və bu əsnada daxili iğtişaşı yatırmağa müvəffəq olduqdan sonra Qafqaz qitəsindəki keçmiş nüfuzunu əldə etdi. Fəqət bu qırğın ilə bir dərəcəyə qədər millət gözünü açıb dost və düşmənlərini tanıdı və Rusiya siyasətini anladı...

### *Nicat yolu*

Qonşularımızdan ermənilər Amerikada, gürcülər Amsderdamda olan sosialist himayəsinə söykənərək, qəzetlər, kitablar nəşrilə istiqlal əldə etmək yolunda çalışdılar və himayə gördülər. Lakin Azərbaycan türklərinin məzlum səsinə bütün dünyanın qulaqları sağır qaldı. Zalım Rusiyanın bu sahibsiz, əsir müsəlmanları son



bir çarə olaraq 1897-də Osmanlı məmləkətinə keçmək fikrinə düşdülər. Bundan ruslar xəbər tutaraq, hər vasitəyə əl atmaqla köçməyi qadağan etdilərsə də buna baxmayaraq, Şəki və sair yerlərdən mühacirət edənlər oldu. Nəhayət 1335/1917/-də ruslar Cahan hərbində məğlub olduqlarından Rusiyanın daxilində misli görünməmiş, dəhşətli bir çaxnaşma zühur etdi və çar hökuməti süqut etməklə kiçik millətlər və Azərbaycan üçün də hürriyyət havası əsməyə başladı.

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI

*(ADR-28 may 1918-ci il — 28 aprel 1920-ci il).*

"İ.V.Stalin:

— Bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verdiniz?

M.Ə.Rəsulzadə:

— Çox şey verə bilmədik. Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa milli istiqlal dadızdırdıq... Bir kərə ucalan bayraq bir daha enməz".

1917-ci ilin fevralında "xalqlar həbsxanası" çar Rusiyasında da baş verən burjua-demokratik inqilabının qələbəsindən sonra Zaqafqaziyada siyasi proseslər özünəməxsus inkişaf yolu ilə cərəyan edirdi. Lakin, demək lazımdır ki, bu dövrdə nə Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə (OZAKOM), nə də Zaqafqaziya komissarlığı (ZAQAFKOM) mövcud siyasi vəziyyəti sabitləşdirmək, müəyyən axara salmaq iqtidarında olmadı. 1918-ci ilin aprelində yaranmış müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının da bölgənin üç əsas millətinin mənafeyini qorumaq işində aciz qaldığı üzə çıxdı. Azərbaycan, Gürcüstan və Ermənistandan olan seym nümayəndələri isə müxtəlif vacib məsələlərə münasibətdə bir-birinə tam zidd mövqelərə malik idilər. Belə ki, vacib dövlət qurumuna birləşdiklərinə baxmayaraq, onların arasında olan münasibətlər əslində çox kəskin xarakter daşıyırdı. Azərbaycanda böhranlı vəziyyət o dərəcəyə çatmışdı ki, onun Türk (Azərbaycan) yurdu kimi qalıb-qalmaması məsələsi həll olunurdu.

Azərbaycanın qərbində Türkiyə qoşunlarının təzyiqi altında geri oturdulan erməni hərbi qüvvələri yerli dinc əhaliyə qarşı e'lan olunmamış ədalətsiz müharibəni şiddətləndirməkdə davam edirdi və amansız qırğınlar artıq Qarabağı da çulğamışdı. 1918-ci ilin mart ayına qədər İrəvan quberniyasında (ermənilər həmin quber-



Azərbaycan Milli Kitabxanası

niyanın büsbütün özlərininki olduğunu iddia edirdilər) 197 kənd darmadağın edilmiş, 100 min 626 nəfərdən artıq yerli türk (azərbaycanlı) əhalisi təcavüzün qurbanı olmuş, və ya ev-eşiyini atıb qonşu mahallara pənah aparmağa məcbur qalmışdı. Azərbaycanın digər yerlərində, xüsusən də şərqində vəziyyət daha dözülməz idi. 1917-ci ildə Gəncə quberniyasında yaşayış məntəqələrinin 27-si tamamilə darmadağın edilmiş, 35-i böyük ziyan çəkmişdi. Qarabağın baş valiliyində (Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur mahallarında) ziyan çəkən yaşayış məntəqələrinin sayı — 157 idi. Həmin ildə Bakı quberniyasında (Lənkəran mahalı istisna olmaqla) 33 yaşayış məntəqəsi büsbütün, 196-sı isə qismən dağıdılmışdı. 1918-ci ilin əvvəllərində milli münaqişə (daha dəqiq desək, müharibə) daha da şiddətlənmiş, yerli əhali gəlmələrin mütəşəkkil üstün qüvvələri qarşısında kütləvi surətdə el-obasını tərk etməyə başlamışdı. 1918-ci ilin mart ayının sonlarında təkcə elə Bakıdan on mindən artıq müsəlman /türk/ əhali qırılmış, bundan daha çox adam isə Quba, Şamaxı və ətraf kəndlərdə azğın erməni dəstələrinin qurbanı olmuşdu.

Mövcud vəziyyəti bir daha dərindən araşdırıb, zəruri hazırlıq tədbirləri gördükdən sonra Azərbaycan Milli Şurası 1918-ci ilin 28 mayında İstiqlal bəyannaməsi ilə müstəqil Azərbaycan Demokratik Respublikasının (ADR) yarandığını və mövcud şəraitdə Azərbaycanın müstəqilliyi uğrunda açıq mübarizənin milli qurtuluşun yeganə düzgün yolu olduğunu bildirdi. Həmin tarixi sənədə əsasən müəssisələr məclisi çağrılana qədər Milli Şura ölkədə ali qanunverici, müvəqqəti hökumət isə — ali icraedici orqan hesab olundu.

— 72 minlik XI Qızıl Ordunun (Qarabağda erməni qiyamını yatırtmaq adı altında — *Q.Q.*) zirehli qatarlar qrupu 26-dan 27-nə keçən gecə Azərbaycan sərhəddini keçərək sür'ətlə Bakı üzərinə hərəkət etməyə başladı. Azərbaycan ordusunun kiçik dəstələri XI Ordunun hücumunun qarşısını ala bilmədi. Lakin çox keçmədən Azərbaycan Ordu (Azərbaycan Ordusunun buraxılmayacağı və'd edilsə də *Q.Q.*) hissələri ləğv edildi...

1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası quruldu.

(Bu materiallar Nəsib Nəsibzadənin "Azərbaycan Demokratik Respublikası" /1/ Bakı, 1990-cı il kitabından götürülmüşdür./



## QANLA YAZILMIŞ YADDAŞ

*Bağrıqan dağı*

(Mir Möhsün Nəvvabın "1905—1906-cı illərdə erməni-müsəlman davası" kitabından.)

Bu halda bir neçə kəlmə erməni tayfasının törətdiyi əhvalatlardan yazmaq lazımdır. Əvvəla, mərhum İbrahim xanın hökmranlığı zamanında Pənahabad, yə'ni Şuşa qalasının şərq tərəfində Bağrıqan dağı deyilən yerdə bir uca qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. Avan Koxa öz təbəələrinə tapşırmışdır ki, harda əllərinə müsəlman düşsə tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmrilə tutulmuş müsəlmanı çılpaqlayıb üzü üstə yerə yıxırdılar. Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla boynundan qom ətinəcən iki tərəfdən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxırdılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı. Buna görə də həmin qayaya "Bağrıqan dağı" adı vermişdilər.

## KEÇMİŞİN AĞRI-ACILARI XOCALIDA DƏHŞƏTLƏ ÜZƏ ÇIXDI

*Faciə, soyqırım, yoxsa satqınlıq*

Xocalı barlı-bəhrəli, təbiətin füsunkar qoynunda yerləşir. Xocalı tarixi etnoqrafik əlamətləri ilə Qarabağda xüsusilə seçilirdi. Torpağı əkinə o qədər yararlı idi ki, ildə iki dəfə məhsul verirdi. Xocalı əsrlər boyu ermənilərə göz dağı olub. Bu tarixi adı Yer üzündən silmək üçün oranı dəfələrlə yandırıb, talan-qarət etmişdilər. Xocalı böyüyürdü. Bu böyüklüyün içərisində böyük bir Xocalı dərdi də böyüyürdü.

Döyüşdü, vuruşdu, düşmənə bac vermədi xocalılar. Təkləndik, qırğınlara düçar olduq, mərdanə, qalibanə tərk etdik ulu yurd yerimizi. Ballıca (keçmişdə Ballıca Xan Şuşinskinin babasının mülkü olub — *Q.Q.*) Noraguğ (Metistəpə), Badara (Sağsağan Kar), Meh-



Azərbaycan Milli Kitabxanası

dikənd, Naxçıvanik (Xocalı qırğını əsasən bu kəndin ərazisində olmuşdu — *Q.Q.*) və Əsgəran ilə həmsərhəd idi.



Ağdam-Laçın şose yolu da Xocalının içindən keçib gedirdi. Başqa bir şose yol isə Gəncə-Qala yolu idi ki, onu da ermənilər hərbi yol çəkmək adı altında hələ sovetlərin vaxtından bağlamışdılar. Həmin yolun çəkilişi zamanı Xocalının ən qədim Kurqan qəbiristanlığı dağıdılıb yerlə-yeksan edilmişdi. Son hadisələr zamanı mə'lum olmuşdur ki, ermənilər bu yol ilə Yuxarı Qarabağa silah, hərbi sursat daşıyırmışlar.

1990-cı ildə Azərbaycan hökuməti Xocalını qorumaq əvəzinə geniş miqyaslı tikinti işləri aparır, Azərbaycanın strateji əhəmiyyətli məhsullarını ermənilər üçün daşıyıb gətirirdi. Xocalının müdafiəsi isə tamamilə unudulmuş, xalq taleyin ümidinə buraxılmışdı.

26 fevral 1992-ci ildə Xocalının dinc, əli silahsız sakinləri təpədən-dırnağa qədər silahlanmış 366-cı motoatıcı rus alayı və erməni hərbi birləşmələri tərəfindən kütləvi qırğına mə'ruz qaldı, əhali kütləvi şəkildə güllələndi, şəhərin özü isə yandırılaraq məhv edildi.





## *Mə'lumat*

Xocalının ilhaqına bir neçə ay qalmış Xocalı rayon İH-nin başçısı Elman Məmmədovun, rayon prokuroru Atakişi Atakişiyevin "yuxarılara" vurduqları teleqramlar, etdikləri saysız-hesabsız müraciətlər cavabsız qaldı, yalançı, aldadıcı və'dlər verildi, əhali müsibətə düçar oldu.

Soyqırımı zamanı respublikanın bütün mətbuat orqanları ağzına su almışdı. Haray salıb, səs qaldıran, faciəni bütün dünyaya çatdıran "Qarabağ" və "Səhər" qəzetləri oldu. Soyqırımı haqqında mə'lumat və informasiyaların yasaq olduğu vaxt, "Qarabağ" qəzeti 5 mart 1992-ci il tarixdə "Əsrin faciəsi", "Xocalı soyqırımı" adlı yazı ilə çıxış etdi.

Fəhmin Hacıyevin məhkəmə salonundan (6.06.1996-cı il).

*Müttəhim Fəhmin Hacıyev:*

— Xocalı faciəsi zamanı elə zabitlər var idi ki, tə'yinat yerinə getməyiblər. Bizə Xocalını qorumaq tapşırığını verməmişdilər. Balasanyan Vladik Mixayloviç Əsgəran rayon Xalq Cəbhəsinin sədri idi. O, xocalılarla çox qəddar hərəkət etmişdi.

1992-ci il yanvar ayının 22-də Ağdama gəlmişəm. Yollar kəsildiyindən geriyə qayıda bilməmişəm. Gəncəyə gəlmişik ki, vertolyotla gedək. Saat 11 radələrində dedilər ki, vertolyot olmayacaq. Qayıdıb Ağdama gəldik.

*Mustafayev Əli — (şahid):*

— Nə Tamerlan Qarayevi, nə də Fəhmin Hacıyevi həmin vaxt Gəncədə görməmişəm. Gəncə şəhər polisinin rəisi Eldar Həsənovun köməkliyi ilə vertolyotla Xocalıya uçduq. Yerə enə bilməyib, yenə də Ağdama qayıtdıq.

*Hakim Qüdrət Paşayev:*

— Xocalını müdafiə etmək mümkün idimi?

*Fəhmin Hacıyev:* — Əsgəranı götürmək lazım idi ki, Xocalı müdafiə olunsun. Ailələr çıxarılsaydı olardı. "Qrad" hara atılırdı bilinmirdi.

*Osman Kazımov (vəkil):* — Şirin Mirzəyevin batalyonunda dedilər ki, Xocalıya gedəsi olmadıq?

*Əli Mustafayev:* — Əksinə, 11 yaşlı Vüqar (Xocalı sakini — *Q.Q.*) dedi ki, Xocalıya mən də gedəcəyəm.

*Fəhmin Hacıyev:* — Getməyəcəyik deyən kim idi?

*Əli Mustafayev:* — Bilmirəm.

*Fəhmin Hacıyev:* — Avtobus sizi hara gətirdi?

— Ağdamın aeroportuna.

*Vəkil:* — Ş.Mirzəyevin batalyonundan kim gəlib xocalıları apardı?

— Yadımda deyil.

*Hakim Hicran Hüseynova müraciət edir:*

— Elman Məmmədov sizə zəng edib deyib ki, hökumətdən heç bir kömək yoxdur? Kömək edin!

*Hicran Hüseynov (Televiziyanın diktoru):* — 1992-ci il fevral ayının 24-ü idi. Zəng çalındı, cavab verdim. Xocalı İcra Hakimiyyətinin başçısının köməkçisi idi. Dəstəyi Elman müəllimə verdi. Elman müəllim dedi ki, respublika rəhbərlərindən heç kimi tapa



bilmirəm. Axşam saat 9-a işləmişdi. Dedi ki, bizim 3 sutkalıq sursatımız qalıb. İmkanın varsa bizə kömək et. Fikrimi respublika rəhbərliyinə çatdır.

Dedim ki, çalışaram. Onda sədr Məmməd Murad idi. Onun müavini Rəhim Əliyevin yanına getdim. Vəziyyəti həyəcanlı şəkildə ona çatdırdım. Qəzəblə mənə dedi ki, get öz işinlə məşğul ol. Telefonoqrammanı stolumun siyirməsinə qoyub evə getdim. Səhər gəlib gördüm ki, telefonoqramma siyirmədə yoxdur.

*Hakim:* — Telefonoqrammanı kim götürə bilərdi?

*H.Hüseynov:* — Otaqda baş redaktor qaldı. Təbii ki, xüsusi tapşırıqla o götürmüşdü.

*Vəkil:* — Fəhmin Ağdamdan gəlib o telefonoqrammanı götürə bilərdimi?

*H.Hüseynov:* — Bu suala ancaq gülmək olar. Fəhmin götürə bilməzdi, ancaq onu oraya göndərənlərin əlaltıları götürərdi. Həmin gün Xocalı əhvalatını və telefonoqrammanın itməsini televiziyanın bütün əməkdaşlarına çatdırdım.

*İsgəndər Həmidov (şahid):* — Xocalı genosidinin birbaşa günahkarları Qorbaçov, 366-cı rus moto-atıcı alayı, erməni qəsbkarları və respublikanın siyasi rəhbərləri idilər. Silahları yığıb yerli əhalini qəsbkar ermənilərin qarşısında əliyalın qoydular. O zaman AXC siyasi bir qurum idi. O, heç nə edə bilməzdi.

Budeykinin əmri olmadan 366-cı alay Xocalıya girməzdi. Azərbaycan MDB-yə girsəydi də, bu hadisə olasıydı.

*Hakim:* — Xocalı işğal olunmaya bilərdimi?

*Şahin Cahangirov (şahid):* — Əgər MDB məsələsi düzgün həll edilsəydi, rus qoşunları tə'cili Azərbaycanın ərazisindən çıxarılmasaydı, olardı.

*İlham Zahidoğlu (Xocalı sakini):* — Üç nəfərlə Xocalıya piyada gecə patron aparmışıq. Fikirləşirdik ki, bu qırğının qarşısını ala biləcəyik.

*Musa Məmmədov (Qarabağ üzrə prezidentin səlahiyyətli nümayəndəsi):* — Mən Budeykinlə tək olmamışam. Ağdamın Qərvənd kəndində camaat rus tanklarının qabağını kəsməli idi. Bu mümkün olmadı. Xocalının vəziyyətinin ağır olmasını Elman Məmmədov və Atakişi Atakişiyev tez-tez bizə çatdırırdı. Mənim ixtiyarımda nə qoşun var idi, nə də hərbi sursat. Mənə sırf təsərrüfat işləri tapşırılmışdı. Buna baxmayaraq döyüşün qaynar nöqtələrində olur, əhaliyə hərtərəfli köməklik göstərirdim.



Azərbaycan Milli Kitabxanası

Xocalıdan alınan mə'lumatları DİN-ə, MTN-ə, Prezident Aparatına müntəzəm çatdırırdım. Həyəcanlı vəziyyət barədə 25 fevral 1992-ci ildə Nazirlər Sovetinə demişəm. Qırğının qarşısını almaq mümkün deyildi. Təsərrüfat işləri istisna olunmaqla mənə əsaslı heç bir səlahiyyət verilməmişdi. Döyüşkən qüvvələr pərakəndə halda idi. Respublika rəhbərliyi məni aldadaraq zərbə altında qoymuşdu.

*Tahir Əliyev:* — Xocalı dövlət səviyyəsində qorunmalı idi. Vaxt gələcək hər bir kəs layiqli cəzasını və qiymətini alacaq. Xocalı qırğınının qarşısını alan vahid döyüşkən qüvvə lazım idi. Biz öz qeyrətimizə sığınıb vuruşurduq. Torpaqlarımızı qaytarandan sonra danışacağam. İndi vaxtı deyil.

*Respublika Milli Təhlükəsizlik Nazirliyinin Qarabağ idarəsinin sabiq rəisi Tofiq Babayevin Fəhmin Hacıyevin məhkəmə prosesində şahid kimi dindirilərkən təqdim edib verdiyi ifadənin stenoqramı*

## Справка

03 февраля с.г. поступили данные о том, что из с.Малыбейли прибыли в /служащие, покинувшие в/ч 39828 расположенную в г. Ханкенди, трое из которых погибли, а один пропал без вести.

После прибытия в гор. Агдам указанные в/служащие были приглашены в УМНБ Азерб. Республики по Карабаху. После чего, была организована их встреча с представителями СБСЕ и телевидения. Организовав по нашей инициативе с соответствующими представителями правоохранительных органов района они были отправлены в гор. Баку.

Со слов военнослужащих, их забросили в гор. Ханкенди 29 января с.г.вертолетами из Нахчывани, якобы для участия в сперации, планируемой в г. Ханкенди. По прибытии выяснилось, что целью их переброски является комплектование дислоцированной в г.Ханкенди в/ч 39628. Военнослужащие прослужив в указанной части 4 дня, 02 февраля с.г. через лесной массив убежали в азербайджанский населенный пункт с. Малыбейли и отказались возвратиться в в/часть.



Из бесед с военнослужащими стало известно, что в в/ч.38828 всего имеется 15 автоматов и 3 БТР в неисправном состоянии, а остальное оружие и боеприпасы отданы местным властям. Продукты питания и ГСМ имеются в достаточном количестве.

05 февраля с.г. в г.Ходжалы прибыли военнослужащие из в/ч18920 г.Ханкенди, которые сообщили, что в в/ч около 40 офицеров и прапорщиков являются лицами армянской национальности.

Из указанной части регулярно забираются БМП, которые боевиками используются против жителей азербайджанских населенных пунктов. Ответственному офицеру /подполковник, по национальности — русский/ за один БТР взятый в аренду на сутки платят 2000 рублей. По имеющимся у военнослужащих данным, в ближайщее время армянские боевики намериваются используя технику и живую силу указанной в/части, захватить аэропорт Ходжалы, о чем указанные военнослужащие выступили по азербайджанскому телевидению и на пресс-конференции в гор. Баку, а также в постоянном представительстве Азербайджанской Республики в гор. Москве.

Ст. о/уполномоченный УМНБ
Азерб. Республики по Карабаху

подполковник С.Бахтияров

" " февраля 1992 года



Azərbaycan Milli Kitabxanası

**Справка**
**о намерениях армянских боевиков по отношению г. Ходжалы**

по полученным данным заместитель командующего ЗакВО генерал-майор Греков имеет тесные контакты с Тамосяном Аркадием. Грекову, якобы, известны все планы армянских боевиков.

После захвата села Малыбейли Шушинского района, боевики планируют захватить Ходжалинский аэропорт, а затем и сам город. Указанные акции будут осуществлены до 16 февраля сего года.

По словам командира Гянджинской десантной дивизии полковника Щербака, при наличии команды он без потерь сможет вывезти из Ханкенди дислоцированный там МСП.

Передана в отдел "Т" 3-го Управления
13.02.92 г. в 1 час. 00 мин.
о/у. Саилов Ш.Э.

Секретно зкз.I

**Справка**
**об обстановке в гор. Ходжалы**

12 и 13 февраля с.г. со стороны армянских населенных пунктов Норагюх и Мехтикенд из БМП подвергся обстрелу г.Ходжалы, в результате которого получили ранение двое жителей и разрушено несколько помещений. Наблюдается передвижение военной техники (4 БМП, БТР и др.) со стороны Ханкенди в направлении Дашбулаг-Норагюх-Аскеран.

13 февраля вертолетами вывезено более 200 жителей г.Ходжалы в гор. Гянджа /в основном старики, женщины, дети и больные/. Кроме того, в настоящее время около 400 человек ожидают вылета в аэропорту.

В настоящее время в городе остались около 3 тысяч местного населения.



В городе имеются следующие силы и средства:
— Местный батальон из 80 человек
— Военнослужащие нац. армии — 20 человек
— Сотрудники местной милиции — 60 человек
— т.ч. задействованные в охране аэропорта,
— Автоматическое оружие — 200—250 единиц
— БРДМ - I (снарядов нет)
— Установки "АЛАЗАНЬ"-2
— Артиллерийская пушка (калибр. 102 мм.) — I /снаряды на исходе/
— АГС-17 — I шт.
— Подствольник — 4 (ПГ-25)

Более 2-х месяцев в городе нет электричества. Ощущается острая нехватка военной техники, гранатометов и противотанковых гранат.

ПРИНЯЛ: 2 отделение отдела "Т" 3 Управления
Азерб. Республики
ст. лейтенант Алекперов И.

ПЕРЕДАЛ: о/уполномоченный УМНБ по Карабаху
капитан А.Аскеров

**Сведения**
**о силах армянских бандформирований сосредоточенных вокруг гор.Ходжалы.**

I. Со стороны аэропорта Ходжалы

— В животноводческом комплексе вблизи с. Дашбулаг Аскеранского района имеются БТР-2 шт., БМП-I шт., 25 человек с автоматическим оружием;

Во время перестрелки на помощь приезжают на автобусе "УРАЛ" около 40—50 человек с автоматами.

— Вблизи села Мехтикенд Аскеранского района имеются ракетная установка "АЛАЗАНЬ"-I шт., БТР-2 шт., 40 человек с автоматами.

Во время перестрелки на помощь боевикам приходят около 60 человек с автоматами.



Azərbaycan Milli Kitabxanası

2. Со стороны с. Баллыджа Аскеранского района (около животноводческой фермы Чухурлу) имеется пост-30 боевиков с автоматами, БТР-І шт., танк

3. В с.Гасанабад имеются 2 поста около 40 человек с автоматическим оружием (первый пост на шоссейной дороге Гасанабад-магистраль, второй пост вблизи яблоневого сада около кладбища; также на вооружении боевиков имеются крупнокалиберный пулемет — І шт., зенитная установка — І шт., БТР

4. В с. Пирамаки имеются 2 поста — 30 человек с автоматами, БТР — І шт.,

5. В.с.Норагюх имеются огнемет — І шт., миномет — 1—2 шт., ракетная установка "АЛАЗАНЬ" — 2 шт., БТР — 1—2 шт., около 200 человек с автоматами СВД и пулеметами.

6. Б.Мирзоджане со стороны Аскеран-около 40 автоматчиков, БМП — 2 шт.,

Наиболее уязвимым участком является аэропорт "Ходжалы", который охраняется силами всего двух сотрудников милиции.

І-экз. сведении 1703. 92 г. передано руководству штаба МО тсв. Гаджиеву Ф.

## Сведения
### о возможных путях массового вывода населения г.Ходжалы

1. Из г.Ходжалы можно пройти пешком по газопроводу до армянского села Кятук. Ниже указанного села и с.Нахчываник Аскеранского района имеется возможность дойти до азербайджанского села Шелли агдамского района. (Расстояние около 20 км.)

2. Из г.Ходжалы через поле т.н. Сергали с правой стороны свиноводческой фермы Сунджинка, с левой стороны Нового Норагюха, слева от кормзавода, переходя речку Илис вблизи высокого орехового дерева можно дойти до имеющегося там сада (тутовые деревья). После разведки ниже дачного хозяйства и зимнего пастбища слева от армянского села Сардарашен и Фаррух можно дойти до села Алиагалы (Хачын) Агдамского района. 16



февраля с.г. по указанной тропинке в Агдамской район прибыли жители г.Ходжалы Оруджев Гасан и Мусаев Имамверди, которые перегнали свой скот (8 коров-2 лошади). На наше предложение житель г.Ходжалы Мусаев Мисир Иса оглы согласился быть проводником, в настоящее время проживающий в с. Сейдли Агдамского района. (Расстояние примерно 40 км.) По обоим дорогам можно пройти только пешком, при поддержке вооруженных групп и БТР со стороны Агдамского района. Имеется возможность по этой дороге перебраться в г.Ходжалы танками, однако необходимо при этом отработать варианты по отвлечении внимания противника из указанной зоны.

Дежурный УМНБ Азерб. Республики
по Карабаху С.Б.Бахтияров

Копия сведений 17.02.92 г. передана руководителю штаба МО т. Гаджиеву Ф., І.03.92 г. был представлен Мусаев М., который согласился быть проводником.

## Сводка
### на 15 февраля 1992 года

15 февраля сего года в 10 час. 30 мин. на центральной плащади гор. Агдама состоялся митинг, на котором присутствовало около 2 тыс. человек, преимущественио беженцы из азербайджанских населенных пунктов Карабаха. Митинг прошел неорганизованно.

Выступающие требовали немедленно создать чрезвычайный штаб из числа беженцев для оказания срочной помощи находящимся в осадном положении азербайджанским населенным пунктам: Ходжалы, Гарадаглы, Сырхавенд и организовать в этих целях отряды самообороны своими силами. Прозвучали призывы насильственного захвата УВД, где якобы имеется более 2 тыс. единиц автоматического оружия, для вооружения добровольцев.

Один из выступающих, обвиняя во всем руководство республики, в частности Президента заявил, что на его



Azərbaycan Milli Kitabxanası

пост необходимо в срочном порядке избрать Г.Алиева, только он в силе спасти народ.

**Сводка**

18.02.92 г. армянскими боевиками из тяжелых орудий и ракет типа "Алазань" обстреливались населенные пункы Кубатлинского района. В результате обстрела погибли двое местных жителей, а трое получили тяжелые ранения. В обстреле предполагают, что принимают участие военнослужащие 7-ой Армии. Вызывает подозрение тот факт, что где есть посты 4 Армии обстрелы не осуществляются.

Помимо указанного, напротив поселка Гайгы скопилось до 1700 боевиков и примерно 100 единиц бронетехники.

В этот же день, в результате перестрелки на территории Геранбойского района погиб один азербайджанец и 10 ранено, а с армянской стороны убит один боевик и четверо ранено.

19.02.92 г. с 9-ти часов со стороны Топханы армянскими боевикамии из гаубицы массированно обстреливается г. Шуша, имеются разрушения.

Из г. Ходжалы поступили данные о том, что аэропорт обороняется силами 18-ти сотрудников милиции, что крайне недостаточно, просят помощи.

По поступившим данным 18.02.92. г. в с.Колатаг доставлена одна установка "Алазань" и в указанном селе из г.Ханкенди на 4-х вертолетах доставлен груз и живая сила. После чего вертолеты улетели в сторону Атек.

Кроме того, армянскими боевиками в этот же день обстреливалось с Сырхавенд. Жители указанного села нуждаются в помощи.

20 февраля с.г. спец. рейсом планируется приезд военно-воздушного атташе Франции Грел Алэна в Карабах, где он намерен пробыть 5 дней. Цель приезда-сопровождение делегации гос. секретаря по гуманитарным акциям Вернара Кушера.

Оперативный дежурный УМНБ Азерб. Республики
по Карабаху С.Бахтияров



**Телефонограмма**
по ОС в штаб МНБ Азерб. Республики

19.02.92 г. с 9-00 часов до 19-20 часов Шуша подверглась массированному обстрелу из пушек и бронетехники со стороны с.Шушикенд и г.Ханкенди. В результате в 16-00 погиб ст. лейтенант Алекперов Рауф-начальник смены ВЧ связи, имеются многочисленные разрушения, ранены 4 человека.

19.02.92 г. в 17-00 часов г. Ходжалы подвергался массированному обстрелу со всех сторон из БМП, крупнокалиберных пулеметов и автоматов. Обстрел продолжался до 21-00. В результате тяжело ранены осколками снарядов БМП двое местных жителей, которых необходимо вывезти из города вертолетом.

По поступившим из г. Ханкенди данным, армянские боевики неоднократно превосходят нас во всех отношениях численностью вооруженных лиц, бронетехникой и других видов оружия. Город Ходжалы окружен со всех сторон армянскими населенными пунктами Ханкенди, Гасанабад, Мехтикенд, Дашбулаг, Норагюх, Аскеран, Кятух, Нахчываник и др.

В связи с обострением обстановки в г. Ходжалы находящиеся люди в гор. Агдаме стали требовать от руководства военный вертолет для доставки их в гор. Ходжалы. Они обвинили руководство в том, что в течении более чем 10 дней их обманывают в выделении им I вертолета для доставки в гор. Ходжалы боеприпасов и помощи. Некоторые из вооруженных лиц открывали огонь в воздух в знак протеста. После вмешательства сотрудника МНБ обслуживающего г. Ходжалы удалось предотвратить столкновение и локализовать обстановку.

Дежурный по УМБ Азерб. Республика
по Карабаху С.Бахтияров



Azərbaycan Milli Kitabxanası

## *Gündəlikdən sətirlər*

Prezidentə, Ali Sovetə, Nazirlər Sovetinə, AXC-yə vurulan saysız-hesabsız teleqramlar cavabsız qalır. Bakıya kimə zəng vurursansa, deyir ki, qardaş, zəhmət çəkmə, böyüklər ciblərini açıb bərk pul yığırlar. Qarabağ yadlarına belə düşmür.

***

Televiziya susur. Qarabağın, əsasən Xocalının ağrılı günlərindən ictimaiyyətə mə'lumatlar verilmir. Toylarda yeyib-içib, "Qarabağ bizimdir" mahnısını elə şirin avazla oxuyurlar ki... Üstündə dayça şəkli olan "Qarabağ" siqaretlərinin biri 5 rubldan səngərlərdə şıdırığı döyüşçülərə satılır. Xocalı vuruşur, özünü, torpağını müdafiə edir, başqa yerlərdə isə camaat öz kefindədir. Xocalı arxasız, köməksiz, kimsəsizdir.

*12 fevral 1992-ci il*

***

Azərbaycan hökuməti Qarabağı Moskvaya satıb. Rus hərbiçiləri köməksiz, silahsız dinc əhalini güllləbaran edir. Televiziya, MK-nın yeni qərarlarını, Prezidentin görüşlərini göstərir, Xocalıda isə mühasirə halqası get-gedə daralır.

*13 fevral 1992-ci il*

***

İH-nin başçısı Elman Məmmədovun və batalyon komandiri Tofiq Hüseynovun birgə keçirdikləri məsləhətləşmə:

— Müdafiə dəstələrinin tərkibinə nizam-intizama tabe olmayanların daxil olmasına yol verməmək.

— Əlaqələr bütövlükdə bərpa olunsun.

— Ərzaq, hərbi sursat məsələləri müəyyənləşdirilib tədbirlər görülsün.

— Dinc əhalinin təhlükəsizliyini tə'min etmək üçün ərazini döyüşən dəstələr arasında bölüşdürüb, istehkam qurğularını təkmilləşdirmək...

*14 fevral 1992-ci il*



***

Sokolov (batalyon komandiri, Stepanakert): — Майор Акопов в другой боевой машине, прапорщик-сын армянина воюет против нас. Они блокируют дорогу Агдам-Шуша.

Красная армия регулярно обстреливает Ходжалы. Савин обещал, что армию снимем. 4-ая армия воюет опять же против нас. Красная армия пополняется армянскими националистами.

***

Stepanakertdə yerləşən rus alayının hərbi sursatının hamısını ermənilərə verib getmək ehtimalı vardır. Tank ekipajının komandiri Oqanovdur. Naxçıvan hərbi hissəsi (Rusiyanındır) ordu və diviziya mərkəzləşdirilmişdir. Bir diviziya Ermənistanda, biri isə Azərbaycandadır. 75/5 nisbətindədir.

Daxili işlər qoşunu — Don diviziyası asayişi qoruyur, o biri rus polku isə azərbaycanlılar yaşayan kəndləri yandırıb, talan edir. Bu sahədə əsas rolu 4-cü polk oynayır. Kapitan Arutyunyan və Oqanyan liderlik edirlər.

Zori Balayan Stepanakert televiziyası ilə yana-yana blokadadan danışır: "Голодные, холодные, разве с таким народом мы проиграем? Конечно нет! Пятый год уже мы чувствуем свободу слава богу..."

*15.02.1992-ci il*

"Frans Press" agentliyinin əməkdaşı Anatoliy Soprunnikovun dediklərindən: — Ermənilər hər şeyi bacarırlar. Bizə qayğı göstərib tutduqları bütün bəd əməlləri sizin üstünüzə yıxırlar. Siz isə olan şeyi də sübut edə bilmirsiniz. Bu sizin faciənizdir.

Münaqişələri dərinləşdirən xətlər Moskvadan və Bakıdan gəlir. Bizim televiziyamız ermənilərə mə'lumatların, sirlərin çatdırılmasında xəfiyyə rolunu oynayır. Bakıya kömək üçün müraciət etmək ağılsızlıqdır.



Azərbaycan Milli Kitabxanası

***

AXC-nin qərargahında azsaylı xalqların konfransında iştirakçılara müraciətim: — "Azadlıq" qəzeti ikili mövqedən çıxış edir. Milli şurada olan cəbhəçilər məkrli və ikiüzlü siyasət yürüdürlər. Qarabağı sahibsiz buraxıb konfrans keçirməyin heç bir mə'nası yoxdur...

Respublika rəhbərliyi Qarabağı və qarabağlıları taleyin ümidinə buraxıblar. Kim öz yaxınının meyidini tapırdısa, dəfn etmək üçün maşın axtarır, kömək arayırdı. Dövlət rəhbərləri adi bir başsağlığı da verməyə rəva bilmədilər. 3 marta qədər ermənilərdən 241 meyid alınıbdır. Xocalının ətürpərdici qırğınını görən Az.TV-nin müxbiri Nadejda İsmayılovanın ürəyi getdi. Don vurmuşların çoxu Ağdam tərəfdə çöllərdə qalıbdır. Kömək edən qüvvələr tapılmır. Səlahiyyətli bir nəfər də olsun adam nəzərə çarpmır.

Qırğın zamanı 366-cı alayın tərkibində 46 erməni hərbi qulluqçusu olmuşdu. Rusiyanın "Novosti" proqramı Yuqoslaviyada 3 yaşlı qızın öldürülməsindən göz yaşı tökə-tökə danışır, Xocalı qırğınından isə bir kəlmə də danışmır. Xocalı böyük oyunun böyük qurbanı oldu. Tarix bu xəyanəti heç bir zaman bağışlamayacaq.

***

Из хроники НКАО. Февраль (1988—1990)

— 18 сентября произошло нападение лиц армянской национальности (3—5 тысяч человек) участвовавших на митинге в г. Степанакерте, на азербайджанское село Ходжалы. В завязавшейся перестрелке несколько человек были ранены, один погиб.

— В октябре 1988 года в г. Ходжалы было начато строительство 42 домов для азербайджанцев, дома которых были сожжены в Степанакерте. Одновременно возведены два модуля — где должны были разместиться ткацкое и швейное производство. Рабочие места создавались для азербайджанцев, изгнанных с Каршелкомбината. В ответ на это в середине ноября в местечке Топхана близ Шуши Конаккентским алюминиевым заводом было начато строительство цеха.

— Было зафиксировано несколько фактов забрасывания камнями азербайджанских машин и избиения их водителей, в связи с чем движение всего автотранспорта по маршруту Мардакерт-Агдам-Степанакерт-Шуша было



прекращено. В ответ на это жители азербайджанского поселка Ходжалы также заблокировали дорогу на Степанакерт камнями, было разбито несколько армянских машин.

— Утром 2 июля дороги населенных пунктов Аскеран, Ходжалы, Степанакерт вновь были перегорожены камнями и заблокированы булыжниками проходяшие машины.

***

19 fevral 1992-ci ildə Rusiya prezidenti Boris Yeltsinin rus qoşunlarının baş komandanı Şapoşnikov və Ermənistan prezidenti Levon Ter-Petrosyanla Moskvada məxfi görüşü keçirilir. Elə həmin görüşdə "Xocalı soyqırımı"nın ssenarisi hazırlanır. Bundan sonra Stepanakertdə 366-cı alayın zabitlərinə Amerika dolları paylanır. Xocalının işğalı üçün 10 milyon rus pulu, Ağdamın zəbtinə isə 15 milyon rus pulu ayrılır.

***

### Ağdam. Əsrin faciəsi, Xocalı soyqırımı

Qasım Qırxqızlı, Çingiz Tofiqoğlu, Əli Mahmud, Salman Alıoğlu "Qarabağ" qəzetinin əməkdaşları yazırlar:

— Xocalı nəyin qurbanı oldu? Xocalının səkkiz min sakini illərlə haray çəkdi, prezidenti, baş naziri, müdafiə nazirlərini, bir də Azərbaycan xalqını köməyə çağırdı. Əvəzində ayrı-ayrı vəzifə sahiblərinin Qarabağa — Ağdama e'zamiyyətləri başladı. "Müdriklik" dərsləri keçilən salonlar doldu, boşaldı. Xocalı qeyrətsizlərin qurbanı oldu. ...Həmin gün Ağdama Prezident müvəkkilliyinin qərargahındakı ratsiyada Xocalı rayon İcra hakimiyyətinin başçısı Elman Məmmədovun kəsik-kəsik sözləri eşidilirdi. Qeydiyyat dəftərindən sətirlər: "Şəhər od tutub yanır. Kömək edin... "Gecə səhərədək soyqırım dayanmadı. Dan yeri təzəcə söküləndə, soyuqdan donmuş adamlar, yaralarının ağrısını unutmuş yaşlılar, dodaqları çat-çat olmuş, göyərmiş körpələr, yanaqları şırım-şırım edilmiş gəlinlər və qızlar meşələrə çıxırlar. Düşmən aman vermir. Əsirləri soyundurur, qarın üstündə xeyli ayaqyalın saxlayır, sonra tətiyi çəkirlər. Başsız yurdun sahibsiz yurddaşları. Allahdan da soraq yoxdur. Çovğun şiddətlənir, alov güclənir, qan gölləri donur. Ağ qarın üstündə qırmızı qan ləkələri...



Azərbaycan Milli Kitabxanası

**Bakı. Prezident Aparatı, 25—26 fevral. 1992-ci il.**

Qulbeçələr brifinq keçirir, xalqı təmkinə çağırır, siyasi yol üzərində baş sındırırlar. İranın xarici işlər naziri Vilayəti Bakıdadır. 26-sı prezidentlə görüşür. Xocalı faciəsi haqqında mə'lumat yayılmır. Fevralın 27-də dövlət qəzetləri yazırlar:

"Fevralın 26-na keçən gecə Xocalıya bir neçə istiqamətdən hücumlar edilib. Şəhərin müdafiəçiləri və milli ordu bölmələri düşmən basqınlarının qarşısını alır, onun saysız-hesabsız hücumlarını dəf edə bilirlər. Hazırda vəziyyət yenə gərgindir. Lüzumsuz itkilərin qarşısını almaq üçün əhalinin qismən köçürülməsi təşkil edilmişdir. Xocalının erməni birləşmələri tərəfindən tutulması haqqında vahiməli şayiələr həqiqətə uyğun deyil. Mühasirəyə alınmış şəhərin müdafiəsini möhkəmləndirmək üçün tədbirlər görülmüşdür..."

**Ağdam. Birləşmiş xəstəxana. Məscid meydanı... 27 fevral.**

Bütün rayon ayağa qalxıb. Özünümüdafiə dəstələri mühasirədən çıxıb. Ağdama pənah gətirən xocalıları düşmənin əlindən qoparmaq üçün döyüşə atılırlar. Meyidləri maşınlarla məscidə daşıyırlar...

**Bakı. 27 fevral. Dövlət qəzetləri.**

"Bir-birinə qarşı duran tərəflər Qarabağda, hərbi əməliyyatlar zonasında atəşi dayandırmaq haqqında razılığa gəliblər. Moratorium fevralın 27-si səhər saat 9-dan qüvvəyə minir, martın 1-də səhər saat 9-dan davam edəcəkdir".

***

**Bakı. 27 fevral. Dövlət qəzetlərinin son akkordları**

"Sizi birliyə çağırırıq! Ümumi düşmənə qarşı birləşək!" Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunun professor-müəllim hey'əti xalqa müraciət edir: "Azərbaycan xalqı demokratik yolla seçdiyi prezidentinə böyük ümidlər bəsləyir. Lakin müəyyən qruplar bu ağır vəziyyətdə daxildə nifaq salmağa çalışır və xalqı uçuruma yuvarlatmaq istəyirlər. Xalqı tə'tilə, qanuni seçilmiş prezidentin iste'fasına çağırmaq tələbləri ən azı xəyanətdir.

*"Səda" qəzeti, 11 aprel 1992-ci il.*



***

Çingiz Tofiqoğlu. Əli Mahmud. "Qarabağda talan var..." kitabından:

"Xocalı yerlə yeksan edilmişdir. Tarixdə misli görünməmiş soyqırımı törədilmişdir. Xocalıların son sözü belə olmuşdur:

— Azərbaycan sahibsizdir. Torpaqlarımızı verdiyimiz üçün qeyrətsizlik yükünün altındayıq".

Həm də Xocalı elə bir coğrafi ərazidə yerləşib ki, buradan Şuşaya 15 km, elə Ağdama da o qədər yoldur. Laçın, Kəlbəcər rayonlarına da Qarqar çayı boyunca bir neçə saata getmək olar.

***

366-cı motoatıcı alayının əsgəri Yuri Yakov: — "Bizə hər gün xristianlığı xatırladır, müsəlmanlara qarşı vuruşmağa borclu olduğumuzu aşılayırdılar".

*Z.Sultanov. "Xocalı faciəsi".*

***

"Ermənilər Xocalını götürüb Əsgəranı müdafiə etməli idilər. Çünki azərbaycanlılar oraya hücum edəcəklərini bilirdilər. Buna görə də onlar Moskvaya milyonlarla pul verməyi boyun olub, 366-cı alayı ala bilmiş və onun gücündən istifadə etmişdilər..."

*A.Xocalı, "Vətən ağrısı, torpaq yanğısı".*

***

**"14", "90" gizli çağırışdır.**

Mühasirə halqası daraldıqca Xocalıdan hər yana—yə'ni bizimkilərə "14", "90" gizli çağırışları ilə həyəcan dolu xəbərlər göndərilirdi: Bizi qırırlar, kömək edin! Bizi qırırlar, kömək edin!

***

**Xocalılar haqlı ittiham edirlər:**

— Əgər bizi qorumayacaqdılarsa, niyə başımızın altına balış qoyub arxayın salırdılar? Deyirdilər ki, qorxmayın, sizi qoruyuruq. Təşkil edib arvad-uşağı niyə çıxartmadılar?

— Xocalıya sonuncu vertolyot yanvarın 28-də gəlib. Bu xəbərdarlıq deyildimi böyüklərimizə?



Azərbaycan Milli Kitabxanası

— Həmin gün ermənilərin hücum edəcəyini bizim rəhbərlər bilirmiş, niyə tədbir görməyiblər?

*Nəsiman Yaqublu: "Xocalı qırğını".*

***

**Elman Məmmədov** — Xocalı rayon İcra Hakimiyyətinin başçısı:

— Rəsmi dairələrin xalqa zidd fəaliyyətini, onların heç bir ləyaqətə, məntiqə sığmayan milli mənafe mövqeyindən apardıqları təbliğatın ağır nəticələrini xocalılar heç vaxt unudan deyil. Bilirdik ki, Kərkicahan, Quşçular, Meşəli, Malıbəyli, Qaradağlı, Tuğ kəndlərinin sakinlərinin başına gətirilən faciələr Xocalını da gözləyir. Odur ki, heç olmazsa qadın-uşaq, qoca və yaralıları əvvəlcədən çıxartmaq olardı. 1991-ci ilin noyabrından yol bağlı idi. Xocalıya mülki vertolyot yanvarın 18-də uçdu. Axırıncı hərbi vertolyot fevralın 13-də gəlmişdi. Mən ratsiya ilə tez-tez Ağdama, Bakıya zəng vurub tələb edirdim ki, tə'cili olaraq bizə vertolyot göndərsinlər. Şəhərdə işıqlar və qaz çoxdan kəsilmişdi. Fevralın 23-də hər ailəyə bir-iki kiloqram un payladıq ki, camaat ac qalmasın. Fevralın 24-də Ağdama mə'lumat verə bildim ki, ermənilər Xocalıya hücumu tam hazırlayıblar. Camaatı çıxartmaq lazımdır, arvad-uşağı, şikəstləri. Heç olmazsa Xocalıya koridor açın...

Kömək olmadı.

Hələlik 500-dən artıq meyidimiz basdırılıb. Bu günə qədər də Xocalının özündəki və meşələrdəki cəsədlərimiz durur. Onları götürə bilmirik.

Bilənlər bilir ki, Xocalı yaraşıqlı şəhər olmuşdur. Oraya ilk dəfə 119 nəfər, hazırda isə 5 min qaçqın gəlmişdi. Başçılıq etdiyim əsgərlər şəhərdən axırıncı çıxanlardan oldu. Biz Əsgərana qədər döyüşə-döyüşə gəldik. Oradan isə səllimi qaçıb Ağdama gedən əhalinin ardınca düşdük. Qüvvəmiz tükənmişdi.

Qırılanlar yaman oldu...

Yüzlərlə uşaq həlak olub. 5 yaşlı uşağın qulağı kəsildikdən sonra 8 güllə vurublar... Qatillərin ürəyi soyumayıb uşağı vəhşicəsinə tapdalayıb keçiblər. 3 yaşlı uşağa güllə atıblar... Yaş yarımında uşağın başına neçə güllə atıblarsa, uşağın beyni anasının üzünə dağılıb. Neçə ana qucağında, kürəyində uşağı ilə birgə güllələnib...

Bizə heç nə təsəlli verə bilməz...

Bircə öz torpağımıza qayıdaq...



Qisası özümüz alarıq...

Moskva şəhəri,

Azərbaycanın daimi nümayəndəliyi, otaq 7, saat 11.

Mətbuat konfransından bir saat əvvəl.

***

"Крах..."

Крах 366-го бывшего гвардейского мотострелкового полка, численность по штату — 1880 чел. Численность реальная — 3500 чел.

Боевой техники — более 100 ед.

Место дислокации — г.Ханкенди.

Командир — полковник И.Зарвигоров.

40 офицеров и прапорщиков-армяне.

Е.Ахундова: "Ходжалы-хроника геноцида".

Баку-1993.

***

Карабах: Война до победного конца?

... Ради объективности надо сказать, что несмотря на категорические приказы командования Округа, некоторые военнослужащие 366-го МСП все же принимали участие на стороне карабахцев (jurnalistlər "Карабахцев, — deyəndə erməniləri nəzərdə tuturlar. — Q.Q.) в боевых действиях под Ходжалы в двадцатых числах февраля. По крайней мере зафиксировано два таких случая. А при эвакуации личного состава полка десантники на выбор проверили несколько военнослужащих и обнаружили у них большие суммы денег, в том числе в иностранной валюте.

Полковник
В.Гавриленко.
капитан 2 ранга
В.Урбан.
"Красная Звезда".
11 марта 1992 г.



Azərbaycan Milli Kitabxanası

***

Ходжалы.

... С осени 1991 года Ходжалы был практически блокирован армянскими вооруженными формированиями, а после вывода внутренних войск из Нагорного Карабаха установилась полная блокада, с января 1992 г. в Ходжалы не подавалась электроэнергия. Часть жителей покинула блокированный город, однако полной эвакуации мирного населения, несмотря на настойчивые просьбы главы исполнительной власти Ходжалы Э.Мамедова, организовано не было.

25 февраля 1992 г. начался штурм Ходжалы армянскими вооруженными формированиями.

Участники штурма.

... В штурме принимали участие подразделения Народной Освободительной Армии Арцаха при поддержке бронетехники-бронетранспортеров, боевых машин пехоты и танков.

Участие военнослужащих 366-го полка Советской Армии.

По утверждению практически всех беженцев из Ходжалы, в штурме города принимали участие военнослужашие 366-го полка, причем некоторые их них входили в город.

Ход штурма

Артиллерийский обстрел Ходжалы начался около 23 часов ночи 25 февраля. При этом прежде всего были уничтожены казарма, находившаяся в глубине жилого массива и форпосты обороны. Вступление пехотных отрядов в город происходило от часа ночи до 4 часов утра 26 февраля.

...Последний очаг сопротивления был подавлен к 7 часам утра.

...В результате обстрела города неустановленное число мирных жителей погибло на территории Ходжалы во время штурма.

"Свободный коридор" для выхода населения.

В Агдаме и Баку наблюдателями "Мемориала" было опрошено 60 человек, бежавших из Ходжалы во время штурма города. А лишь один человек из опрошенных



сообщил, что он знал о существовании "свободного коридора" (армянская сторона подтверждает, что "свободный коридор" был, начинался у восточной окраины города, проходил вдоль русла реки и шёл на северовосток, ведя в сторону Агдама и оставляя Аскеран слева). Ширина коридора составляла 100—200, а местами 300 м".

...Эти беженцы, идущие по "свободному коридору", по территории, примыкающей к Агдамскому району Азербайджана, были обстреляны, в результате много людей погибло.

Судьба жителей оставшихся в городе.

После того, как город был занят армянскими вооруженными формированиями, в нем оставалось около 300 мирных жителей, в том числе и 86 турок — месхетинцев.

...По сведениям, полученным с обеих сторон, к 28.03.92 г. азербайджанской стороне было передано свыше 700 пленных жителей, все они были изувечены. В настоящее время мало кто из них остался жив. Основную массу среди задержанных как в самом городе, так и по пути в Агдам, составляли женшины и дети.

Условия содержания пленных жителей и зашитников Ходжалы.

Начальник ИВС майор Хачатрян запретил беседовать с заключенными наедине даже в течение нескольких минут. Лишь благодаря случайности удалось провести одну такую беседу.

Участь имущества жителей Ходжалы.

Бежавщие жители из Ходжалы не имели возможности взять с собой даже самый необходимый минимум своего имущества. Жителям, уводимым из Ходжалы членами армянских вооруженных формирований, не предоставлялась возможность забрать с собой хотя бы часть имущества.

Наблюдатели "Мемориала" были свидетелями активного, ничем не сдерживаемого мородерства в захваченном городе. Оставленное имущество вывозилось жителями Степанакерта и близлежаших населенных пунктов. На воротах многих домов были написаны фамилии новых владельцев.



Azərbaycan Milli Kitabxanası

Реакция офицальных властей НКР на случай насилия над мирным населением.

...В беседах с наблюдателями "Мемориала" официальные должностные лица не отрицали, что при взятии Ходжалы могли иметь место зверства, так как среди членов армянских вооруженных отрядов есть озлобленные люди, чьи родственники были убиты азербайджанцами, а также лица с уголовным прошлым.

Оценка полученных сведений.

При осуществлении военной операции по захвату г.Ходжалы имели место массовые насилия над мирным населением этого города.

... Информация о наличии "свободного коридора" не была доведена до сведения основной массы жителей Ходжалы.

... Массовые убийства мирных жителей, находившихся в зоне "свободного коридора" и прилегающей территории, не могут быть оправданы никакими обстоятельствами.

В штурме Ходжалы принимали участие военнослужащие 366-го мотострелкового полка, принадлежащего войскам Содружества Независимых Государств.

Правозашитный центр "Мемориал" констатирует, что в ходе штурма г.Ходжалы действия армянских формирований НК по отношению к мирным жителям Ходжалы, находятся в грубом противоречии по следующим статьям всеобщей Деклорации прав Человека (принято Генеральной Ассамблеей ООН 10.12.48 г.):

Статьей 2., провозглащаюшей, что каждый человек должен обладать всеми правами и всеми свободами, провозглашенными в настоящей декларации, без какого-бы то не было различия, как то в отношении ...языка, религии, ...национального ...происхождения ...или иного положения...";

Статьей 3, признающей право каждого человека на жизнь, свободу и личную неприкосновенность;

Статьей 5, запрещающей жестокое, бесчеловечное или унижающее достоинство человека обращение;

Статьей 9, запрещающей произвольные аресты, задержания или изгнания;



Статьей 17, провозглашающей право каждого человека на владение имуществом и запрещающей произвольно лишать человека его имущества.

Грубейшим образом нарушена ДЕКЛАРАЦИЯ О ЗАЩИТЕ ЖЕНЩИН И ДЕТЕЙ В ЧРЕЗВЫЧАЙНЫХ ОБСТОЯТЕЛЬСТВАХ И В ПЕРИОД ВООРУЖЕННЫХ КОНФЛИКТОВ (ПРОВОЗГЛАШЕНА ГЕНЕРАЛЬНОЙ АССАМБЛЕЕЙ ООН 14.12.1974 г.).

"Трагедия, виновников которой невозможно оправдать".

Доклад московского правозащитного центра "Мемориал" о массовых нарушениях прав человека, связанных с занятием населенного пункта Ходжалы в ночь с 25 на 26 февраля 1992 г. армянскими вооруженными формированиями.

Баку – 1992

## Cavablı suallar



— Xocalı işğal olunmaya bilərdimi və yaxud Xocalı faciəsinin dərin kökləri haradadır?

**Elman Məmmədov**: — Xocalı rayon İH-nin başçısı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

— DQMV hadisələri, "Böyük Ermənistan" yaratmağın bünövrəsi çox qədim bir məsələdir. Ermənilər tarixən bu məsələni öz bildikləri kimi həll etmək üçün silaha əl atıb, külli miqdarda günahsız qanlar töküblər.

1967-ci ildə Stepanakertdə Ərşadla Ələmşahı ermənilər yandırdılar. Həmin dövrdə bu məsələni açıqlamaq istəsələr də nail ola bilmədilər. Bu proses isə M.S.Qorbaçov SSRİ MK-nın Baş katibi vəzifəsinə keçdikdən sonra yavaş-yavaş inkişaf etməyə başladı. Onlar hər yerdə gizli yığıncaqlar keçirir, təşkilatlanır, vəsait toplayıb hazırlıq aparırdılar. 1987-ci ilin ortalarında bu proses aktivləşdi. Azərbaycana qarşı münasibət pisləşdi. Bu əməllər haqqında biz respublika rəhbərliyinə müntəzəm mə'lumat çatdırırdıq. Ancaq



Azərbaycan Milli Kitabxanası

heç bir tədbir görülmür, bizi səbrli, təmkinli olmağa səsləyirdilər. Bu məsələlər ilə əlaqədar olaraq məni Murad Şükürovla Ağdam rayon DTK-a çağırdılar. Bizimlə söhbət aparan əməkdaşın da fərsiz respublika rəhbərlərinin mövqeyini müdafiə etdiyini anladıq.

O dedi ki, siz gedib öz işinizlə məşğul olun. Azərbaycan çoxmillətli respublikadır. Bu haqda isə danışmağa sizə heç kim səlahiyyət vermir. Torpaq uğrunda mübarizəmizin belə boğulması bizi ağrıdırdı. Biz ermənilərin bütün hərəkətlərini izləyir, bütün orqanlara mə'lumatlar çatdırırdıq. Bu məsələdə Murad Şükürov, Eldəniz Allahverdiyev, Rafiq Mürsəlov, rəhmətlik Şövlət Həsənov, Ələmdar Quluzadə, Stepanakert sakini Bəhmən Əhmədov, Oleq Əliyev və bir çoxları əvəzsiz işlər görürdülər. Bizim informasiyalarımız cavabsız qalır, ermənilər isə güclü şəkildə təşkilatlanırdılar. Lazım idi ki, biz də o səviyyədə işlər aparaq.

1988-ci il fevral ayının 12-də səhər saat 10-da bizi Əsgərana fəallar yığıncağına də'vət etmişdilər. Yığıncaqda Azərbaycan MK-nın katibi Konovalovun, şö'bə müdiri Məhəmməd Əsədovun ciddi sə'ylərinə baxmayaraq, ermənilər Ermənistana birləşmək iddiaları ilə ciddi şəkildə çıxışlar edirdilər. Həyətdə isə izdihamlı mitinq gedirdi. Bu, Azərbaycan hökumətinin seyrçi mövqeyinin ilk işartıları idi.

Oradan çox çətinliklə çıxıb Xocalıya gəldik. Ağsaqqalları və ziyalıları tə'cili idarəyə yığıb vəziyyəti olduğu kimi danışdım. Həmin gündən Xocalının və ətraf kəndlərin müdafiəsi üçün tədbirlər görməyə başladıq. Beş nəfərdən ibarət Müdafiə Komitəsi yaratdım. Sədr mən, üzvləri Yavər Əzimov, Ələsgər Novruzov, Murad Şükürov və Eldəniz Allahverdiyev idi. Komitə gizli şəkildə fəaliyyət göstərirdi. Bundan başqa Yamən Həsənov, Rövşən Həsənov, Felmar Rzayev, Firidun Əliyev, Əliyar Usubov, Xəqani Səlimov, Füzuli Rüstəmov və başqalarından ibarət xüsusi dəstə düzəldib müdafiə postları yaratdıq.

Bizim 26 ədəd ov tüfəngimiz var idi. Tüfəngləri yığdıqlarına görə əlimizdə olanlarını gizli saxlayırdıq. Həmin andan Bakıya, Moskvaya saysız-hesabsız teleqramlar vurur, müraciətlər edirdik. Nəticəsi isə olmurdu ki, olmurdu.

1988-ci il fevral ayının 12-də Ağdamdan Stepanakertə kütləvi yürüş başlandı. Əli və Bəxtiyar öldürüldü. Sonra Sumqayıt hadisələri baş verdi. Stepanakertdə onlara abidə ucaltdılar. Elə bil ki, bunların hamısı bir nəfərin diktəsi ilə həyata keçirilirdi. Artıq Azərbaycanın qanunları DQ-da işləmirdi. Stepanakert və Xocalı artıq



dünyanın diqqət mərkəzində idi. DQ-a nümayəndə hey'ətləri axışıb gəlməyə başladılar. Hamısı da ermənilərin mövqeyindən çıxış edirdilər. Onlar üzdə bizimlə razılaşsalar da, sonradan mətbuatda onun əksinə çıxışlar edirdilər.

Moskvanın hökumət dairələrini hörümçək toru kimi mühasirəyə alan erməni lobbisinin bu sahədə xidmətləri danılmazdır. Sahibsiz azərbaycanlıların vəziyyəti get-gedə ağırlaşırdı. Stepanakertdə yaşayan azərbaycanlılar çörəkdən və sudan məhrum edilmişdilər. Ağdam ağsaqqallarından Sadıq Murtuzayev, Zeynal Məmmədov, Nadir İsmayılov, Rəşid Məmmədov, Səyyab Verdiyev və Xuraman Abbasovanın köməkliyi ilə onlara ərzaq və su çatdırılırdı.

Artıq yollarda "Daş müharibəsi" başlamışdı. Bu müharibə əsasən Stepanakert-Xocalı-Əsgəran arasında gedirdi. Xocalı ermənilərin heç bir hərəkətini cavabsız qoymurdu. Azərbaycanlı girovların çoxu xocalıların tutduqları erməni girovlarının hesabına azad olunurdular. Artıq Ermənistandan azərbaycanlıların köçü başlanmışdı. Xocalıda 130 ailəni məskunlaşdırmışdıq. Həmin ailələrin iqtisadi tə'minatını Ağdam öz üzərinə götürmüşdü. Buna görə əvəzsiz xidmətləri olan Zeynal Məmmədovu hüquq mühafizə işçiləri xeyli incitmişdilər.

1988-ci ilin yayında Ə.Vəzirov Stepanakertə gəldi. Onun güclü təzyiqi nəticəsində Ermənistandan gələnlər DQ-dan çıxarıldılar. DQ partiya komitəsinin katibi H.Poqosyan onu aldatmışdı ki, mən də Sumqayıtdan gələn erməniləri çıxardacağam. O, sözünə əməl etmədi.

25.08.88-ci ildə Xocalı Deputatlar Sovetinin sessiyasını çağırdım və Xocalıya pənah gətirən 130 ailəyə torpaq sahəsi ayırdım. Bunu nə Əsgəran, nə də Stepanakert qəbul etmədi. Cavab belə oldu:

— Rayon və vilayət XDSİK-nin başı üstündən kənd XDS-nin qərarını təsdiq edə bilmərik.

Bu cavab o dövrdəki Azərbaycan rəhbərliyinin fərsizliyinin cavabı idi. Get-gedə qarşıdurma güclənir, Xocalı ermənilər üçün dəf edilməsi mümkün olmayan bir maneəyə çevrilirdi. Stepanakert-Əsgəran şosesinin, dəmir yolunun, aeroportun Xocalının nəzarəti altında olması ilə ermənilər heç bir vəchlə razılaşmırdılar. Ona görə də Xocalını neytrallaşdırmaq ideyasına gəlmişdilər. Xocalını kiçik bir həmlə ilə məhv edəcəklərinə inanırdılar. Elə bu fikirlə də 1988-ci il sentyabrın 18-də nümayiş meydanından 12 minə qədər erməni 10 km-lik bir məsafəni piyada qət edərək hücuma keçdilər.



Azərbaycan Milli Kitabxanası

İrəlidə 4 "KRAZ" və "KAMAZ" maşınları gəlirdi. Onlar yüzlərlə benzin doldurulmuş butulkalarla, ucu itilənmiş dəmirlərlə silahlanmışdılar. Ballıca kəndində onların arasında xüsusi tə'lim keçmiş döyüşçülər də var idi. Kəndə 2 km qalmış onların gəldiklərini başa düşdük, 150 nəfərə yaxın adamla onları şil-küt edib Stepanakertə yola saldıq.

Biz "Ura!" — deyərək hücuma keçib bu axının qabağını aldıq. Bu bizim üçün sınaq anları idi. Bu sınaqdan xalqımız mərdanə çıxdı və ermənilər gücümüzə bələd oldular. Həmin hücumun qarşısının alınmasında Yavər Əzimov, Zöhrab Adilov, İmani Malik, İbrahim Məmmədov, Cabbar Cəfərov, Cavid Əliyev, Gülara Usubova, Yaqub Quliyev, Murad Şükürov, Ələsgər Novruzov, Bəxtiyar Aslanov, İlya Əliyev, İmran Həsənov, Baxış Şirinov, Kamil Məmmədov, Abil Xudayarov, İsa Aslanov, E'tibar Allahyarov və bir çoxları əsl igidlik nümunəsi göstərdilər. Bu döyüşdə iştirak edənlərin çoxunun adını çəkmədim. Onlar məni bağışlasınlar. Bu bizim ermənilər üzərində ilk qələbəmiz idi.

Ermənilərin gizli mə'lumatlarından bizə aydın oldu ki, o döyüşdə 27 erməni ölmüş, 100-ə qədəri isə yaralanmışdı. Həmin gündən sonra sovet qoşunları erməniləri bizdən qorumağa başladı.



**Əsgəran qalası.**

Əsgəranla Xocalının arası 1 km-dir. Döyüş zamanı Rafiq Mürsəlov və sahə müvəkkili Zülfü Əhmədov rus ordusuna mə'lumat verib kömək istəmişdilər. Hərbi hissə 5 km yolu 3 saata gəlib çıxdı. Hadisənin səhəri Zori Balayan "YAK-140" təyyarəsi ilə 12 nəfər həkimlə birlikdə Stepanakertə gəldi. Biz gecə-gündüz



yatmır, hər bir hadisəyə nəzarət edib ümumi nəticələr çıxarırdıq. Azərbaycan hökuməti isə öz iş-gücündə idi.

Bu hadisə haqqında Şuşaya və Ağdama tə'cili mə'lumat verməyimizə baxmayaraq, 21 sentyabrda axşam tərəfi Mərkəzi Komitənin katibi Həsən Həsənov, DİN-in müavini Kamil Məmmədov və ağsaqqal Zeynal Məmmədov Xocalıya gəldilər. Həsən Həsənov və Kamil Məmmədov əvvəlcə haray-həşir qopartdılar ki, erməniləri niyə qırmısınız? Avtobus da gətirmişik, yığılın hərbçilərin köməyi ilə Xocalıdan çıxın. Bizim e'tiraz səsimizdən sonra susdular.

Onlardan tələblərimiz bu oldu ki, bizə silah, çörək verin, son nəfəsimizə qədər Xocalı, Qarabağ uğrunda vuruşacağıq. Həmin gündən sonra Ağdam bütövlükdə Qarabağa kömək üçün ayağa qalxdı. Bu təşəbbüsə Gəncə, Kürdəmir, Bərdə, Yevlax, Quba və başqa rayonlar da qoşuldular.

Hadisədən az sonra SSRİ-nin istintaq orqanları Xocalıya gəlib istintaq apardılar. İsa Aslanov, Şahin Usubov, Kamil Məmmədov, Abil Xudayarov, İmran Həsənov, Baxış Şirinov, İsmayıl Əliquliyev (polis əməkdaşı) həbs edilərək, Şuşa həbsxanasına salındılar. Onlar üç aydan artıq haqsız cəzaya mə'ruz qaldılar.

Millətlər Sovetinin sədri Boss, deputatlardan Sergey Oleynik, Zoya Puxova və bir çoxları Xocalıya gəlir və bizə yuxarıdan aşağıya baxırdılar. Hər vəchlə ermənilərə haqq qazandırırdılar. S.Oleyniklə ciddi söhbətim oldu. Dedim ki, siz ukraynalısınız, Ukraynanın elə ərazisi var ki, ruslar sıx şəkildə yaşayırlar. Deməк o ərazini Rusiyaya verməк lazımdır?

O, qəzəbli, kinli baxışlarla məni süzüb, qəti e'tirazını bildirdi. Beləliklə ruslar ermənipərəst mövqelərindən əl çəkmirdilər.

Xocalı işğal olunmaya bilərdi. Əgər Azərbaycanın fərsiz rəhbərləri Moskvanın diktəsi ilə hərəkət etməsəydilər Xocalıya kənardan heç bir qüvvə lazım deyildi. Onu güclü silahla tə'min edib, Xocalıya arxa, dayaq durmaq lazım idi. Biz ölümlə hər an çarpışırdıq və bu ölümə qalib gələcəyimizə əmin idik. Xocalı tam iflic vəziyyətinə salındıqdan sonra zəbt edildi.

Xocalının ağır günlərində, respublika rəhbərlərindən əlimi tamamilə üzdükdən sonra Naxçıvana üz tutdum. Möhtərəm prezidentimiz onda Naxçıvan Ali Sovetinin sədri idi. Onu da Azərbaycandan tam uzaqlaşdırmışdılar. Ondan Xocalının qorunması üçün kömək istədim. Nəinki xocalılar, qarabağlıların hamısı nicat yolunu Heydər Əliyevdə görürdülər. O, dəyərli təklif və göstərişlərini verdi. Kömək edəcəyinə söz verdi. Xocalı soyqırımı

ərəfəsində Ağdamda keçirilən mitinqdə də hami yekdilliklə Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edirdi.

Mən rəhbər vəzifədə çalışsam da respbulikanın keçmiş rəhbərlərinin mövqeyi ilə razılaşmamışam. Xüsusi İdarəetmə Komitəsinin də əleyhdarı olmuşam. İlhaqı məhz A.Volski gücləndirdi. Bu komitə birbaşa Moskvaya tabe idi. DQMV-də Moskvaya tabe etdirilmişdi. Bu, birbaşa Ə.Vəzirovun və A.Mütəllibovun imzası ilə təsdiq olunmuşdu. Onlar xalqı aldatdılar və nəticədə tam cəzasız qaldılar.

1988-ci ilin oktyabrında Xocalının sosial inkişafı üçün xüsusi qərar verildi. Bu alqışlanılası qərar deyildi. Biz tikinti aparmaq yox, silahlanmalıydıq. Ermənilər silahlandılar, ordu yaratdılar, biz isə tikinti işləri ilə başımızı qarışdırdıq. Daha doğrusu, qarışdırdılar. Bu da bir oyun idi başımıza açdılar.

A.Volski komitəsi Z.Balayanla, A.Manuçaryanla dostluq edirdi. Həmin dövrdə 53 idarə və müəssisə möhür və ştamplarını dəyişdirib Azərbaycanın adını oradan silmişdilər. Ə.Vəzirov, A.Mütəllibov bunları görmürdümü? Çaldığımız həyəcan təbilinin səsi heç bir yana gedib çatmırdı.

1990-cı ildə Respublika Təşkilat Komitəsi yaradıldı. Viktor Polyaniçko peyda oldu. "20 Yanvar" faciəsi baş verdi. Xocalı 40 gün yas saxladı. 1990-cı ilin aprelində Xocalıya şəhər statusu verdilər. Xocalının güclü mövqeyini dərk edən TK-i çox zaman iclaslarını məhz Xocalıda keçirirdi. SSRİ-nin o vaxtkı rəhbərləri ilə saysız-hesabsız görüşlərim olub. 1990-cı ilin noyabr ayında Moskvada qurultay keçirilirdi. Biz — Azərbaycanın nümayəndə hey'əti Qorbaçovu qurultaydan çıxanda saxlayıb mühasirəyə aldıq. Qəti sözümüzü deyib, tələblərimizi etdik. O, qəti şəkildə söz verdi ki, DQ Azərbaycanın ərazisidir, heç kimə verilə bilməz, hər şey qaydasında olacaqdır. Ancaq o, sözünə əməl etmədi.

1991-ci ilin aprelində Xocalı Ərazi Partiya Komitəsi və Ərazi İcraiyyə Komitəsi yaradıldı. Həmin vəzifəyə mən seçildim. Ermənilər bizə güclü həmlələr edir və cavablarını da layiqincə alırdılar. Xocalı biganəliyin, satqınlığın, vəzifə davasının qurbanı oldu. Bu ağrını təkcə Xocalı yox, Azərbaycan xalqı hələ çox çəkəcəkdir. Biz Xocalıya qayıdacağıq. Xocalının mərd oğlanlarının çoxu on ildən artıqdır ki, səngərlərdədir. Onlar Xocalıya qayıdacaqlar, döyüşə-döyüşə, sağlıq olsun. Heyf Qarabağdan, Heyf Xocalıdan. Biz qayıtmalıyıq. Əks halda məhvə məhkumuq, məhvə.



## XOCALININ GENERAL OĞLU

Qədim mədəniyyətə malik olan Xocalının Qarabağ xanlığı dövründə tarixi şəxsiyyətləri olub. İbrahim xanın vəziri, məşhur Qarabağ tarixçisi Mirzə Camal Xocalıdan olub. Böyük Vətən müharibəsində özünün qəhrəmanlığı ilə Vətənə şöhrət gətirən həmyerlilərimiz də az olmayıb.

Erməni işğalçıları ilə Xankəndindəki 366-cı rus alayının Xocalıya basqını zamanı igidlərimiz ad çıxardıb. Əlif Hacıyev, Tofiq Hüseynov, İnqilab İsmayılov kimi qəhrəmanlarımız dillər əzbəri olmuşdur.

Öz doğma yurd-yuvalarından didərgin düşmüş təzə şəhərin sakinlərinin qəlbinə sanki günəş doğdu. Xocalı vətənə bir general oğul bəxş etdi. Ramil İdris oğlu Usubovu! O, prezidentin fərmanı ilə respublika DİN-i tə'yin olunmuşdur.

Ramil Usubovun tərcümeyi-halından sətirlər:

Ramil İdris oğlu Usubov 1948-ci ildə Xocalı şəhərində anadan olmuşdur. 1970-ci illərdən polis orqanlarında çalışır. Adi milis nəfərindən Dağlıq Qarabağ milis idarəsinin rəis müavini vəzifəsinə qədər yol keçmişdi.

1987—1989-cu illərdə Naxçıvan MR-da DİN-i, 1989-cu ildən 1993-cü ilin iyun ayına qədər respublika DİN-də pasport və viza şö'bələrinin rəisi vəzifələrində çalışmışdır. 1993-cü ilin iyunundan Azərbaycan Respublikasının Dİ naziridir.

İxtisasca hüquqşünasdır. Polis Akademiyasını bitirmişdir. Evlidir, üç uşağı var.

Həmyerlimiz Ramil Usubova Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə general-leytenant rütbəsi verilmişdir. Xalqımızı prezidentimizin ətrafında sıx birləşdirməyə çalışan, qanun keşiyində möhkəm dayanan Ramil Usubova uzun ömür və işində uğurlar diləyirik.



Azərbaycan Milli Kitabxanası

## XOCALININ İLK SƏMƏNDƏRLƏRİ

Xocalı döyüşkən ruhlu igidləri ilə öyünürdü həmişə. O, igidlər ki, nə düşmənə aman verərdilər, nə də ölümə bac. Onlar Xocalının yaşaması, onun inkişaf edib böyüməsi, tarixi dəyərlərinin qorunub saxlanılması üçün vuruşurdular. Vuruşdular, düşmənə aman vermədilər, ancaq bə'ziləri ölümə bac verdi. Bu ölüm onları ölməzliyə qovuşdurdu, yüksək adlar alaraq ədəbiləşdirdilər Xocalının şəhid ruhunu...

**Xocalıda ilk hökumət təltifinə layiq görülənlər:**

*Azərbaycanın Milli qəhrəmanları:*

Əlif Lətif oğlu Hacıyev (ölümündən sonra).
Tofiq Mirsiyab oğlu Hüseynov (ölümündən sonra).
Aqil Sahib oğlu Quluyev (ölümündən sonra).
İnqilab Ələkbər oğlu İsmayılov (ölümündən sonra).
Hikmət Baba oğlu Nəzərli (ölümündən sonra).

*"Azərbaycan Bayrağı" ordeni ilə təltif olunanlar:*

Məmməd Ağalar oğlu Nağıyev

*"İgidliyə görə" medalı ilə təltif olunanlar:*

Mikayıl Bahadur oğlu Səlimov (ölümündən sonra)

## HEYF SƏNDƏN, ÇİNGİZ!

Xocalının, Qarabağın dərdini dünyaya yayırdı Çingiz. Ölümün gözünə dik baxa-baxa, yana-yana tarixi qəhrəmanlıqları, ağır faciələri lentə alır, bütün dünyaya car çəkirdi, Çingiz.

Çingiz də şəhid oldu. Çingiz Fuad oğlu Mustafayev öz şəhid qanı ilə adını tarixə yazdı.

Heyf səndən, Çingiz.

***



## XOCALININ MÜDAFİƏSİNDƏ FƏRQLƏNMİŞ ŞƏXSLƏRİN TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

***I. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində xüsusilə fərqlənərək şücaət və mərdlik göstərdiklərinə, Vətən qarşısındakı borclarını şərəflə yerinə yetirdiklərinə görə aşağıdakılara "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin.***

Mövsüm Şahin oğlu Məmmədov — Şuşa polis şö'bəsinin əməkdaşı.

Ələsgər Xanlar oğlu Novruzov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Füzuli Salah oğlu Rüstəmov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Araz Bahadur oğlu Səlimov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

***II. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, torpaqlarımızın erməni təcavüzündən müdafiəsində, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində fərqləndiklərinə görə aşağıdakılar "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilsinlər:***

Bəxtiyar Qulu oğlu Aslanov — Xocalı sakini.

Firdovsi Fazil oğlu Vəliyev — hərbi qulluqçu (ölümündən sonra).

Taleh Zəkara oğlu Quluyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

İbrahim Nəriman oğlu Əzizov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Firidun İsa oğlu Əliyev — Xocalı polis bölməsinin əməkdaşı.

Xəzani Kərəm oğlu Əsgərov — Şuşa polis şö'bəsinin əməkdaşı (ölümündən sonra).

Elman Camal oğlu Məmmədov — Xocalı rayon İcra Hakimiyyətinin başçısı.

Elburus Azad oğlu Məmmədov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.



Azərbaycan Milli Kitabxanası

Xosrov Bilal oğlu Məmmədov — Ağdam özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Sərvər Məhəmməd oğlu Rəcəbov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Xəqani Siyavuş oğlu Səlimov — Xocalı polis bölməsinin əməkdaşı

Elxan Nəsib oğlu Səfiyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Əliyar Kamran oğlu Usubov — Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Rövşən Qaçay oğlu Həsənov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Mürşüd Səməd oğlu Hüseynov — Xocalı sakini (ölümündən sonra).

***III. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, erməni işğalçılarına qarşı mübarizədə Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində igidlik göstərərək vətəndaşlıq borclarını vicdanla yerinə yetirdiklərinə görə aşağıdakılar "İgidliyə görə" medalı ilə təltif edilsinlər:***

Taleh Umudvar oğlu Abbasov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Mahir Tanrıverdi oğlu Abdullayev — Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Elşad Qiyas oğlu Abışov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Habil Mövsüm oğlu Abışov — Xocalı sakini (ölümündən sonra).

Rasim Mirsalam oğlu Ağayev — Kosalar polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Ziyadxan Salah oğlu Allahverdiyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

İlham Baxşeyiş oğlu Allahverdiyev — Xocalı sakini (ölümündən sonra).

E'tibar Baloğlan oğlu Allahyarov — Xocalı sakini (ölümündən sonra).

Bəhmən Yaqub oğlu Bağırov — Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Elşən Həsən oğlu Bağırov — Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).



Namiq Məhəmməd oğlu Bilalov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Əli İmran oğlu Vəliyev — Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

İlham Süleyman oğlu Qarayev — Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı.

Yaşar Qaytaran oğlu Qasımov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

İslam İdris oğlu Quluyev — Xocalı sakini (ölümündən sonra).

Natiq Vəliyəddin oğlu Quluyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Zöhrə Lətif qızı Quluyeva — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Yelmar İsgəndər oğlu Əbdülov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Arif Xanlar oğlu Əliyev — Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Eldar Kəriş oğlu Əliyev — Xocalı sakini (ölümündən sonra).

Əbülfət Əli oğlu Əliyev — Xocalı hava limanında xətt polis bömləsinin əməkdaşı (ölümündən sonra).

İlham Bahadur oğlu Əliyev — Xocalı sakini (ölümündən sonra).

Sərxan İslam oğlu Əliyev — Xocalı polis bölməsinin əməkdaşı.

Namiq Şahmalı oğlu Əliməmmədov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Faiq Şahmalı oğlu Əliməmmədov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Eldar Aslan oğlu Zeynalov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Malik Ağayar oğlu İmani — Xocalı sakini (ölümündən sonra).

Ziyəddin Savalan oğlu İsgəndərov — Ağdam polis şö'bəsinin əməkdaşı (ölümündən sonra).

Bəhram Mətləb oğlu İsmayılov — Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Firuz Samran oğlu Kərimov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Murad Şəfa oğlu Mehdiyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Fikrət Buruzlu oğlu Mehdiyev — Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Əli Mürsəl oğlu Mehrəliyev — Xocalı sakini (ölümündən sonra).



Azərbaycan Milli Kitabxanası

Sadiq Oqtay oğlu Mədətov — Xocalı polis bölməsinin əməkdaşı.

Razmik Suren oğlu Məmmədov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Rasif Salman oğlu Məmmədov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Sərvər Yelmar oğlu Məmmədov — Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Murad Cəmil oğlu Məhərrəmov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü

Şahid Lətif oğlu Muradov — Xocalı polis bölməsinin əməkdaşı.

Natiq İsmayıl oğlu Nağıyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Ramiz Kamal oğlu Nəsirov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Felmar Şahmar oğlu Rzayev — Xocalı sakini.

Eldar Əmir oğlu Rüstəmov — Xocalı sakini (ölümündən sonra).

Zakir Kamran oğlu Usubov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Zahir Əbilqasım oğlu Usubov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Canan Binnət oğlu Fərzəliyev — Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı (ölümündən sonra).

Davud Məşdi oğlu Haqverdiyev — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Yaşar Hacı oğlu Hacıyev — Xocalı polis bölməsinin əməkdaşı.

Rza Lətif oğlu Hacıyev — Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı.

Bəhmən Salman oğlu Hənifəyev — Xocalı sakini (ölümündən sonra).

Mehdi Ramil oğlu Həsənov — Xocalı sakini (ölümündən sonra).

Yamən Kazım oğlu Həsənov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü.

Şöhrət Usub oğlu Həsənov — Xocalı sakini (ölümündən sonra).

Hətəm Qurban oğlu Hümbətov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Çingiz Usub oğlu Hüseynov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).



Vaqif Rəsul oğlu Şükürov — Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra).

Murad Əliş oğlu Şükürov — Xocalı sakini.

*Azərbaycan Respublikasının Prezidenti*
**HEYDƏR ƏLİYEV**
*Bakı şəhəri 25 fevral 1997-ci il.*

## Şəxsiyyət

*"Ermənilər haqqında çox-çox qədimlərdən pis fikir yaranıb və şübhəsiz bu əsassız deyildir, ona görə ki, əsası olmasaydı bütöv bir xalq haqqında, həm də müxtəlif dövrlərdə belə bir fikir yarana bilməzdi".*

**Veliçko Vasili Lvoviç, rus tarixçisi.**

Böyük sevinc və fərəh hissi ilə qarşılayıb nifrinlər yağdıra-yağdıra yola saldığımız Sovet Kommunist rejimi və imperiya siyasəti başımıza çox müsibətlər açıb. Bu müsibətlərdən biri də Zəngəzur adlı böyük bir mahalın əlimizdən alınması və eyni zamanda 1923-cü ildə DQMV-ni yaratmaq olmuşdur.

Yuxarı Qarabağda yaşayan azərbaycanlıların qanuni konstitusion hüquqları həmişə ermənilər tərəfindən tapdalanıb, onlar tə'qib olunub, haqsız olaraq ağır məhrumiyyətlərə düçar olublar. 1967-ci ilin yayında şərlənərək həbs olunan Ərşad müəllim, Zöhrabın və Ələmşahın Xankəndinin mərkəzində diri-diri yandırılması buna əyani bir sübutdur. Ermənilər əsrlər boyu türk-azəri qanına susamış və nahaq qanlar tökməkdən heç bir zaman çəkinməmişlər.

Vaxt var idi doğma ana dilimizdə danışmaq belə yasaq edilmişdi bizlərə. Yas mərasimlərimizə, dini adət-ən'ənələrimizə riayət edə bilmirdik. Ona görə də o vaxtdan bir nəfər olsun belə Yuxarı Qarabağdan olan din xadiminə rast gəlmək olmazdı. Dəfn mərasimlərimizdə mollanı Ağdamdan çox çətinliklə gətirə bilərdik.

Xankəndi sənaye şəhəri kimi inkişaf edib böyüyürdü. Ətraf Azərbaycan rayonlarından buraya axın güclənirdi. Ermənilər hər vəchlə bunun qarşısını alır, azərbaycanlıları pasport qeydiyyatına götürmürdülər. Demək olar ki, Yuxarı Qarabağın qapıları Azərbaycanın üzünə bağlanmışdı.



Azərbaycan Milli Kitabxanası

1969-cu ildə hazırda respbulikamızın prezidenti olan Heydər Əliyev hakimiyyətə gəldi. O, bir şəxsiyyət kimi ilk andaca diqqəti cəlb edirdi. Erməni daşnak tör-töküntüləri danışıqsız bu şəxsiyyət qarşısında səcdə qılırdılar. Onun hakimiyyətə gəlişindən az sonra vəziyyət kəskin surətdə dəyişdi. Artıq ermənilər bizimlə hesablaşmaq məcburiyyətində qaldılar. Xankəndində ana dilimizdə sərbəst danışmaq imkanını əldə etdik. Azərbaycanlılara qarşı törədilən neqativ hərəkətlər aradan qaldırılmağa başladı. Həmin dövrdən başlayaraq, təhsil və mədəniyyətimizi inkişaf etdirməyə, dini ayinlərimizi sərbəst surətdə icra etməyə başladıq. Özümüz öz ölkəmizin tam hüquqlu vətəndaşı kimi hərəkət etmək imkanı qazandıq.

Hər ilin yayında Şuşada "Vaqif poeziya" bayramları keçirilərdi. O zaman Şuşada Vaqifin xatirəsini yad edən əsaslı heç nə yox idi. HEYDƏR ƏLİYEV cənablarının şəxsi təşəbbüsü və rəhbərliyi ilə Cıdır düzündə Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi ucaldıldı. Bu ən'ənəvi bayramda prezidentimiz şəxsən özü iştirak edirdi. Beləliklə 1984-cü ildən başlayaraq "Vaqif çeşməsi" adlı poeziya almanaxı çap olunmağa başladı.

1960-cı illərədək Dağlıq Qarabağda azərbaycanlılar sıxışdırılaraq ümumi əhalinin 14—15 faizi həddinə gətirilmişdi. 80-ci illərin ortalarında Dağlıq Qarabağda azərbaycanlıların sayı 2 dəfə artmışdı. Belə bir vəziyyət erməni millətçilərini vahimələndirir və qorxuya salırdı.

Sov. İKP MK-nın Baş Katibi L.İ.Brejnev vəfat etdikdən sonra erməni millətçilərinin sevincinin həddi-hüdudu yox idi. Onlar hesab edirdilər ki, Brejnevin ölümü ilə Heydər Əliyevin sonu gələcək, bundan sonra erməni separatçıları öz məqsədlərinə çatacaqlar. Onların bu sevinci uzun çəkmədi. HEYDƏR ƏLİYEV cənabları Siyasi Büronun üzvü seçildi, SSRİ-nin aparıcı rəhbərlərindən biri oldu və 2-ci dəfə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görüldü. Bununla da erməni millətçilərinin hay-küyü nisbətən yatdı. Onlar yenə də gözləmə mövqeyinə keçdilər. Beləliklə HEYDƏR ƏLİYEVİN fədakarlığı nəticəsində erməni məktəblərində Azərbaycan dili fənni də öyrədilməyə başlandı.

HEYDƏR ƏLİYEVİN Xankəndində Azərbaycan dilində pedaqoji institut açması daşnak rəhbərlərinə öldürücü zərbə idi. 1980-82-ci illər ərzində DQ-da azərbaycanlıların sayı 18%-dən 30%-ə qalxmışdı. HEYDƏR ƏLİYEVİN Azərbaycandan uzaqda olması Muxtar Vilayətdə Partiya Komitəsinin 1-ci katibi Gevorkovla daşnakla-



rın baş-başa qalmasına şərait yaratdı, ermənilərin əl-qol açmasına imkan verdi.

Yadımdadır Qorbaçov hakimiyyətə gələndə də ermənilərin sevinci yerə, göyə sığmırdı. Onlar Qorbaçovun hakimiyyətə gələcəyini qabaqcadan bilirdilər. HEYDƏR ƏLİYEV cənablarının Moskvadan uzaqlaşdırılması üçün ermənilər bütün vasitələrə əl atırdılar. Ən mühüm vasitələrdən biri də bizim pasportlarımızdan istifadə edib Moskvaya saysız-hesabsız teleqramlar vurmaq idi. Bu teleqramlar əsasən Gorusdan vurulurdu. Çünki HEYDƏR ƏLİYEV şəxsiyyəti Qarabağ oyununda sərt bir qala kimi Moskva ilə ermənilərin arasına sipər çəkmişdi. HEYDƏR ƏLİYEV Moskvadan, MK-nın Siyasi Bürosundan uzaqlaşdırılan kimi Qarabağ oyununa başladılar.

Qarabağ hegemon dövlətlərin maraqları dairəsindədir. Ermənilər bu məsələdə şahmat taxtasında piyadaları xatırladırlar. Qarabağ məsələsi HEYDƏR ƏLİYEV kimi güclü şəxsiyyətlərin "Şah" gedişi ilə həll oluna bilər. Bunu anlamaq çətin məsələ deyildir. Böyük məsələləri böyük şəxsiyyətlər həll edə bilərlər. Dövrümüzün ən böyük şəxsiyyətlərindən biri də məhz HEYDƏR ƏLİYEVDİR.

## *Xocalı soyqırımı qurbanlarının ailələrinə*

Əziz xocalılar! Hörmətli həmvətənlər! İki il öncə, 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Mə'nəvi, fiziki itkimiz əvəzolunmaz dərəcədə ağırdır. Təəssüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın siyasi həyatında mövcud olmuş hərc-mərcliklər, anarxiya, milli taleyimizə biganə siyasi ambisiyalar, hakimiyyət oyunları və siyasi qruplar arasında



Azərbaycan Milli Kitabxanası

münaqişələr də həyatımızda baş verən bütün faciələrdə az rol oynamamışdır. Nəticədə tariximizə qara səhifələr yazılmış, xalqımızın qəlbinə sağalmaz yaralar vurulmuşdur. Respublikanın hüquq-mühafizə orqanları günahkarların aşkar edilməsi istiqamətində ardıcıl iş aparır. Əmin ola bilərsiniz ki, törədilmiş cinayətin məs'uliyyətindən heç kəs yaxa qurtara bilməyəcəkdir.

Dünyada hər şeyin, dərdin də, əzabın da bir sonu var. O cümlədən, məcburən qatıldığımız müharibənin də. Xalqımızı əmin etmək istəyirəm ki, müqəddəs vətənimizin real müstəqilliyi və torpaqlarımızın düşmən tapdağından azad olacağı gün uzaqda deyildir. Hamımızın sıx birliyimizlə biz bu ağır tale sınağından qələbəylə çıxacağıq və hər kəs öz doğma od-ocağına qayıdacaqdır.

Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" e'lan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara mə'lumat verilmişdir. Bu gün ölkəmizin hər yerində Xocalı qurbanlarının əziz xatirəsi ehtiramla yad edilir. Xocalı soyqırımı qurbanlarının müqəddəs ruhları qarşısında bir daha baş əyir, onların qohumlarına və bütün Azərbaycan xalqına başsağlığı verirəm.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti.*
*1 mart 1994-cü il.*

## XOCALI YADDAŞLARDA YAŞAYIR



Xocalı alban, Azərbaycan mədəniyyətini özündə birləşdirən və cəmləşdirən ulu yurd yeridir. Əfsuslar olsun ki, Xocalıdan tapılan tarixi eksponatlar erməniləşdirilib və dünya muzeylərini zənginləşdirməyə xidmət etmişdir. 1980-ci illərdə Xocalının adı o əşyaların üzərindən götürülmüş, ermənilərə aid edilmişdir. Bizim özümüzün tarixi muzeylərimizdə də belə əməliyyatlar aparılmışdır. 1960-cı illərdə Hacı Zeynalabdin Tağıyevin evində yerləşən tarix muzeyində arxeoloji qazıntılar zamanı Xocalıda tapılmış çoxlu mıqdarda eksponatlar arasında tarixi dövrü, məkanı dəqiqliklə göstərən izahlı yazı lövhələri də vardı. İndi onlar bizim tarix muzeyində gözə dəymir.



Xanlıqlar dövründə Xocalıda məskunlaşan ailələrin əksəriyyəti bəylər olub. Bunu 1893-cü ildə Tiflisdə nəşr edilən "Свод статистических данных о населении Закавказского края извлеченных из поселенных списков" adlı kitab da sübut edir.

Qeyd olunan mənbədə göstərilir ki, o dövrün siyahıya alınmasında (əlbəttə, erməni əl gəzdirəndən sonra) Xocalıda 34 evdə yaşayan 192 nəfərdən 46-sı bizim həqiqi mə'nada başa düşdüyümüz bəy olubdur. Onlardan 24-nün kişi bəyi, 22-nin isə qadın bəyi (Türk dilində ən yüksək titul bəylikdir. Bizim dilimizdə qadına bəyim, deyiblər. Sonradan isə seyid nəslindən olanlara bəyim deyiblər. Qadın bəyin, var-dövlət, torpaq sahəsi (bəy nəslindən olması nəzərdə tutulur. — Q.Q.) olması, eləcə də Xocalı sakinlərinin hamısının azəri-türk olması qeyd edilir.

Təbiidir ki, Xocalının o zamankı 46 bəyi "bəy" ləqəbini elə-belə qazanmayıb. Onların kifayət qədər var-dövləti, ən əsası isə Azərbaycan ərazisində (məhz sonralar erməniləşdirilib Dağlıq Qarabağ adlandırılan) geniş torpaq sahələri olub. Bu danılmaz həqiqətdir. Statistikada göstərilən tarixi təsdiqlənməyə əsas verən çox mühüm rəqəmlər bu həqiqi gerçəkliyin əyani təzahürüdür. Malıbəylidə həmin dövrdə 9 kişi bəyi, 4 qadın bəyi olub.

1905—1907-ci illərdə Xocalı həmin bəylərin çörək verib saxladıqları ermənilər tərəfindən tamamilə yandırılıb, onların var-dövlətləri talan edilib. O vaxt Səfiyar bəy dağılmış Xocalının xarabalıqlarının yaxınlığında Allahverdi bəyin tut bağının cənubunda məskunlaşmağı təklif edib...

Xocalı qırğınını unutmaq, onu yaddan çıxartmaq Azərbaycanı unutmaq deməkdir!

Ey ulu Azərbaycan! Ey ulu diyar! Ey ulu ölkə! Xocalı qırğınını unutma! Unutsan, unudularsan! Unutsan məhv olarsan! Xocalılar, Azərbaycan xalqı, Azərbaycan torpağı, Azərbaycan dövlətçiliyi, demokratiyası, onun ərazi bütövlüyü üçün ürəyini məş'əl etmiş əfsanəvi müasirimiz, dünya şöhrətli şəxsiyyət HEYDƏR ƏLİYEVİN bu sahədə gördüyü işlərə böyük ümidlə baxır və inanırlar ki, onların həqiqi arxası, həqiqi dayağı var. Xocalılar intiqam



Azərbaycan Milli Kitabxanası

gününün yaxınlığına inanır, çünki onlarda prezidentə böyük inam hissi var.

Xocalı igidləri silaha sarılıb vuruşur. Xocalı mütləq yaşayacaq!

**MÜBARİZ ALLAHVERDİYEV**
*Tibb Universitetinin dosenti, Xocalı sakini.*

*("Qarabağ" qəzeti, N8, 1994)*

## XOCALI — DƏRDİM MƏNİM

Hər bir səadətim, amalım üçün
Dərələr keçmisən, dağlar aşmısan.
Qoy sənə, ay ana, həyat, deyim mən,
Həyatı sən mənə bağışlamısan.

Ana deyən də, körpə olan da, həyatı dərk edən də ilk əvvəl ana olur. Sonra Vətən ön xəttə keçir. Çünki ananı da doğan Vətəndir. Vətəni də doğan Vətəndir.

Mən bununla fəxr edirəm ki, o vaxtdan — 1966-cı ildən "Xocalı" təxəllüsünü daşıyıram. Biz gərək Xocalını Xocalı kimi tanıyaydıq. Xocalının tarixi çox qədimdir. Qazıntılar zamanı üzə çıxan əşyalar Xocalının qədim bir şəhər olduğunu sübut edir. Vaxtilə traktorçu İsmayıl kişinin tapdığı küp qəbirlər, daş sanduqələr hazırda Xankəndində saxlanılır.

Xocalıda səkkizguşəli gümbəzin yanında 15 ədəd yonulmuş sal daş var idi. Bir dəfə orada bir neçə erməninin gəzişdiyini gördüm. Sonra həmin daşlardan səkkizi yoxa çıxdı. Çünki o daşları rəhmətlik Şöhlət Həsənovla (Şöhlət Xocalı tarixi abidələrinin tədqiqatçısı idi. Xocalının daş yaddaşlarına aid onda saysız-hesabsız materiallar var idi. Soyqırımı günü qəhrəmancasına həlak oldu. — *Q.Q.)* o daşları saymışdıq.

1990-cı ildə mərhum akademikimiz İmam Mustafayev Xocalıya gəlmişdi. Daşların oğurlanması və başqa tarixi əşyalar haqqında ona danışdım. Haçatəpənin yanındakı böyük daşı göstərdim.

O, dedi ki, lap qədimdə Xocalı böyük bir şəhər olub. Həmin o böyük daş isə onun darvazası olmuşdur.

Həmin daşlardan birini ermənilər aşırtmışdılar. Bu daşı üyüdüb qum etmək üçün Xankəndinə aparmaq istəyirdilər, çox çətinliklə qarşısını aldıq.



1937-ci ildə "Allahsızlar partiyası" yaradılmışdı. Həmin partiyanın üzvləri səkkizguşəli kümbəzin üz daşlarını söküb fermanın və evlərin tikintisində işlədiblər. Üz daşlarının sökülməsinə baxmayaraq, kənardan baxanda kümbəzin səkkizguşəli olması bilinirdi. Kümbəzin içində müqəddəs bir qəbir də vardı. Sonradan o qəbir də yoxa çıxdı. Xocalı aeroportu tikiləndə Kurqan təpələrinin çoxunu məhv etdilər.

Xankəndində hərbi kazarma tikirdilər. Zəngin ehtiyata malik olan çay qumu və daşından deyil, həmin təpələrin daş və torpağını qazıb bünövrə tökməyə aparırdılar. Belə işləri görərkən, üzə çıxan qəbirlərdə ailə üzvlərinin birgə dəfn olunması, yanlarına isə məişət əşyaları qoyulduğu mə'lum olurdu.

Xocalıda "Çınqıl məhəllə" adlı bir yer var idi. Ermənilər həmin ərazilərin çoxunu əlimizdən almışdılar. Rəhmətlik Əzim kişi deyirdi ki, Xocalının sərhədlərinin bilinməsi üçün onun hər yerində kömür basdırmışam. Onunla sübut edib torpaqlarımızı bu namussuzlardan alaq. Əsgəran qalası, Kətiyin meşəsi, Daşbulaq, Həsənabad və bir çox yerlər vaxtilə Xocalının ərazisinə daxil idi.

Beynəlmiləlçilik azarı Xocalının verilməsində də az rol oynamadı. Sovet dövründə bizi millilikdən uzaqlaşdırmaqla başımıza oyunlar açıblar. Orta Asiya respublikalarını müqayisə edərək deyirdilər ki, SSRİ-nin tərkibində bu qədər müsəlman dövləti var. Hansı müsəlman dövlətindən danışmaq olar ki, heç kim qorxusundan dini ayinlərini icra edə bilmir, adət-ən'ənəsini tamamilə unudurdu. Məscidlərimiz dağıdılır, onları anbarlara çevirirdilər. Müsəlmançılıqda qəbir üstünə gül qoymaqdansa, şam yandırmaq daha düzgündür. Çünki bu bizim atəşpərəstliyimizə dəlalət edir. Nə qədər çalışsalar da atəşpərəstliyimizi qəlbimizdən silə bilməyiblər. Xocalıda yerləşən səkkizguşəli kümbəz zərdüştilərdən qalma atəşpərəstlərə məxsusdur. Vaxtilə viran edilmiş Xocalının yerində "Cahan ocağı" adlı müqəddəs bir ocaq da var idi.

Kommunist ideologiyası türkü türkə düşmən etmək məqsədi daşıyırdı. Xocalıda Elman Məmmədova qədər rəhbər vəzifələrdə ya erməni olub, ya da erməninin ən yaxın qohumu olan azərbaycanlı. Sağlam əqidəli, inamlı adamı vəzifəyə qoymurdular. Ermənilərlə qohumluğum olmadığına görə məni Kommunist Partiyasının üzvlüyünə qəbul etmədilər. Əgər sən milli köklər üzərində köklənmisənsə, deməк sən millətin düşmənisən.

Gəncə-Qala (Şuşa) yolunun alt və üst hissəsində Xocalının altı qədim qəbiristanlığı var idi. Hamısını dağıdıb yerlə yeksan etdilər.



Azərbaycan Milli Kitabxanası

İki əsr bundan əvvəl Azərbaycandan Suriyaya köçüb gedən xocalılar vardır. Suriyada da Xocalı adlı bir kənd var. Onlar Bakıda qardaşım Ələmdar Quluzadə ilə görüşüblər və deyiblər ki, iki yüz il əvvəl babalarımız Qarabağdakı Xocalıdan köçüb Suriyaya gediblər.

Şah İsmayıl Xətai ilə Sultan Səlim arasında Xocalı düzündə böyük müharibə olub. Əgər bu belədirsə, Şah İsmayıl Xətainin ata babası Xoca Alı olub, ana babası isə Uzun Həsən olub. Mənə elə gəlir ki, tarixçilərimiz araşdırmalar aparsalar çox məsələlər aydınlaşar.

Xocalı yaddaşlardan silinməməlidir. O, Azərbaycan xalqına məxsusdur və Azərbaycanın da olmalıdır.

Seyidbəyli, Mehdikənd, Ballıca, Seyidbulağı, Dikdaş kimi toponimlərin hamısı Azərbaycan adlarıdır. Ermənilər nə qədər çalışsalar da bu adları dəyişdirə bilmədilər. 1988-ci il idi. Əsgəran rayon Partiya Komitəsinin katibi V.Qriqoryan Xocalıya gəlmişdi. Hamı ermənilərin bəd əməllərindən danışırdı. O dedi ki, hər şey yaxşı olacaq. Əvvəl necə olubsa, elə də davam edəcək. Razısınızmı? Bir neçə nəfər onun fikri ilə razılaşdı. Mən isə dedim:

— O, düz deyir. Hazırda vilayətdə əhalinin 50 minini azərbaycanlılar təşkil edir. Gəlin görək həbsxanalarda yatanlardan çoxluğu kim təşkil edir? Ermənilər, yoxsa azərbaycanlılar? Əlbəttə azərbaycanlılar! Əsgəran rayon PK-də və İcraiyyə Komitəsində 600 nəfər işləyir. Onlardan tək biri — Ələkbər Mikayılov azərbaycanlıdır. Baxın, Qriqoryan deyir ki, əvvəlki kimi türmələrdə yenə siz yatacaqsınız, 600 nəfər məs'ul işçidən yalnız biri sizdən olacaq. Bax, Qriqoryanın dediyi budur!

Yuxarı Qarabağda, Xocalıda ev tikən azərbaycanlılara torpaq sahəsi vermirdilər. Deyirdilər ki, onlara istifadəyə yaramayan torpaqlardan ev yerləri verin. Bizim də istifadəsiz torpaqlarımız tarixi abidələrimiz olan yerlərdə idi. Babalarımızın axirət dünyası yerləşən sahələri sökdürüb üstündə bizə ev tikdirirdilər. Bu məsələni bir neçə dəfə Mərkəzi Komitəyə yazdıq. Ondan sonra Xocalıya cavan bir oğlan göndərdilər. O, qazıntı zamanı üzə çıxan əşyaları toplamalı idi.O da qazıntı nəticəsində üzə çıxan xırda-para bəzək şeylərini, muncuqları toplayırdı. Bu uşağın muncuq toplamasına bənzəyirdi. Ermənininin fitvası ilə sənin tarixi abidələrini dağıtsınlar, sən də üzə çıxan muncuqları topla. Beləcə muncuq yığa-yığa da bu günə qaldıq...

**Allahyar Xocalı**
*Şair publisist, Xocalı sakini.*



## XOCALININ BƏYLƏRİ

— Xocalıda Allahverdi bəy, Abdulla bəy, Şükür bəy, Qəhrəman bəy olub. Sovet hökuməti gələnə qədər Xocalının əhalisi firavan yaşayıb. Hələ qədimdən Xocalı Daşbulağın aşağısındakı Qışlaqlar deyilən yerdə olub. Qədim qəbiristanlıqlarımızdan biri də Allahverdi bəyin tut bağının yanında olub. Bəylər hər yaz mal-qoyun sürülərini Kəlbəcərin "Sarı yaylağı"na çıxardarmışlar. Allahverdi bəyin qızı Adilə Xocalı faciəsi zamanı öldürüldü. Nəvələri yaşayırlar.

Xocalıdan qazıntı zamanı bir general paqonu tapıldı. O, taxtaya bənzər elə materialdan düzəldilmişdi ki, çürüməmişdi. Kurqan təpələrinin çoxunu ermənilər yerlə yeksan etdilər. Ancaq Xocalı camaatı onların tam dağıdılmasına yol vermədi. Onların qorunması üçün xalq həmişə mübarizə aparırdı. Kurqanların yan hissəsində qardaşım İsmayıl böyük küp tapmışdı. Onu çıxardıb ermənilər apardılar. Həmin tarixi əşyaları ermənilər göydə qapırdılar, bizimkilərdən isə maraqlanan olmurdu.

Xocalıda ulu, köklü nəsillər olub. Sonra onlar müxtəlif nəsillərə ayrılıblar. Usubovlar ən köklü xocalılardandılar. Əbdüləzizovların və Cəfərovların çox qədim nəsilləri var. Abdulla bəy Cəfərovlar nəslindəndir. Nağılar, Anaxanımlar tayfası, Xələfli tayfası da köklü xocalılardandır.

Kolxozlaşmadan əvvəl Xocalı bəylərinin Qırxqızda, Dəlidağda, Meydanda yaylaq yerləri olub. Sonradan bu yerlər sıxışdırılmış, dövlət fondu hesabına 340 hektar torpaq sahəmiz qalmışdı.

Həsənabadda qədim qəbiristanlığımızı dağıdıb yerində ermənilər ferma və pavilyon tikdilər. Rəhmətlik Əzim kişi, Müseyib kişi nə qədər hay-küy saldılarsa da, səsimizə səs verən olmadı. Bax beləcə bizi sıxışdıra-sıxışdıra torpaqlarımızdan uzaqlaşdırırdılar. Ağrı-acılarımızın kökü gedib elə o illərə çıxır.

**Ağalar Nağıyev**
*Xocalı sakini.*



Azərbaycan Milli Kitabxanası

# XOCALI İŞĞAL OLUNMAYA BİLƏRDİMİ?



**Sadiq Oqtay oğlu Mədətov** — *Xocalı polis şö'bəsinin rəisi:*

*"İgidliyə görə" medalı ilə təltif olunmuşdur, polis mayorudur.*

— Xocalı ağır günlərini yaşayırdı. Azərbaycanlılar yaşayan kəndlər bir-bir işğal olunduqca Xocalının müdafiəsi çətinləşirdi. Xocalı döyüşçüləri ruhdan düşmür, daha inadkarlıqla müdafiəyə girişirdilər. Vəziyyət ağır idi. Bu ağırlığın böyük bir hissəsi də polis işçilərinin üzərinə düşürdü.

1990-cı ilin noyabrında Xocalı ilə Ağdam və Şuşa arasında əlaqə yaradan yol tamamilə bağlandı. Ermənilər Xocalı döyüşçüləri qarşısında aciz idilər. Bizim yeganə ümidimiz hava yoluna qalırdı. Qəsbkarlar Xocalıdan qisas alıb, divan tutmaq üçün fürsət gözləyirdilər. Xocalı isə öz sayıqlığını itirmir, müdafiə mövqelərini möhkəmləndirir, Azərbaycan xalqından, hökumətindən kömək gözləyirdi. Əsgəran rayon polis şö'bəsində işləyənlərimiz dəfələrlə ölümlə üz-üzə gəlsələr də, mərdanə dayanır, düşmənə layiqli cavablar verirdilər. Əfsuslar olsun ki, ermənilərdə olan hərbi sursatdan bizdə yox idi. Bizim polis işçilərimizin az hissəsində xidməti tapançalar var idi. Biz öz qeyrətimizə sığınıb, Xocalını bu qeyrətin mühafizəsinə almışdıq. Əsasən xocalılardan olan polis əməkdaşları yenilməz bir batalyonu xatırladırdı. Xocalı polisinin cəsurluğu erməni millətçilərini vahiməyə salmışdı. Onlar hər an yerli əhalinin köməyinə çatır, müdafiədə mərdanə dayanırdılar.

Xocalı polis şö'bəsinin əməkdaşlarına ilk sarsıdıcı ağır zərbə 26 sentyabr 1991-ci ildə vuruldu. Polis şö'bəsinin əməkdaşları Natiq Əhmədov və Əli Vəliyevin idarə etdiyi minik maşınını ermənilər "Sarı BTR" adlandırırdılar. Maşında 57 güllə deşiyi var idi. Bu hadisədən bir gün qabaq Ağdamdan Xocalıya fəhlə gətirən avtobus Əsgəranda daş-qalaq edilərək aşırılmış, sürücü və sərnişinlər ağır yaralanmışdılar. Cəsur polis əməkdaşlarından Yaşar Hacıyev, Əhliman Ağayev, Əli Vəliyev, Əfqan Məmmədov, Elçin Məmmədov, Xəqani Səlimovla hadisə yerinə gedib onları sağ-salamat çıxardıb gətirdik.



Ümumiyyətlə, Xocalı polisinin əməkdaşları bu günə kimi ən qaynar nöqtələrdə düşmənlə üz-üzə durur, Vətənin keşiyində məğrur dayanırlar. Şö'bəmizin əməkdaşlarından Quliyev Oqtay, Bağırov Eldar, Məmmədov Elçin, Muradov Şahid, Musayev Xanlar, Abışov İntizam, Həsənov Mehdi, Abışov Adil, Həşimov Gəray, Əliyev Babək, Əliyev Vadim, Abbasov Azad, Məmmədov Səlim, Quliyev İmran, Rzaquliyev Təyyar, Azadov Allahverdi, Əliquliyev İsmayıl, Əliyev İldırım, Hüseynov Məhəmməd, Şükürov Maarif, İsmayılov Fazil, Hüseynov Fəxrəddin, Hüseynov Elnur, Qasımov Musa, Əliyev Sərxan, Orucov Rüstəm, Məmmədov E'tibar, Quliyev Muğan, Mirzəyev Fehruz, Adilov Şükür, Zeynalov İsrail, Rəcəbov Maarif, Məmmədov İlqar və başqaları ağır döyüş yolu keçmişlər.

Hazırda "N" hərbi hissəsi ilə birlikdə müdafiə mövqeyində dayanırıq. Şö'bəmiz və əməkdaşlarımız dəfələrlə hərbi hissənin fəxri fərmanına və təşəkkürünə layiq görülüb. Biz Xocalı faciəsi ilə yaşaya-yaşaya qisas gününün qiyamətə qalmasını istəmirik. Getdikcə mətinləşir, ərləşirik. Bu qisası ermənilərdə qoya bilmərik. Necə ki, varıq, vuruşmalı, torpaqlarımızı geri qaytarmalıyıq. Nicat yolumuz budur. Şəhid polis əməkdaşlarımızın xatirəsini unutmur, onların adlarının əbədiləşdirilməsi üçün bir çox tədbirlər görürük.

Xocalı işğal olunmaya bilərdimi — sualı həm asan, həm də çətindir. Ermənilər Xocalını işğal edə bilsəydilər, 18 sentyabr 1988-ci ildə işğal edərdilər. Həmin vaxt 10 minə yaxın erməni Xocalıya hücuma keçmişdi. Onlar Xocalının qeyrətinə və gücünə həmin gündən bələd olmuşdular. Xocalı alınmaz bir qala idi. Bu qala satqın qüvvələrin gücü, rus hərbi birləşmələrinin köməyi ilə məhv edildi. Xocalı qorunurdu. Xocalı əzm və dəyanətini itirmirdi. Xocalılar yada bir qarış da olsun torpaq vermək fikrində deyildi. Xocalılar Qarabağ müharibəsinin ana xəttini təşkil edirdi. Bu ana xətt bütün Azərbaycan xalqı tərəfindən müdafiə edilib qorunmalıydı. İşğal olunmamışa qədər bütün qüvvələr Xocalıda cəmləşməli, tikinti aparmaq yox, silahlanmaq lazım idi.



Azərbaycan Milli Kitabxanası



**Murad Əliş oğlu Şükürov**: *Xocalı TŞ-nin müdiri, "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.*

— 1992-ci ildə Xocalıdan çıxanda yaralandım. Hərbi xəstəxanada olanda jurnalist Aydın Sadiqlə söhbət etdik ki, Xocalının 4 ilini (1988-1992), 4 gününü (25—28 fevral 1992-c il), 40 gününü (ümid edirdik ki, 40 günə Xocalıya qayıdacağıq) əks etdirən bir əsər işləyək. Lakin sonradan bütün ümidlərimiz puça çıxdı.

1988-ci ildə Qarabağ ermənilərinin açıq şəkildə başladıqları nümayişlər bizi sanki ayıltdı. Beş nəfərdən ibarət Müdafiə Şurası yaratdıq. Bu şura gizli şəkildə fəaliyyət göstərirdi. Şuranın üzvləri Elman Məmmədov, Murad Şükürov, Yavər Əzimov, Eldəniz Allahverdiyev və Ələsgər Novruzov idi. Həmin dövrdə həm Azərbaycan hökuməti, həm də rus hərbiçiləri mülki əhalidən silahları yığırdılar. Ona görə də gizli fəaliyyət göstərmək məqsədəuyğun idi. Xocalının özünün müdafiə strukturunu yaratdıq. Şura 1988-ci ilin sentyabr ayının 18-ə qədər gizli surətdə fəaliyyət göstərdi.

1988-ci il sentyabrın 18-də ermənilərin Xocalıya kütləvi şəkildə ilk hücumu günü Müdafiə Şurası açıq fəaliyyətə başladı. Toqquşma nəticəsində Xocalıdan nisbətən az adam yaralandığına görə Mərkəzi Komitənin katibi Əbdürrəhman Vəzirov bizi günahlandırdı. Səkkiz nəfər azərbaycanlını həbs etdilər. Bundan sonra vəziyyəti təhlil edib, silahlanmanı gücləndirmək və şuranın fəaliyyət dairəsini genişləndirməyi qərara aldıq.

O zaman üç nəfər — mən, Elman müəllim, Rafiq Mürsəlov, Ə.Vəzirovun qəbulunda olduq. Çox çətinliklə olsa da onu inandıra bildik ki, bizdə günah yoxdur. Xocalının sosial inkişafını yaxşılaşdırmağa dair məsələ qaldırdıq və Mərkəzi Komitə bu barədə xüsusi qərar qəbul etdi. Bu qərar Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin hamısına şamil edildi. Bu bizi çox sevindirdi. Çünki həmişə iqtisadi çatışmazlıq burulğanında çabalayırdıq. Həm də inanırdıq ki, dara düşsək Azərbaycan hökuməti bizi müdafiə edəcəkdir. O vaxt artıq Xocalının özünümüdafiə dəstələri formalaşmışdı və biz 1992-ci il fevral ayının 25-ə qədər Xocalını müdafiə edə bildik.



Artıq 20-dən artıq post yaratmışdıq. Həmin postlara vəzifəli şəxslər birbaşa cavabdeh idilər. Malıbəyli faciəsindən sonra qərara aldıq ki, müdafiəni daha da gücləndirək. Axşam Elman Məmmədov, Tofiq Hüseynov və Əlif Hacıyevlə yığışıb məsləhətləşdik. Müdafiə Nazirinin tez-tez dəyişməsi belə qənaət yaradırdı ki, artıq Azərbaycanda hakimiyyət boşluğu vardır.

25 fevral 1992-ci il gündüz saat 10 radələrində respublika televiziyasının diktoru Hicran Hüseynovla telefonla danışdım və dedim ki, bəlkə də bu bizim sizinlə son danışığımızdır. Çünki əlaqə yaratmaq mümkün deyildi. Telefonla danışdıqdan sonra belə qərarlaşdırdıq ki, Xocalının ətrafında olan yüksəkliklərdə tonqallar çataq, onunla Azərbaycanı bizə köməyə haraylayaq. Təəssüf ki, həmin gecə düşmən Xocalıya hücuma keçdi. Elə o andaca postlarla əlaqələr yaratdıq. Həm də tapşırıq verdik ki, texnikaya atəş açılmasın.

Xankəndində yerləşən tanklar hər tərəfdən üstümüzə yeriyirdi. Belə fikirləşirdik ki, texnika atəşi dayandırdıqdan sonra piyadaların hücumunun qarşısını alacağıq. Və buna tam əmin idik. Təxminən gecə saat 3-ə qədər ancaq texnikadan atəş açırdılar. Artıq Xocalı bütövlükdə od tutub yanırdı.

Ermənilər şəhərin içərisinə doğru irəliləmişdilər. Onlara atdığımız atəşdən nə yaralanır, nə də ölürdülər. Çünki "bronejilet"lər bədənlərini qoruyurdu. Hazırlıqlı idilər. Kinolarda gördüyümüz alman əsgərləri kimi tam hazırlıqlı vəziyyətdə vəhşicəsinə şəhərin içərilərinə doğru yeriyirdilər.

Artıq camaatı yeraltı qazmalardan çıxartmağa başladıq. Camaatın çox hissəsi Kətik meşəsi istiqamətində şəhəri tərk edirdi. Müdafiə etdiyim evdə 60-a yaxın arvad-uşaq var idi. Onları çıxartmaq lazım idi. Qardaşım Əfqan dedi ki, geriyə çəkilmək və mülki əhalini xilas etmək lazımdır.

Bizim dəstə Xocalıdan çıxanda artıq səhər idi. Biz Kətik meşəsinə çıxdıq və fikirləşirdik ki, Ağdamdan kömək gələcək və geriyə qayıdacağıq. Əfsuslar olsun ki, meşədə nə qədər gözlədiksə, yenə də kömək gəlmədi ki, gəlmədi...

Biz şəhərdən çıxsaq da beşmərtəbəli binada qızğın atışma gedirdi. Meşənin Ağdama aşan yüksəkliyində ermənilərlə qarşılaşdıq və geriyə — Xocalıya istiqamət götürdük. Axşama qədər meşənin içində gözlədik. Düz dörd gün 6 erməni kəndinin mühasirəsindən çıxa bilmədik. Nə yemək, nə də su vardı. Əlsiz-ayaqsızların ağır vəziyyətini sözlə ifadə etmək qeyri-mümkündür. 250 nəfərlik bir



Azərbaycan Milli Kitabxanası

dəstə idik. Biz silahlılar həmin dəstəni müdafiə edə-edə mühasirədən çıxartdıq. Yaralanan və itkin düşənlərimiz də oldu. Artıq ümidsizlik bizi çulğamışdı. Hər dəfə vertolyot səsi eşidəndə paltarlarımızı çıxardıb yelləyirdik ki, bəlkə bizim köməyimizə çatalar, heç olmazsa əlsiz-ayaqsızları çıxardarlar...

Yaralanan və donmadan ölənlərin sayı get-gedə artırdı. Bir neçə donmuş adamın meyidini də özümüzlə aparırdıq. Bir gün kəşfiyyat xarakterli axtarış apardıqdan sonra yol tapıb Ağdama çıxa bildik.

Sonradan bir məsələ ətrafında çox düşündük. Azərbaycan hökuməti niyə belə bir oyunu oynayırdı? Lakin bu suallara cavab tapa bilmirdik. Stol, kürsü, pul qazanmaq xatirinə Xocalını elə dəhşətli qırğına düçar etmək ağıla sığan bir iş deyildi. Daha doğrusu o müdhiş dörd gündə çəkdiyimiz əzabları yazmaqda qələm də acizlik çəkir. İnsan qanı ilə alver etmək olmaz. Çünki nahaq qan yerdə qalmaz və Xocalının qisası alınacaqdır! Mən buna inanır və ümid bəsləyirəm.



**Rafiq Cəlal oğlu Mürsəlov** — *Xocalı rayon Aqrar Sənaye kombinatının direktoru:*

— O dağlarda, o yerlərdə bizim doğma yurdlarımız, dağdan ağır ellərimiz, obalarımız, varımız, dövlətimiz var idi. Yaz gələndə qoyun sürülərimizin bir ucu Laçın, Qırxqız, Meydan, Qaragöl, Kotanqayada olanda, o biri ucu isə Ağdam, Ağcabədidə olardı. Dağıldı yurdlarımız, oda qalandı ellərimiz, talandı var-dövlətimiz. Qırxqız adı çəkiləndə var yerimdən yox oluram. Oraların hər daşına, qayasına bələdəm. Uşaqlığım və gəncliyim o yerlərdə keçibdir. İndi yana-yana, qovrula-qovrula o yerləri anırıq. Sitəm insan üçün yaranıbdır, ancaq bizə olan sitəm Yer kürəsində yaşayan xalqların heç birinə olmamışdır. Xocalının başına açılan müsibət isə nə Xatın, nə də Xirosima müsibətinə oxşayır.

Xocalı işğal olunmaya bilərdi. Xocalının bələkdəki çağası da vuruşurdu, ac qalırdı-dözürdü, anası süddən kəsilirdi, o yenə ağlamırdı, ana laylası altında yatırdı. O da dərk edirdi ki, Xocalı od



içindədir. Mənim Volski, Polyaniçko ilə dəfələrlə görüşlərim olub. Onlar üzdə özlərini bizə dost kimi göstərsələr də düşmən kəsilmişdilər bizə. Onlar Xocalıdan qorxur və çəkinirdilər. Bilirdilər ki, Xocalı qana - qanla cavab verməyi bacarır.

Xocalı satqınlığın və xəyanətin qurbanı oldu. Qarabağı Azərbaycan emissarları, daha doğrusu, o dövrün vəzifə sahibləri Moskvaya, Ermənistana bəxşiş etdilər. Azərbaycan xalqının namusu, qeyrəti olan müqəddəs torpaqlarımızı almalıyıq. Biz Xocalıda böyük Xocalı abidəsi tikməli, keçmiş şöhrətimizi özümüzə qaytarmalıyıq.

**Cəfər Cəfərov** — *Xocalı 2 saylı orta məktəbin sabiq direktoru:*
— 25 fevral 1992-ci il... Zülmət gecə, 23—24 radələridir. Qaranlıq gecənin bağrını şimşək kimi dəlib keçən tankların, topların mərmilərin səsindən yer-göy lərzəyə gəlir. Körpə iniltisindən, qadın naləsindən qulaq batırdı. Xocalı cəhənnəm alovunda köməksiz, kimsəsiz inildəyə-inildəyə yanırdı. Dinc əhali isti ocağından baş götürüb qarlı meşələrə üz tutur, Azərbaycan susur, Xocalının naləsinə hay vermirdi. Ayağı yer tutanlar qaçır, qocalar, xəstələr isə amansız düşmənin əsiri olur, diri-diri öz evindəcə yandırılırdı. Belə dəhşətli gecədə qoca, xəstə ata-ananı itirənlərdən biri də mən oldum.

Xocalı faciəsini xatırladıqca, bu qanlı qırğına rəvac verənlərə lə'nətlər yağdırıram. Vətən çörəyini onlara haram sayıram. Xocalı işğal olunmaya bilərdi. Xocalı özü mühasirədə olsa da müdafiəsini yaxşı təşkil etmişdi. İcra başçısı Elman Məmmədov dəfələrlə Gəncədən vertolyotla silah, patron gətirmişdi. Qorunurdu Xocalı. Ermənilərin uzaqvuran silahlarına biz avtomatla cavab verirdik. Fevral ayının 10-a qədər ermənilər qaçırdılar. Fevral ayının 11-də Malıbəyli yandırılanda bizimkilər hücum edib Əsgəranı götürmək istəyirdilər, ancaq respublika rəhbərləri buna yol vermədilər. "Səhər çayımızı orada içəcəyik", — deyərək aldatdılar xocalıları. Ağdamda güclü hərbi qüvvələr var idi. Bu qüvvələrin gücündən istifadə edib, Əsgəranı götürüb Xocalını xilas etmək olardı. Minlərlə əhalisi olan Xocalı məhv oldu. Hər il matəm gününü qeyd edirik, lakin biz Xocalını düşmən tapdağından xilas olmuş görmək istəyirik.



Azərbaycan Milli Kitabxanası

**Zahir Usubov** — *Xocalı şəhər İH-nin Mingəçevir şəhəri üzrə nümayəndəsi, "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.*

Xocalı XX əsrin ən dəhşətli faciəsidir. Deyirlər ki, Allah bir millətə zülm etmək istəyəndə əvvəlcə onun ağlını əlindən alır. Bu ağılı Allah bizdən çoxdan almışdı. Çoxlarımız erməni qızları ilə evlənib nəsil artırırdıq. Bunun verdiyi acı nəticələrin ağrısını indi çəkirik.

Azərbaycanın, Qarabağın tarixini bilmək istəyənlər Xocalının tarixini oxusunlar. Lenindən bizə baba olmazdı, ancaq düz yetmiş il onu özümüzə baba edib boyunu sevdik. Bizim babamız Şah İsmayıl Xətai, Cavad xan, Atatürk, Mirzə Camal Cavanşir, Heydər Əliyevdir. Bu babalarımızın inamına tapınmalıyıq.

Dünyanın cənnəti Azərbaycan olduğu kimi, Azərbaycanın cənnəti Qarabağdır. Xocalı şəhidlərinin ruhu imamlarımızın ruhu kimi müqəddəsdir. Bu ruhların xatirinə Qarabağı almalıyıq! Qarabağ Arazla Kürün qovuşduğu yerdən Zəngəzura qədər 15 rayonun ərazisini əhatə edir. Qarabağın ən gözəl yeri Bozdağ, Qırxqız, Kirs, Sarıbaba, Meydan dağlarıdır. Ulu tarixə və mədəniyyətə malik olan Xocalı da burada yerləşir. Xocalı Gəncə və Təbriz yolunun keçidindədir. Xocalının altında böyük bir şəhərin qalıqları var. Lap aşağıdan altından isə böyük çay axır. Xocalı ulu qaynaqlara söykənən qədim yurd yerimizdir. Məkrli ermənilər üzümüzə gülə-gülə tariximizi, Xocalımızı məhv ediblər. Xocalı xanımlıların, alılaрın, zəngəzurluların, dərəələyəzlilərin, biçənislilərin, kəngərlilərin ulu babalarının torpaqlarıdır. Xocalı Milli qəhrəman Əlif Hacıyevin, Tofiq Hüseynovun, İnqilab İsmayılovun, Araz Səlimovun, Füzuli Rüstəmovun vətənidir. Xocalı general-leytenant Ramil Usubovun, Elman Məmmədovun, Xəqani Səlimovun, Göyüş Həsənovun və Cavid Əliyevin vətənidir. Xocalının mərd ərənləri tarixi torpaqlarını almağa hazırdır. XVII əsrin fransız səyyahı və tarixçisi Xocalını dünyanın ən müqəddəs və tarixi məkanı adlandırmışdı. XV əsrin yadigarı olan Hacı Əli kümbəzi, Cahan ocağı, Allahverdi bəyin bağı, Əhməd bulağı, Qaladərəsi, Qızlar bulağı, Atəş bulağı, Rəhimin bulağı, Qarqar çayı, fatehlər fatehi Teymurləngin dincəldiyi Xocalı yaylası, Səfiyar bəyin otlaqları, Abdulla kişinin vətəni indi girovdadır. Azad etməliyik girov torpaqlarımızı.

Xocalı tarixinin gözəl bilicisi rəhmətlik Şöhlət Həsənovun zəngin kitabxanası məhv oldu. Haça təpənin yanında şəhər darvazasının daşı, Çınqıl qəbiristanlığı, Təpələr Kurqanı, Cəfər təpə çınqılı, 3 metr dərinlikdən çıxan təpəgöz skeletləri gözlərimin önündən keçir. Xocalı Seyid Calal torpağıdır. Müqəddəsdir o torpaqlar. Yağı düşmənin ayaqları kəsilməlidir o yerlərdən.



**Göyüş Həsənov** — *Xocalı rayon İH-nin müavini:* — Xocalı Dağlıq Qarabağın qalası idi. Dörd il Xocalı uğrunda çarpışdıq, ancaq zəhmətimiz hədər getdi. 1991-ci ilin noyabr ayı idi. Stepanakertə on vaqon benzin aparırdılar. Camaat bundan xəbər tutub qatarın qabağını kəsdi. Yeddi yüz ton benzini Stepanakertə buraxmaq azərbaycanlıların məhvi demək idi. Hökumət adamlarının ciddi sə'ylərinə baxmayaraq, biz həmin benzini Ağdama qaytardıq. Rus hərbçiləri bizim döyüşkən adamlarımızı həbs etdilər. Onları çox çətinliklə azad etdirdik. Sonra həmin benzini gizli şəkildə Ağdamdan yenə də Stepanakertə çatdırdılar.

Artıq sursatımız tükənmişdi. Rəhmətlik Aydın Məmmədovu un və benzin gətirmək üçün Ağdama göndərdik. O, zəng vurub dedi ki, hamısını hərbçilərlə göndərdim. Sonradan öyrəndik ki, unu və benzini Stepanakertə aparıblar. Biz — Tofiq Hüseynov və Aqil Quliyevin köməyi ilə on səkkiz nəfər hərbçini girov götürüb tərksilah etdik. Zaqafqaziya üzrə 4-cü alayın komandiri Popovu da girov götürdük. Ruslar səhərisi hücuma keçib polis şö'bəsini tutdular. Tofiqlə Aqilin dəstəsi bir anın içərisində polis şö'bəsini rus qoşunlarından azad etdilər. Onlar ələ keçirdiyimiz hərbi sursatı almağa cəhd edirdilər. Tofiq avtomatı çəkib dedi ki, "теперь я буду командовать". Həmin hərbiçilərin silahlarını alıb vertolyotla Gəncəyə yola saldıq. Dekabr ayının 2-də Dadaş Rzayev Tofiqi telefona çağırıb texnikanın, hərbi sursatın qaytarılması əmrini verdi. Bir azdan Popovun dəstəsi silahlanmış vəziyyətdə bizimlə danışığa gəldi. Popov dedi ki, "в Ходжалы сейчас кашу сварю". Lakin biz də ona layiqincə cavab verdik. Çox götür-qoydan sonra iki ədəd "BRDM"-i buraxdıq. Bizə heç bir kömək etmədilər.

Xocalı özünümüdafiə dəstəsinin döyüşçüləri və onların kəşfiyyatçıları qorxu bilmədən döyüşürdülər. Əsgəranın alınmasında respublika rəhbərliyi öz acizliyini e'tiraf etsəydi, biz Əsgəranı vaxtında dağıdıb Xocalı ilə Ağdamın arasını azad edərdik. Əfsuslar olsun ki, bizi aldatdılar, Xocalı soyqırımına şərait yaratdılar. Xocalı satqınlığın qurbanı olmasaydı, işğal olunmazdı.



Azərbaycan Milli Kitabxanası

**Məmməd Nağıyev** — *Xocalı şəhər poliklinikasının baş həkimi:*

— Xocalının adı çəkiləndə elə bil məni elektrik cərəyanı vurur. 1992-ci il fevral ayının 26-da misli görünməmiş qırğın törədildi Xocalıda. Əlif Hacıyevin, Tofiq Hüseynovun, Aqil Quliyevin dəstələri nə qədər mərdanəliklə döyüşsələr də, bu hücumun qarşısını almaq mümkün olmadı. Döyüşün mə'nasızlığını dərk edən döyüşçülərimiz geri çəkilməyə məcbur oldular. Ermənilər xocalıların çıxış yollarını bildiklərinə görə həmin yerlərdə əhalini vəhşicəsinə güllə-baran etdilər. Onlar xocalılardan yanıqlı idilər. Çünki Xocalı onların cavablarını layiqincə verirdi. Əlif, Tofiq, Natiq, Araz, Mikayıl, Murad, Aqil, Hikmət, Zamin, Davud və başqa qəhrəman oğullar heç ağıllarına da gətirmirdilər ki, Xocalı kimi müqəddəs bir torpaq ermənilərə satıla bilər. İnana bilməzdik ki, o vaxtkı iqtidar isti otaqlarında, rahat kürsülərində əyləşib, vəzifələrinə görə böyük strateji, tarixi əhəmiyyətə malik Xocalını yadlara satsınlar.

Əgər dövlətimizin rəhbəri Heydər Əliyev olsaydı, Xocalı soyqırımı baş verməyə bilərdi. Biz inanırıq ki, dünya miqyasında qəbul olunan sülh siyasəti ilə möhtərəm prezidentimiz torpaqlarımızı azad edib, bizi öz yurdlarımıza qaytaracaqdır.

Mən 1991-ci ildən 1995-ci ilin axırına kimi Milli ordumuzda ön cərgədə həkim kimi xidmət etmişəm. Xidmətlərimə görə "Milli Qəhrəman Əlif Hacıyev adına mükafat"a, "Respublikanın fəxri əməkdar həkimi" adına layiq görülmüş, "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşam. Ancaq mənim üçün ən böyük mükafat düşmən tapdağı altında olan torpaqlarımızın, o cümlədən Xocalımızın azad olunmasıdır. Bu, gec-tez olmalıdır.



**Felmar Şahmar oğlu Rzayev** — *Xocalı döyüşçüsü, "İgidliyə görə" medalı ilə təltif olunmuşdur. Xocalı rayonu üzrə "Qarabağ Əlilləri Cəmiyyəti"nin sədri:*

— Qarabağ hadisələri başlananda mən Həsənabad kəndində yaşayırdım. Həsənabad işğal olunduqdan sonra Xocalıya köçmüşəm. Həmişə də erməni münaqişəsinin mərkəzində fəaliyyət göstərmişəm. Volski hökuməti təhlükəli cani kimi mənim axtarışımı e'lan etmişdi. Xocalı döyüşçüləri misli görünməyən



qəhrəmanlıqlar göstərirdilər. Mən ermənilərin iç üzünə yaxşı bələdəm. Onlar tülküdən də qorxaq bir məxluqdurlar. Atalar yaxşı deyib ki, arxalı köpək qurd basar. Ermənilər arxalarına, bizim içərimizdə olan satqınlara güvənib Xocalı, Qarabağ faciəsini törətdilər. Döyüşçü dostlarımla keçirdiyim əməliyyatlarda ermənilərin necə qorxaq, yaltaq, ikiüzlü, satqın olmalarını görmüşəm.

Azərbaycan hökuməti də ermənilərə o zaman az kömək göstərmədi. Volski və Polyaniçko hakimiyyəti də az ziyan vurmadı bizə.

Bizim cəmiyyətin üzvləri bu gün də döyüşə atılmağa hazırdırlar. Baxmayaraq ki, hamımız əlilik. Bizim yerlər o qədər gözəl, o qədər füsunkar idi ki, ondan heç zaman doymaq olmurdu. Biz qeyrət qılıncını paslanmağa qoymamalıyıq. Ermənilər bizdən yenə də qorxurlar. Bəlkə də o qorxu hissi bu gün də onların canından çıxmayıbdı.

Qarabağa qayıtmalıyıq. Gələcək nəslimizin ittihamlarından xilas olmaq üçün almalıyıq Qarabağı, Xocalını, Laçını, Şuşanı... Gələcək nəslə o torpaqları hədiyyə edib, möhkəm-möhkəm amanatlamalıyıq...



**Atakişi Atakişiyev** — *Xocalı şəhərinin sabiq prokuroru:*

— Xocalı şəhid şəhərdir. Bu şəhid şəhərin ruhuna həmişə dualar oxunmalı, yad edilməlidir. Od içində odlara qalanan bu şəhərin faciəsi Xirosima, Xatın faciələrindən də dəhşətli bir faciədir. Özlərini sivil ölkələrin demokrat sakinləri adlandıran dünya siyasətçiləri Xocalı dəhşətlərinə göz yumdular, onun düzgün siyasi qiymətini vermədilər. Bu qiyməti möhtərəm prezidentimiz Heydər Əliyev verdi.

Xocalıda törədilən bu vəhşilik mübariz, yenilməz Azərbaycan xalqının əzm və dəyanətini qırmaq məqsədi ilə edildi. Acı təəssüf hissi ilə qeyd etməliyəm ki, Xocalının, bütöv Azərbaycan xalqının, Türk dünyasının başına açılan bu müsibət o dövrdə Azərbaycana rəhbərlik edən və damarından Azərbaycan qanı axmayanlarımızın fərsizliyi ucbatından baş verdi. Qarabağ müharibəsi zamanı respublikanın yuxarı dairələrinə etdiyimiz müraciətlərin hamısı



Azərbaycan Milli Kitabxanası

cavabsız qalırdı. Bütün bunlara baxmayaraq, biz yenə də haray qoparır, onlardan kömək diləyirdik. Demə etdiyimiz bütün cəhdlər əbəs imiş.

Xocalı bir əsrin yox, milyon illərin faciəsidir. Bu faciənin miqyası o qədər genişdir ki, onu heç nə ilə müqayisə etmək olmaz. Xalqımız əsrlər boyu əsarətə, zülmə qarşı mübarizə aparıb, kütləvi qırğınlara mə'ruz qalıb, ancaq belə bir qırğınla heç bir zaman rastlaşmayıb. Erməni faşistlərinin törətdiyi bu cinayət beynəlxalq məhkəməyə verilməli, onlar törətdikləri tarixi cinayət qarşısında cavab verməlidirlər.

Xocalı arxasızlığın, köməksizliyin qurbanı oldu. Mərd xocalılar sinələrini güllələrə tuş etdilər ki, qorunsun Xocalı. Xocalı təkcə xocalıların yox, bütün Azərbaycan xalqının idi. Bütün xalq ayağa qalxıb qorumalıydı Xocalını. Heyf, qorunmadı. Xocalı əsir düşdü...



**Əlisaab Səftər oğlu Orucov** — *Baş Ədliyyə müşaviri, Respublika Notariat və VVAQ İdarəsinin rəisi:*

— Qarabağ işğal olunmamalı idi. Biz çalışırdıq ki, nəinki Xocalı, heç bir ərazimiz işğal olunmasın. İşğal sözünü təsəvvürümə gətirə bilmirdim. Böyük bir xalqın torpağını bir ovuc erməninin zəbt etməsi gülünc bir oyundur.

O dövrün rəhbərləri öz kürsülərini qorumaq üçün Moskvanın diqtəsi ilə oturub-dururdular. Ə.Vəzirovun vaxtında A.Volskinin, A.Mütəllibovun hakimiyyəti dövründə isə V.Polyaniçkonun ermənilərin Qarabağ uğrunda apardıqları müharibəyə başçılıq etmələri xalqımız üçün sonu görünməyən dəhşətli bir bəlanın başlanğıcından xəbər verirdi. Qarabağa rəhbərliyi o vaxtkı rəhbərlər birbaşa öz üzərlərinə götürməli və yaxud özümüzün layiqli nümayəndələrindən birinə tapşırmalı idilər.

A.Volski altı ay idi ki, Xankəndinə gəlmişdi. O, həmin müddətdə Xankəndində oturub yerli şəraitin psixoloji, maddi, fiziki, siyasi, hüquqi cəhətlərini öyrəndi, Xüsusi İdarəetmə Komitəsinin yaranması şərtlərini tam reallaşdırdı.

Nəhayət 12 yanvar 1989-cu ildə Yuxarı Qarabağda Xüsusi İdarəetmə Komitəsi yaradıldı. Bu xətt Moskvanın ermənipərəst



siyasətinin ilk başlanğıcı idi. Bu komitənin xüsusi xətti, hüquqi cəhətdən səlahiyyətlərini müəyyən edən konstitusion bir sənəd yox idi. Çünki onun işləmə mexanizmi də yox dərəcəsində idi. A.Volski keçmiş vilayətdə ən ali vəzifələri yerinə yetirir, hesabatı isə birbaşa Moskvaya verirdi.

DQ-da dövlət strukturlarının tabeçiliyi Moskvaya, müəssisə və təşkilatlar isə Yerevana tabe etdirilməyə başlanıldı, onun Azərbaycana tabeçiliyi isə tamamilə ləğv olundu. Bu birbaşa respublika rəhbərliyinin vasitəsi ilə həyata keçirilirdi.

Volskinin hakimiyyəti dövründə azərbaycanlılar vilayətin ərazisində bütün iş yerlərini itirdilər. Xankəndində evləri talan-qarət edilib yandırıldı, özləri isə doğma ocaqlarından deportasiyaya mə'ruz qaldılar. Həmin dövrdə azərbaycanlılara qarşı mə'nəvi terrorlar başlanıldı. Onlar həyati və insani hüquqlardan məhrum edildilər.

18.09.1988-ci ildə minlərlə silahlı erməni Xocalıya hücuma keçdi. Xocalıdan layiqli cavablarını alıb itki verərək geriyə çəkildilər. Həmin il sentyabrın 21-də Xocalıya cavab olaraq Xankəndində 65 şəxsi, 188 dövlət sektorunda olan azərbaycanlıların evləri yandırıldı.

O zaman Azərbaycan KP MK-dan qəti şəkildə tələb etdim ki, azərbaycanlılar daimi yaşayış və iş yerlərinə qaytarılmalıdırlar.

— Силами подразделений Министерства Внутренних Дел Республики обеспечить в области верховенство закона;

— Возвратить в места постоянного проживания и трудоустроить лиц азербайджанской национальности и т.д.

Belə tələblər rəhbərlik tərəfindən laqeyd qarşılanırdı.

Artıq SSRİ və Ermənistan hökuməti, xarici ölkələrdə erməniləri dəstəkləyən qüvvələr məqsədlərinə doğru sür'ətlə irəliləyirdilər. A.Volski Qarabağda Moskvanın bütün tapşırıqlarını tam yerinə yetirmişdi. XİK-nin ləğvi, müvəqqəti Respublika Təşkilat Komitəsi yaratmaq planı reallaşmışdı. Bundan məharətlə istifadə edərək SSRİ Ali Soveti Rəyasət Hey'ətinin 28 noyabr 1989-cu il tarixli qərarı ilə XİK-i ləğv olundu, əvəzində Respublika Təşkilşat Komitəsi yaradıldı, Moskva rezidenti V.Polyaniçko isə ona rəhbər tə'yin olundu.

Əlavə: Volskidən sonra Polyaniçkonun Qarabağa rəhbər tə'yin edilməsi həm əxlaqi, həm hüquqi, həm də milli psixoloji cəhətdən barışılmaz bir hal idi. Polyaniçkonun fəaliyyəti dövründə Əlisaab Orucov və onun kimi yurdsevərlər hədələnir, tə'qiblərə mə'ruz qalır, Qarabağdan uzaqlaşdırılırdılar. Artıq Polyaniçko tərəfindən



Azərbaycan Milli Kitabxanası

Ə.Orucovun Qarabağ torpağına ayaq basmaması qəti şəkildə qadağan edilmişdir.

В.Поляничко:

— Что бы твои ноги не попали на земли Карабаха.

А.Оруджев:

— Что, эта ваша земля?

В.Поляничко:

— Да моя земля. Товарищ Оруджев, последний раз вас предупреждаю. Если еще раз появишся в Карабахе, уничтожу тебя, помни "друг" мой.

Təşkilat Komitəsi Xankəndində fəaliyyətə 2 ay 2 gündən sonra — yə'ni 20 Yanvar qırğınından sonra başladı. Bu təsadüfi deyildi. Qırğın ona görə törədildi ki, xalqın, mübariz əhval-ruhiyyəsi qırılsın, Qarabağ torpaqlarının verilməsi üçün real zəmin yaransın. TK-i bu vasitələrdən yerində, səmərəli istifadə edə bilsin. Bu qırğın xalqın əzm, vüqar və dəyanətini məhv etmədi, əksinə onu mətinləşdirib, azadlıq carçısına çevirdi.

*Qarabağda V.Polyaniçkonun rolu nədən ibarət oldu?*

Xankəndindən bütün azərbaycanlılar çıxardıldılar. Növbəti yaşayış məntəqələrimizin zəbti üçün real şərait yarandı. Həmin dövrdə Yuxarı Qarabağın ərazisində 10 mindən çox silahlı erməni birləşmələri yerləşdirildi və yerli erməni əhalisi müasir silahlarla tam tə'min olundular.

O vaxtkı iqtidar öz rolunu Moskvanın ssenarisi əsasında oynayırdı. Yuxarı Qarabağın bütün səlahiyyətlərini Moskva emissarlarına verməklə, Qarabağın əhalisinin təhlükəsizliyini, torpaqların qorunmasını, əhalinin müdafiəsini özlərindən uzaqlaşdırıb, nicat yolunu Moskvadan gözləyirdilər.

Beləliklə, Qarabağda Volski və Polyaniçkoya ən məs'ul vəzifə — komitə sədri vəzifəsi tapşırılır, azərbaycanlılara — məsələn, Musa Salam oğlu Məmmədova isə təsərrüfat işləri ilə məşğul olmaq səlahiyyətləri verilmişdi.

V.Polyaniçko gördü ki, Yuxarı Qarabağda azərbaycanlıları kəndlərdən bütünlüklə çıxartmaq asan iş deyil. Bunun üçün qanlı qırğınlar törətməyin vaxtı çatdığını görüb, öz işini bitmiş hesab edərək, 1991-ci ilin sentyabr ayında komandası ilə birlikdə Xankəndini tərk etdi.

Artıq Xocalı, Qaradağlı və başqa yaşayış məntəqələrimizdə kütləvi qırğınlar real bir gerçəkliyə çevrildi. Azərbaycanın o vaxtkı



rəhbərlərinin Moskvanın və ermənilərin mövqeyi ilə eyni mövqedə dayanması Xocalı qırğınının bünövrəsini qoydu.

Keçmiş Respublika rəhbərləri xalqımızın mə'nəvi-əxlaqi dəyərlərini vaxtında qiymətləndirə bilsəydilər XX əsrin Xocalı faciəsi baş verməzdi. Xocalı qorunurdu, lakin xəyanət toxumu burada da artıq öz işini görmüşdü.

Qarabağ faciəsi hissə-hissə araşdırılmalı, günahkarlar cəzalandırılmalı, qeyrətli oğullar isə layiq olduqları adları almalıdırlar.

Qarabağda baş verən bütün prosesləri izləyir, əlaqəmi kəsmirdim. Xocalı qırğını zamanı rəsmi dövlət informasiya vasitələri Xocalıda döyüş getdiyini, iki nəfərin həlak olmasını bildirirdi. Faciədən 3 gün sonra rəhmətlik Çingiz Mustafayevlə birlikdə Ağdama getdik. Camaatın köçhaköçü elə başlanmışdı ki, Xocalı qırğını yaddan çıxmışdı.

Bu, bilərəkdən belə təşkil olunmuşdu. Ağdamda Xocalı qırğınının dəhşətləri bizi sarsıtdı, dövlət informasiya vasitələrinin verdikləri mə'lumatların ağ yalan olduğuna əmin olduq. Həmin vaxt rəhmətlik Çingizlə çox iş gördük. Xarici ölkələrdən gələn informasiya vasitələri ilə əlaqələrimizi gücləndirib, Xocalı qırğınının əsil mahiyyətini bütün dünya ictimaiyyətinə çatdırdıq. Gəncədən və Bakıdan tə'cili vertalyotlar çağırdım. Həmin vertalyotlar yaralıların və meyitlərin çıxarılmasında əvəzsiz xidmətlər göstərdilər.

Biz sülhsevər xalqıq. Möhtərəm Prezidentimiz Heydər Əliyevin müdrik sülhsevər siyasətini dəstəkləyirik. Onun apardığı qlobal dünya siyasəti və bizim haqq işimiz qalib gələcək, qan tökmədən sülh yolu ilə torpaqlarımızı azad edəcəyik. Əgər sülh yolu ilə Qarabağı azad edə bilməsək, onun azadlığı uğrunda bir nəfər kimi silaha sarılmağa hazırıq. Biz Xocalıda, Qarabağda tökülən günahsız qanların qisasını almalı, torpağımızı azad etməliyik. Allah bizə güc və qüvvət versin.

**Sabir Surxay oğlu Məmmədov** — *Xocalı şəhər polis bölməsinin sabiq rəisi:*

— Ermənilər Azərbaycandan torpaq qopartmaq iddiası ilə Stepanakertdə meydanlara axışanda, bu işin mümkün olmasını heç bir vəchlə təsəvvür edə bilmirdik. Xocalı polis şö'bəsinin yaranması vacib idi. Ona görə də şö'bə yaradıldı. Şö'bə yaradılarkən adi tapançadan başqa heç bir silahımız yox idi. Ancaq buna baxmayaraq, əməkdaşlarımız müdafiə mövqelərində mərdi-mərdanə dayanır, qəsbkar ermənilərin cavabını lazımınca verirdilər. Həmin



Azərbaycan Milli Kitabxanası

dövrdə Yerevandan təyyarələr Xocalı aeroportuna gündə 27—30 reys edirdilər. Bu təyyarələr vasitəsi ilə ermənilər Stepanakertə hərbi sursat daşıyırdılar. Xocalı polisinin fədakar əməyi nəticəsində bu reyslərin sayı azaldılıb 4 reysə endirildi. Hətta Moskva bu məsələyə qəti e'tirazını bildirdi. Xocalı polisi isə öz inadından dönməyib, sərnişin reyslərindən başqa heç bir yük təyyarəsinin Xocalı aeroportuna enməsinə yol vermirdi. Ermənilər Xocalı polisini "Məhəmməd Əsədovun bandası" adlandırırdılar.

Yuxarı Qarabağda azərbaycanlılar yaşayan kəndlər və şəhərlər kompleks şəkildə müdafiə olunsaydı, Xocalı işğal olunmaya bilərdi. O dövrün siyasi rəhbərləri elə bil ki, açıq-açığına Yerevan və Moskva ilə sazişə girmişdilər. Mənə belə gəlir ki, onlar Azərbaycan xalqından və torpağından qisas almaq məqsədini güdürdülər. Məqsədlərinə də asanlıqla nail olub, Xocalı soyqırımını törətdirərək Yer kürəsində misli görünməyən qırğına rəvac verdilər. Bu cinayəti törədənlər tarix qarşısında cavab verməli, əsrlər boyu onların bu əməlləri lə'nətlənməlidir.



**Polis polkovniki Sadir Məmmədovun fikirlərindən:** — *1989-cu ildən 1992-ci ilə qədər Yuxarı Qarabağda bir çox əməliyyatlarına rəhbərlik edib:*

— Respublika Nazirlər Kabinetinin qərarına əsasən Yuxarı Qarabağın azərbaycanlılar yaşayan məntəqələrində şö'bələr yaradıldı. Xocalıda isə şəhər polis bölməsi təşkil olundu.

Bölmə yarandıqdan sonra 6 ay müddətinə bölmə üçün ikimərtəbəli, yaraşıqlı bina tikdirdik. Bu işdə bizə DİN-i, polis polkovniki Natiq Məmməd oğlu Talıbov yaxından kömək göstərdi. Sonradan həmin binadan həm də Dağlıq Qarabağ üzrə polis işçilərinin qərargahı kimi istifadə etdik. Hər həftənin 2-ci günləri müşavirə keçirir, əhalinin təhlükəsizliyini tə'min etmək üçün əməliyyat planları qururduq. Təhlükəsizliyi qorumaq naminə postların dislokasiyasını möhkəmləndirir, adi avtomatlar almaq üçün yollar axtarırdıq. Əməkdaşlara, ancaq tapança gəzdirməyə icazə verilirdi.

Qarabağda Azərbaycan polis əməkdaşlarının göstərdikləri fədakarlıqlar saysız-hesabsız idi. Yerli polis əməkdaşları və sakinlər



torpağımızın hər qarışı uğrunda mübarizə aparırdılar. Erməni və rus əsgərləri tərəfindən bizə qarşı hazırlanan bütün təxribatların qarşısını mərdliklə alırdıq.

İşğalın səbəbi Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin qeyri-sabit şəkil alması, ikihakimiyyətliliyin yaranması, vəzifə uğrunda gedən münaqişələr və eləcə də xarici düşmənlərimizin bu cür qeyri-sabit vəziyyətdən istifadə etməsi, daxildən isə Qarabağın müdafiəsinin arxa plana çəkilməsi, Azərbaycanın DQ-la əvvəlki əlaqələrinin məhdudlaşdırılması, peşəkar kadrların bu işdən kənarlaşdırılması, yuxarı vəzifəli təbəqələr arasında yaranmış münaqişələr artıq Qarabağın hissə-hissə, kəndbəkənd erməni və imperiya qəsbkarları tərəfindən işğal olunmasına tam şərait yaratdı.

Keçmiş vilayətdə yaşayan yerli əhali müdafiədə mərdanə dayanmışdılar. Azərbaycan Respublikasının keçmiş rəhbərləri sərhəd rayonlarında yaşayan əhaliyə istər mə'nəvi, istər hərbi, istərsə də digər cəhətdən kömək etmirdilər. Məsələn, 14 fevral 1992-ci ildən sonra Xocalı ilə Azərbaycan respublikası arasında əlaqələr tamamilə kəsilmişdi. Xocalı özü özünü tam müdafiəyə qalxmışdı. Əfsuslar olsun ki, respublika rəhbərliyinin fəaliyyətsizliyi nəticəsində erməni və rus (366-cı alay) hərbi birləşmələri Xocalını zəbt edib, XX əsrin ən dəhşətli faciəsini törətdilər. Bakıda isə həyat yenə də öz ritmi ilə davam edir, vəzifə davası, çəkişmələr daha da güclənirdi.

**Bəylər Rəşid oğlu Abbasov** — *DİN-in şö'bə müdiri, polis podpolkovniki:*

— 1991-ci ilin fevral ayında MTN-in Şuşa bölməsi yaradıldı. Şuşa rayon bölməsi əməliyyat yolu ilə Yuxarı Qarabağın ərazisində yaşayan azərbaycanlıların təhlükəsizliyini tə'min etmək üçün bütün vasitələrdən istifadə edirdi. Alınan informasiyalar tə'cili olaraq nazirliklərə çatdırılırdı.

Ermənilərin cinayətkar əməllərini ifşa edən konkret tədbirləri əməliyyat yolu ilə həyata keçirir, hər hansı silahlı basqının və terrorun qarşısını alırdıq. Əməliyyat tədbirləri nəticəsində 500 nəfərə qədər erməni qulduru zərərsizləşdirilərək həbs edildilər. Onların haqqında cinayət işləri başlanıldı. Bütün bu tədbirlər və cinayətkar əməllər haqqında rəhbərlik gündəlik mə'lumatlandırılırdı. Əfsuslar olsun ki, əsaslı heç bir tədbir görülüb həyata keçirilmirdi.



Azərbaycan Milli Kitabxanası

Bütün kəndlərin, eyni zamanda Xocalının işğalından 10—15 gün əvvəl faciələrin törədiləcəyi vaxtı, günü də müəyyən edir, mə'lumatları çatdırırdıq. Bu mə'lumatlarımız da cavabsız qalırdı. Hadisələrin cərəyanı Dağlıq Qarabağın Azərbaycan kəndlərindən başlayaraq Ağdam şəhərinə, oradan isə Bakıya yönəlirdi. Ağdamda fəaliyyət göstərən silahlı qüvvələr bir mərkəzdən idarə olunmadığı üçün, onların döyüş qabiliyyəti, gücü düşmənə qarşı operativ hücum və müdafiə taktikasını işləyə bilməzdi. Hadisələri Bakıda olan rəhbərlik əlinə almağa çalışsa da, buna nail ola bilmirdilər və səriştəsiz, bir-birini əvəz edən səhv addımlar ataraq düşmənə fürsət verirdilər.

Ayaz Mütəllibov hakimiyyətinin zəiflədiyini hiss edən müxalif qüvvələr siyasi mübarizəni unudaraq özlərinə silahlı dəstələr yaratmağa başladılar. Təəssüflər olsun ki, bu silahlı qüvvələr ayrı-ayrı siyasi qurumlara və məqsədlərə qulluq etdikləri üçün heç vaxt bir mərkəzdə birləşə bilmədilər.

Xocalı işğal olunmazdan 10 gün əvvəl iki nəfər Xocalı sakini mal-qaralarını Xocalıdan Ağdama keçirə bilmişdilər. Onlarla söhbətdən aydın oldu ki, real təhlükə lap yaxındadır. İdarənin rəisi Tofiq Babayevlə əməliyyat planı tərtib edib, xəritə üzərində lazımi işlər gördük, tam mühasirə vəziyyətində qalan xocalıları xilas etmək üçün tədbirlər planı hazırladıq. Əfsuslar olsun ki, bizi nə eşidən, nə də tədbir görən səlahiyyətli bir nəfərə rast gəlmədik. O zaman Ağdamda qərargah rəisi vəizfəsini icra edən Fəhmin Hacıyev bizim təklifimizi bəyənirmiş kimi bələdçiləri qərargahda saxlamağı lazım bildi. Lakin dəfələrlə tə'kid etməyimizə baxmayaraq, müxtəlif bəhanələrlə Xocalıya kömək etmək üçün heç bir tədbir görülmədi.

Siyasi qüvvələr silahlı dəstələri ilə xal qazanmaq üçün gözə kül üfürürdülər, yə'ni nə Şuşada Rəhim Qazıyevin, nə də Ağdamda olan Fəhmin Hacıyevin silahlı dəstələri Xocalının müdafiəsi üçün heç bir addım atmadılar.

Beləliklə heç bir aktiv tədbirlər görülmədiyi üçün səriştəsiz, səhv addımlar atıldığı üçün ermənilər o dövrün respublika rəhbərliyinin səhvlərindən məharətlə istifadə edərək kəndlərimizi bir-bir işğal etdilər və Xocalı soyqırımını törətdilər.





**İlqar Şəmil oğlu Məmmədov** — *polis starşinası:*

— Xocalı faciəsindən bu günə qədər Elman müəllimlə həmişə bir yerdə olmuşam. Biz Xocalını göz bəbəyi kimi qoruyurduq. Onun hər daşı, hər kəsəyi bizim üçün doğma və müqəddəs idi. Acı təəssüf hissi ilə deməliyəm ki, Xocalı laqeydliyin, biganəliyin qurbanı oldu.

Elman müəllim bütün dünyaya səs saldı ki, Xocalı əldən gedir. Ancaq onun səsinə səs verən tapılmadı. Həmişə də aldadıcı və'dlərlə bizi aldatdılar. Bu isə Xocalıya baha başa gəldi.

Qırğın zamanı adi avtomatla özümüzü müdafiə edirdik. Kətik meşəsində 35 nəfər əlsiz-ayaqsız adamı avtomatla müdafiə edə-edə Ağdama qədər sağ-salamat apardım. Yollarda öldürülənlərin sayı-hesabı yox idi. Qoca, uşaq, qadın namərdcəsinə, vəhşicəsinə qətlə yetirilmişdi. Bu qırğın yer kürəsində ən qəddar, ən vəhşi bir qırğın idi.

Xocalının müdafiəsində Xocalı polisinin mərd, mübariz, fədakar əməyi unudulmazdır. Xocalı polisi bu gün də əlində silah, soyuq səngərlərdə sərhədlərimizin keşiyində dayanıb. Xocalıya qayıdacağımız günü səbirsizliklə gözləyirik.

## Xaçmazın Xucalı kəndi Qarabağın Xocalı dərdini yaşayır

Xaçmazda Xucalı adında qədim bir kənd var. Sonralar bu kənd Gədəkli, Alekseyevka adlandırılsa da kənd orta məktəbinin ədəbiyyat müəllimi Qərib Aşkari Xocalı və Xucalının çox-çox qədimlərdən möhkəm tellərlə bir-birinə bağlı olduğunu söyləyir.

İste'dadlı kənd müəllimi əsrin ən qanlı hadisəsinə — Xocalı faciəsinə də biganə qalmamış, bu kəndin yetirmələri olan Milli Qəhrəmanlar Əlif Hacıyevin, Tofiq Hüseynovun, İnqilab İsmayılovun ölməz surətlərini mozaikanın dili ilə təsvir etmiş, həyətinin bir hissəsində Xocalı faciəsinə həsr olunmuş qala bürcü ucaltmışdır.

*"Qarabağ" qəzeti, 24 fevral 1995-ci il.*

## Könlüm keçir Qarabağdan

(Qarabağ rekviyemi)

*Ellər dağlara həsrət*

Qarabağın aran elləri Ağdamdan yön alıb hər yaz Xocalıya üz tutardılar. Xocalı müqəddəs bir ibadətgah kimi bu ellərin yolunu həmişə gözləyərdi. Azərbaycanın dilbər guşəsi olan Qarabağın Xocalı kəndi bu ellərin arxası, dayağı, ümidgahı idi. Xocalıdan iki yol ayrılaraq, biri Qırxqıza, o biri isə Laçına, Cermuxa, Dəlidağa doğru uzanırdı. Yaylaqlar özünün səxavətini bu adamlardan əsirgəməzdi. Qırxqız, Çiçəkli, Kirs, Sarıbaba, Eyvazlı, Meydan, Kotanqaya, Ayğır bulağı, Çınqıllı, Qaranlıq, Tozlu, Yağlıbulaq, Cəfərbəyli, Uzundərə, Qəbirli gədik, Dəmili dağ, Alçalı, Tək qəbir, Suarası, Cıdır, Məmmədbəyin gərdəni kimi ulu, müqəddəs yurd yerlərimiz hər yaz gül-çiçək açar, bəzəkli bir gəlin kimi sanki toy gününü gözləyərdi. O vaxtlar kimin ağlına gələrdi ki, 1988-ci ilin o qanlı-qadalı günləri naqis, insani hisslərdən həmişə uzaqda olan gəlmə ermənilərin əli ilə qana bulaşacaq. İnsan ayağına, at kişnərtisinə, ellərin çal-çağırına həsrət qalıb, qara çarşaba bürünüb qan-yaş tökəcəkdir.

Qarabağ oyunu başlandıqdan sonra köç yolları qorxulu oldu. Yolları ermənilər Əsgərandan, Badaradan, Xankəndindən bağladılar. 1989-cu ildən sonra bu yollarla hərəkət etmək qeyri-mümkün oldu. Kosmos əsrində Qarabağda daş müharibəsi başlanmışdı. Bu müharibə elləri dağlardan, dağları isə ellərdən ayrı saldı. Bu ayrılığın həsrəti ürəyimizdə sağalmayan, daim qövr edən bir yaraya çevrildi.

Qarabağ! Biz səni unuda bilmərik. Qaçaq Nəbi, Həcər, Sultan Bəy, Qaçaq Mahmud, Qaçaq Daşdəmir, Qaçaq Süleyman, Qaçaq Bəhram, Mirsaqulu kimi nərlərin at oynadıb erməniyə, Şura hökumətinə meydan oxuduğu anları yadındadırmı, Qarabağım? Biz də vuruşduq, ancaq sonluqda Səhl Sumbatların, Keçəl Həmzələrin, İvan və Pyotrların birliyini qıra bilmədik. Səndən ayrı düşdük.

Əsrimizin əvvəllərində fransızlar Xocalıdan keçərək Ballıcadan Laçın rayonunun Dəvəboynu sahəsinə araba yolu çəkiblərmiş. Qırmızı palıd meşələrini qırdırıb Xankəndinə daşıtdırıb, oradan isə Fransaya yola salırlarmış. Fransız mühacirləri — ata və oğul Qırxqızda öldürüldükdən sonra yadların ayağı bu yerlərdən kəsilmişdi. Əsrin əvvəlində talan olunan sərvətimiz, əsrin sonunda da talan-qarət edilir.



## Xankəndim, Kərgicahanım, hardasınız?

Xankəndi qədimdir, yoxsa Kərkicahan? Bu suala cavabı qədim Qarqar tayfasının adını daşıyan, bu günümüzə kimi soy-kökünü qoruyan qədim Qarqar çayının mövcudluğu sübut edir ki, hər ikisi qədimdir və bizə — azərbaycanlılara məxsusdur. Kərkicahan qədim Türk tayfasının adıdır. Qarqar çayı mənbəyini Qırxqız, Kirs, Sarıbabadan alaraq, Daşaltı çayı ilə Ağa körpüsündə, Xocalı və Hilis çayı ilə isə Xocalıda qovuşur. Tarixi qaynaqlara görə qədim qarqarlılar həm oturaq, həm də köçəri həyat keçirirmişlər. Qarabağda qədim Oğuz, Qarqar ellərinin maddi-mə'nəvi dəyərləri çoxdur.

Yuxarı Qarabağda üzə çıxan qədim Oğuz qəbirlərinin və başqa əşyayi-dəlillərin ermənilərə heç bir aidiyyatı yoxdur. Mən uzun illər Qarabağda yerləşən erməni qəbirləri üzərində tədqiqatlar aparmışam. Ən qədim erməni qəbir daşları son yüz iyirmi ildən o yana gedib çıxa bilmir.

Xankəndi Qarabağın axırıncı hakimi Mehdiqulu xanın torpağı olub. Xanbağı, Ağa körpüsü, Xan qızının bulağı kimi adlarımız Xankəndinin ərazisində bu günümüzə kimi yaşamışdır. Həmin torpaqlar Mehdiqulu xandan sonra onun qızı, vərəsəsi Xurşud Banu Natavana məxsus olmuşdur. Xan qızının Rusiyanın tə'sir dairəsindən kənara çıxmaması üçün çar hökuməti bütün vasitələrdən istifadə etmiş, onu çar qulluqçusu Xasay xan Usmiyevə ərə getməyə məcbur etmişdir. Ermənilər bütün vasitələrdən istifadə edərək Rusiyanın əli ilə kütləvi şəkildə Qarabağa köçmüşdülər.

Onlar bizim tarixi adlarımızın izini itirmək üçün hər cür vasitələrdən istifadə edirdilər. Arkadiy Volski Qarabağda Xüsusi İdarəetmə Komitəsinin sədri olanda Kərkicahan erməniləri (321 ailənin 38-i erməni ailəsi idi) ən qədim Xoylu qəbiristanlığımızı dağıdıb, sümükləri Volskinin qabağına töküb şivən qopartmışdılar ki, görün Türklər bizim qəbiristanlığı necə dağıdıblar? Hətta Volski də onlara qoşulmuşdu. Arxasızlığımızdan istifadə edən xain ermənilər çoxlu mə'nəvi dəyərlərimizi öz adlarına yazmışdılar.

1847-ci ildə Xankəndinin ərazisində Rusiyanın "Sunja" alayı yerləşdirilmişdi. 1933-38-ci illərə kimi Xankəndi azərbaycanlılar yaşayan ayrı-ayrı məhəllələrdən ibarət olmuşdur. Məşədi Musa, Çörəkçi Aslan, Lavaşçı Mürsəl, İsmayıl, Dükançı Umud, Usuf, Cəmil, Saçlı arvad, Zabitə arvad, Cərrah Rüstəm, həkim Mirzə Cavad (nəvəsi Leyla xanım son illərə kimi Xankəndində tibb bacısı



Azərbaycan Milli Kitabxanası

işləyirdi, həmin nəsildən salamat qalan o idi), Məhəmmədağa, İmran Ağa (məşhur kamança çalan olub), Novruz Ağa, Əkbər Ağa, Bəhmən Ağa əslən Xankəndindən olublar. Kərim bəy Qalabəyov, Xanlıq Muxtar, Xanlıq Səlim, pristavın katibi Tağı kimi şəxsiyyətlərin izləri Xankəndindən ermənilər tərəfindən tamamilə silinmişdir. Zaman-zaman onlar da ata-baba yurdlarından didərgin salınmışdılar.

Beləliklə ermənilər əsrlər boyu bizimlə düşmənçilik ediblər, biz isə onlara sığınacaq vermiş, həmişə də əzizləmişik. Ermənilərin tarixən davam edən düşmənçilikləri bu gün daha dəhşətli şəkildə üzə çıxdı. Rusiyanın və xarici ölkələrin dəstəyinə arxalanan ermənilər Xankəndi şəhərini, Şuşa, Laçın, Əsgəran, (indiki Xocalı), Martuni (indiki Xocavənd), Hadrut, Mardakert (indiki Ağdərə), Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam və Kəlbəcər rayonlarını bütövlükdə işğal edərək, talan-qarət edib, yandırıb külə döndərdilər. Torpaqlarımızın 20 faizdən çoxunu zəbt edib bir milyondan artıq soydaşlarımızı yurdsuz-yuvasız qoydular.

Bax budur ermənin iç üzü. Əsrlər boyu Yer üzünə səpələnib, onu haramlayan həşəratlara, bir ovuc naqisə qarşı barışmaz olmalı, qisasımızı almalıyıq. Qisas qiyamətə qala bilməz! Qalarsa qiyamət günü bütövlükdə məhşər ayağına çəkiləcəyik. Aranlı, Dağlı Qarabağsız, Zəngəzursuz, Göyçəsiz Azərbaycan yaşaya bilməz! Yalnız mübarizə və yenə də mübarizə! Nicat yolumuz budur, bu!



## "XOCALI — YADDAŞ MUZEYİ"

"Xocalı — yaddaş muzeyi" Bakı şəhəri, Nəsirəddin Tusi küçəsi 22 saylı binanın zirzəmisində yerləşir. Yaddaş muzeyinin kiçik, qaranlıq, havasızlıqdan inləyən otaqlarını gəzdikcə qaysaq bağlamış yaralarım qövr etməyə başladı...




Muzeyin girəcəyində yerləşən əbədi məş'əlin qarşısındakı balaca büstdə körpəsini başı üstünə qaldıran ana bizi sanki qisasa çağırır! Bu dar məkana sığınan heykəlləşmiş ananı heç bir təsəlli ilə ovundurmaq olmur ki, olmur...

Bu ananın göz yaşları sanki selə dönüb Xəzərə tökülür ki, heç olmazsa Kür, Araz, Həkəri, Qarqar, Xocalı, Hilis çayları ilə qovuşa bilsin. O yerlərdən bir xəbər-ətər, səs-soraq almaq istəyir, ana. Ana mübariz əhval-ruhiyyəsini itirmir, daha dəyanətli, dözümlü olmağa çalışır. Heykəlləşmiş bu ana yaddaşlarda yaşamaq üçün vüqarlı, əzəmətli bir görkəmdə dayanıb, muzeydə yerləşən tarixi yaddaşlara, bir ovuc Xocalı torpağına keşik çəkir sanki...

Muzey üç bölmədən ibarətdir:



Azərbaycan Milli Kitabxanası

Birinci bölmədə İmadəddin Nəsiminin, Hüseyn Cavidin barelyefləri, Azərbaycan musiqisinin korifeylərindən Üzeyir bəy Hacıbəyovun şəkli və 1903-cü ildə Zaqafqaziyanı əhatə edən xəritə nəzər-diqqəti cəlb edir. Xəritədə Azərbaycan torpaqları bütöv və bölünməzdir. Lakin...



Muzeydə zəngin tarixi sənədlər, fotostendlər Qarabağ müharibəsinə aid nəşr olunmuş kitab və tarixi əsərlər, Xocalının qəhrəman oğullarının döyüş yolunu əks etdirən sənədlər diqqəti cəlb edir.









Muzeydə 1918-ci il mart qırğını, 20 noyabr vertolyot faciəsi, 20 yanvar qırğını da yaddan çıxmamışdır. Divarlara vurulmuş "Xocalı faciəsi xalqımızın faciəsidir!" "Əgər şəhidlərin ruhuna hörmət edirsənsə, ağlama, mübariz ol, qeyrətli ol, intiqam al!", "Torpaqlarımızın azad olunması, Müstəqilliyimiz üçün var qüvvəni sərf et!" kimi şüarlar adamı mübarizəyə, intiqama səsləyir.

## Xocalı torpağı!

Bu torpaq muzeyin 3-cü salonunda özünə yer tapıb. Havasızlıqdan sanki bu torpağın da nəfəsi təngiyib. Bu torpaq and yerimiz, amalımız olmalıdır. Hərbi xidmətə, vətənin keşiyində dayanmağa gedənlərimiz bu qanlı torpaq qarşısında baş əyməli, and içməlidirlər.

Tarix dərsləri "Xocalı — yaddaş muzeyi"ndə keçirilməli, şagirdlərimiz hərbi-vətənpərvərlik, qeyrət, namus təcəssümünü buradan öyrənməlidirlər. Yaddaş muzeyi unutqanlıqdan, yaddaşsızlıqdan çox-çox uzaqlara aparır adamı... Xocalı yaralarını bu muzeydə toplayan, zəhmətkeş alim **Bəkir Şükür oğlu Məmmədov**:



Azərbaycan Milli Kitabxanası




— 1992-ci ildə 26 fevral faciəsi baş verəndən sonra belə qərara gəldim ki, faciəni bütün dünyaya yaymaq üçün faktlar toplayıb cəmiyyət yaradım. Xocalı—yaddaş xeyriyyə cəmiyyətini yaratdıq. Mənim iştirakım ilə Xətai metrosunun yanında Xocalı abidəsi ucaldıldı. Sonra isə həmin rayonda Xocalının adına küçə verildi. Xocalı faciəsinin ildönümünün keçirilməsi üçün müraciətlər etdik. Nəhayət Milli Məclisin qərarı ilə hər il, 26 fevralda "Qarabağ Xeyriyyə evi"-ndə faciənin ildönümünü keçirmək qərara alındı.

Milli Qəhrəmanımız "Əlif Hacıyev adına diplom" tə'sis etdik. 1992-ci ilin dekabrında ilk dəfə bu diplomu Davud Məşdi oğluna, Sərvər İbrahimova, Füzuli Rüstəmova, həkim Məmməd Nağıyevə və Araz Səlimova təqdim etdik.

Qərara alındı ki, Xocalı faciəsinə aid olan bütün tarixi materialları toplayıb "Yaddaş muzeyi" yaradaq. Muzeyin eksponatlarını çox çətinliklə topladıq və muzeyin açılışını təşkil etdik. Bu açılışda xanəndə Canəli Əkbərov, şair Həmid Abbas, Xocalı mədəniyyət şö'bəsinin müdiri Hüseyn Hüseynov da iştirak edirdilər.











Azərbaycan Milli Kitabxanası

Muzeyin açılışından sonra "Dərviş və Yaddaş" marafonu keçirdik. Bu tədbirdə respublikamızın görkəmli alimləri, mədəniyyət xadimləri, şəhid ailələri, Xocalı sakinləri iştirak edirdilər. Bakı Veteranlar cəmiyyətinin sədri Səlim Səlimov, şair Həmid Abbas, müğənni Flora Kərimova və başqaları marafonda fəal iştirak edirdilər. Tənqidçi alim Vaqif Arzumanlının, Abdulla Qurbaninin çıxışları xüsusi qeyd olunmalıdır.

"Xocalı yaddaş muzeyi" havasız, işıqsız, qaranlıq zirzəmidə yerləşsə də öz fəaliyyətini davam etdirir və gələcəkdə daha da zənginləşəcək...



## YADDAŞ!

Əziz oxucu! Unutma bu qara xətlə yazılmış ləkəli, qanlı tariximizi. Unutqanlığımızın acı nəticəsidir bu sadalanan işğal illəri və günləri. Məhz həmin unutqanlığımızdandır ki, aşağıda göstərilən rayonlarımız erməni qaniçənləri tərəfindən işğal olunmuş, insanlarımız öz yurd-yuvalarından didərgin düşmüşlər.

1. Xocalı — 26 fevral, 1992-ci il.
2. Şuşa — 8 may, 1992-ci il — 30000 nəfər.
3. Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd, Hadrut — 7 iyul 1993-cü il.
4. Laçın — 17 may, 1992-ci il — 30 000 nəfər.
5. Kəlbəcər — 31 mart, 1993-cü il — 60 000 nəfər.
6. Ağdam — 23 iyul, 1993-cü il — 150 000 nəfər.
7. Cəbrayıl — 20 avqust, 1993-cü il — 60 000 nəfər.
8. Füzuli — 22 avqust, 1993-cü il — 110 000 nəfər.
9. Qubadlı — 1 sentyabr, 1993-cü il — 60 000 nəfər.
10. Zəngilan — 28 oktyabr, 1993-cü il — 60 000 nəfər.

Ümumiyyətlə erməni təcavüzü nəticəsində respublikanın 1000-dən artıq şəhər, qəsəbə, kənd, yaşayış məntəqəsi işğal olunmuş, ərazilərin təsərrüfat, sənaye obyektləri talan-qarət edilmişdir. Respublika ərazisinin 20 faizdən çox hissəsi, yə'ni 4-də biri işğal edilmiş, 1 milyondan artıq adam yurd-yuvasından qaçqın düşmüşdür.

Eyni zamanda Ermənistandan 200.000 artıq soydaşımız ata-baba yurdlarından çıxarılmış, var-dövlətləri ermənilər tərəfindən talan edilmişdir.



Azərbaycan Milli Kitabxanası

## SON SÖZ

Əziz oxucu!

Bu kitab Azərbaycanın ən qədim tarixə malik olan, ulu tanrının əsirgəmədiyi təbiət gözəlliyi ilə fərqlənən Qarabağın dağlıq hissəsində yerləşmiş Xocalı şəhərinin tarixinə, dünəninə kiçik bir səyahətdir.

Bu səyahətlə müəllif unudulmuş tariximizin müxtəlif səhifələrini xatırladaraq yaddaşlarda həkk olunmasına çalışmış, bu günkü oxucunu və gələcək nəsli xüsusilə sayıq olmağa, ata-babalarından qəhrəmanlıq nümunəsi öyrənməyə çağırmışdır. Xocalı şəhəri çox qədim tarixə malik olmaqla yanaşı, gözəl təbiəti və qızıla bərabər torpağı, eləcə də bu torpağa böyük məhəbbətlə bağlı olan zəhmətkeş, vüqarlı, qəhrəman insanları ilə daima fərqlənmişdir.

Sonuncu iki əsrə yaxın bir dövr, yə'ni 1828-ci ildən Qarabağın dağlıq hissəsində məskunlaşmağa başlayan, daima onun-bunun torpağına, var-dövlətinə göz dikən və müxtəlif hiyləgərliklərlə onu ələ keçirməyə çalışan erməni adlı bir millətlə qonşuluğu bütün azərbaycanlılar kimi ürəyiyumuşaq olan xocalılara çox baha başa gəlmişdir. İyirminci əsrin əvvəllərində iki dəfə (1905-ci və 1918-ci illərdə) Xocalı kəndi erməni hücumlarına mə'ruz qalsa da, kəndin demək olar ki, bütünlüklə yandırılmasına baxmayaraq xocalılar onun müdafiəsini və yenidən bərpasını həyata keçirmişlər. Lakin mə'nəvi saflıq və ürəyitəmizlik ermənilərin yenidən 1988—92-ci illərdə əl-qol açmasına, özünə bənzər qüvvələrlə birləşərək demək olar ki, bütün dünyada müharibə alovunun güclənməsinə səbəb oldular. 1992-ci ilin 25-26 fevralında isə misli görünməmiş vəhşiliklər edərək iyirminci əsrin ən böyük Xocalı faciəsini tarixə yazdılar. Bu faciə ermənilərin vəhşiliyi, xocalıların isə qəhrəmanlığı — qanı ilə tarixə yazıldı.

Azərbaycanın, hətta bütün türk dünyasının dünyaya sübut edə bilmədiyi erməni hiyləgərliyi və vəhşiliyini xocalılar öz canları və qanları bahasına sübut etdilər. Bütün bunlara vaxtında qiymət verilməsə də, Azərbaycanın bugünkü rəhbəri, sərkərdəsi, Prezidenti Heydər Əliyev Xocalı faciəsinin tarixi qiymətini verdi və sağ qalmış əhalisindən öz qayğısını əsirgəmədi.

Xocalı əhalisinin hər biri öz doğma torpağının müdafiəsində qəhrəmanlıq nümunələri göstərmiş, bütün Azərbaycan xalqına örnək olmuşlar.



Bu günə əhalinin təqribən hər min nəfərindən biri "Azərbaycanın milli qəhrəmanı" adına, hər yüz nəfərindən biri Azərbaycanın ən yüksək orden və medallarına layiq görülüb.

Hörmətli oxucu!

Bu kitab iyirminci əsrin sonuncu ilində Xocalıdan uzaqda, Xocalı faciəsinin 7-ci ildönümü ərəfəsində hazırlanmış, Xocalı tarixində yeni bir səhifədir. İyirmi birinci əsrin astanasında, ümumilikdə Qarabağa, eləcə də qədim Xocalı torpaqlarımıza qayıdacağımıza inam hissi ilə, gənc nəslin tərbiyəsində bu kitabın əhəmiyyət kəsb edəcəyinə böyük ümidlə müəllifə, müəllim yoldaşım Qasım Qırxqızlıya minnətdarlığımı bildirirəm.

**Murad Şükürov.**
*Xocalı rayon təhsil şö'bəsinin müdiri.*

## ƏDƏBİYYAT


1. Rəşid Göyüşov: Qarabağın keçmişinə səyahət, Bakı — 1993-cü il.
2. Rəşid Göyüşov: Azərbaycan arxeologiyası. Bakı — 1986-cı il.
3. Mirəli Seyidov: Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı — 1989-cu il.
4. ASE (III, IV, V cildlər).
5. B.Ə.Budaqov: Türk uluslarının yer yaddaşı. 1994-cü il.
6. Qiyasəddin Qeybullayev: Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı—1990-cı il.
7. Cahangir Zeynaloğlu: Müxtəsər Azərbaycan tarixi. Bakı — 1992.
8. Əjdər Fərzəli: Dədə Qorqud yurdu.
9. Azərbaycan tarixi: Ən qədim dövrlərdən 20-ci əsrin əvvəllərinə qədər. 1993-cü il.
10. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı — 1989-cu il.
11. Хроника НКАО, февраль, 1988; февраль, 1990.
12. Трагедия виновников, которых невозможно оправдать.
13. Qarabağnamələr. B.Yazıçı, 1989 /1-ci kitab/.
14. Qarabağnamələr. B. Yazıçı, 1991 /2-ci kitab/.
15. Nəsib Nəsibzadə: Azərbaycan Demokratik Respublikası (Məqalələr və sənədlər). Bakı, Elm, 1990.
16. Ə.B.Haqverdiyev: Xortdanın cəhənnəm məktubları.
17. Yusif Vəzir Çəmənzəminli: "Qan içində", roman.
18. "Mübariz keşikdə" qəzeti, 1998-ci il.
19. "Qarabağ" qəzeti.
20. "Xocalının səsi" qəzeti.



Qasım Qırxqızlı


**Əsrin faciəsi — Xocalı**
(Azərbaycan dilində latın qrafikası ilə)


Bakı
1999



Azərbaycan Milli Kitabxanası

Redaktorlar: ***Oqtay Sadıxov***
***Güldanə Əmrullah qızı***

Yığılmağa verilib 04.01.99. Çapa imzalanıb 09.02.99.
Kağız formatı 60x90 1/16. Uçot nəşr vərəqi 8,0.
Şərti çap vərəqi 7,75. Sifariş № 697.
Tirajı 2000. Qiyməti müqavilə ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi
Şərq-Qərb nəşriyyatı
Böyük Qala küçəsi, 41.

"Əbilov, Zeynalov və oğulları" İstehsalat-ticarət kompaniyasının mətbəəsi
Bakı, M.Qorki küçəsi, 43.

Azərbaycan Milli Kitabxanası

Az 1999
739

Şərq-Qərb